14 iyun 2018-ci il
№22 (8788)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

## Bu sayımızda

**Yaradıcı müəllim və məktəb rəhbəri axtarışında** ⇨səh.3

**Bəzi deputatlar üçün xatırlatmalar** ⇨səh.7

**Uşaq birlikləri rəhbərləri işinin metodikasına dair** ⇨səh.8

**Nailiyyətlərin simaları** ⇨səh.9

# İlk zəngdən son zəngə

## Təhsildə keyfiyyət ilinin nailiyyətləri



Daha bir tədris ili yekunlaşdı. Hər il olduğu kimi, yenə ilk zənglə başlayıb son zənglə başa çatsa da, təkrarsız, yeniliklərlə dolu bir il oldu. Bəs bu ildən geriyə nə qaldı?

Təhsil əhatə etdiyi bütün sahələrdə keyfiyyəti hədəf götürdü. "Təhsildə keyfiyyət ili" adı altında davamlı inkişafa hədəflənən planlar, gerçəkləşən çoxsaylı tədbirlər, bir-birini əvəz edən ardıcıl addımlar 2017-2018-ci tədris ilinin "Gündəliy"inə qeyd edildi.

### Məktəbəqədər və ümumi təhsildə islahatların nəticəsi

Məktəbəqədər və ümumi təhsildə həyata keçirilən islahatlar ilin sonunda artıq öz nəticəsini verdi. Təhsilin bu istiqaməti üzrə ən böyük islahat təmayülləşmənin miqyasının genişlənməsi oldu ki, bu da ali təhsil müəssisələrinə qəbul imtahanlarında nəticələrin yüksəlməsi ilə müşayiət edildi. Yaxud, müəllimlərin işə qəbulu müsabiqəsi və ya diaqnostik qiymətləndirməsini götürək. Dəyişərək təkmilləşən qaydalar müəllimlərin problemlərinin daha asan yolla həllini təmin etməklə yanaşı, onların öz üzərində işləyərək peşəkarlığının, bilik səviyyəsinin artırılmasında mühüm rol oynadı.

⇨Ardı səh.4

# Müasir təhsilin trendləri

"Süni intellekt və təhsil" mövzusundakı yazılarımızdan birində qeyd etmişdik ki, elə vaxt gələcək savad almaq üçün ali məktəblərə getməyə ehtiyac olmayacaq. Yox, universitetlərdə təhsil alacağıq, ancaq indiki kimi get-gələ ehtiyac duyulmayacaq. Məsələn, biologiyadan hansısa sual üzərində çətinlik çəksək, "intellektual divar"a müraciət edəcəyik, orada müəllimimizin görüntüsü peyda olacaq, biz soruşacağıq, o cavablandıracaq. Artıq indidən proqnozlaşdırılır ki, vaxt gələcək hər birimizin elektron Hoakinqi və ya Maskı olacaq.

Əslində, qeyri-adi heç nə yoxdur. Məsələn, Aristotelin Makedoniyalı İsgəndərin şəxsi müəllimi olduğunu ilk dəfə oxuduqda heyrətlənməyən az olar. Niyə? Ona görə ki, hamı belə ağıllı müəlliminin olmasını arzulayır. Təsəvvür edin: İsgəndərlə Aristotel üz-üzə oturublar, tələbə sual verir, filosof cavablandırır. Bundan sonra Makedoniyalı fateh dünyanın yarısını fəth etməyib neynəsin?

Hazırda iqtisadi və elmi tərəqqi məhz elə bir istiqamətdə cərəyan edir ki, hər birimizin hər şeyi bilən müəlliminin olacağı gün çox da uzaqlarda deyil. Fizika? Buyur, sənin şəxsi elektron Hoakinqin olacaq! Mühəndis işi? Mask kimi ağıllı birindən öyrənmək istəyirsən? Onun özünü yox, "elektron variant"ını təşkil edə bilərik. Fikrimizcə, izlənən proses təhsilin gələcəyinin 4 mühüm amildən asılı olacağını göstərir. Bunlar hansılardır?

**1. İqtisadi amil.** Təhsil insan fəaliyyətinin bütün digər sferalarından fərqlənir. Bu fərq də əsas etibarilə iqtisadi faktorla əlaqəlidir. Nəyi nəzərdə tuturuq? Məsələ burasındadır ki, bugün yüksək texnologiyalar hesabına tutaq ki, qida məhsulları, yaxud avtomobil sənayesində ciddi artım müşahidə edirik. Yəni yüz il qabaq "Ford" bir ilə onlarla avtomobil istehsal edirdisə, indi bu rəqəm yüzminlərlədir. Dünya əhalisi artır, məntiqi olaraq qida sənayesi də daha sürətlə işləyib tələbatı ödəməyə çalışır. Təhsildə isə belə deyil: müəllim orta məktəbdə, professor isə universitetdə yenə də yazı taxtasının qarşısında dayanıb tələbələrinə növbəti dərsi izah edir. Düzdür, yazı taxtası qarşısında dərs prosesi yüz illər əvvəl olduğu kimi sadə taxta və təbaşirdən ibarət deyil, indi müasir kompüterlər var və s. Ancaq fakt faktlığında qalır: bir auditoriyada, yaxud sinifdə norma ilə məhdud sayda şagird, tələbə və dinləyici var.

Burada bir məqamı unutmayaq. Kəmiyyət artımı olmasa da, keyfiyyət faktorunda dəyişiklik var. Müəllim yüz il bundan əvvəldən fərqli olaraq daha çox informasiya bilir və ötürür. Ali məktəbə hazırlaşan gənc daha yaxşı repetitorla müqavilə bağlaya bilər. Yəni daha keyfiyyətli təhsil almaq üçün. Bu baxımdan, təhsil sferasının futuroloqları problemin həllini tapıblar.

⇨Ardı səh.12

# Hesabat, uğur hekayələri və təşkilatlanmaq istəyi

## Əsas qəhrəmanı Bakı məktəbliləri olan ilk forum

"Nizami" Kino Mərkəzi məktəblilər üçün ayrılıb. Bakının hər yerindən şagirdlər gəlib. Bu gün onların - Bakı məktəblilərinin günüdür. Toplanma səbəblərinə gəlincə, forum keçirirlər.

"Ümumi təhsildə keyfiyyət ili" çərçivəsində baş tutan tədbirlərdən biri olsa da, məktəbin və məktəblinin həyatında bir ilkdir.

Daimi olması, hər il keçirilməsi diləyi ilə başladı. İstedadlı şagirdlərlə aparılan işin əhatə dairəsini genişləndirmək, gənc nəslin düzgün istiqamətdə formalaşmasına töhfə vermək, onların intellektual inkişafını diqqət mərkəzində saxlamaq, istedad və qabiliyyətlərini inkişaf etdirmək məqsədi ilə təşkil edildi. Təşkilatçısı isə Bakı Şəhəri üzrə Təhsil İdarəsi (BŞTİ) idi.

### Əsas qəhrəmanlar məktəblilərdir

Bu tədbirin iştirakçıları da, əsas qəhrəmanları da məktəblilərdir. Məktəb həyatı nailiyyətlərlə dolu olan, uğuru uğur dalınca qazanan, elm, bilik, idman, incəsənət, musiqidə olan və bu nailiyyətləri sadəcə istedadlı olduğu üçün deyil, zəhmət çəkdiyi, qətiyyət göstərdiyi üçün əldə edənlərdir. Ancaq qonaqları da var: Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Məhəbbət Vəliyeva, idarənin müvafiq struktur bölmə rəhbərləri, məktəb direktorları, şagird dostları, bir də KİV nümayəndələri.

Foyedə şagirdlərin çəkdiyi rəsmlər sərgilənir. Məktəblilərin əlindən çıxan sənət nümunələri qonaqları valeh edib. Bir baxan dönüb bir də baxır.

Zalda isə yerlər tutulub. Dövlət himninin səsləndirilməsi ilə Forum işə başlayır. Bakı məktəblərinin böyük nailiyyətləri olan şagirdləri səhnəyə çıxıb öz uğur boxçalarını bir-bir açırlar.

### Harvard Universitetinin azərbaycanlı tələbəsi

Səhnəyə ilk çıxan İlkin Bayramlı olur. Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki 93 nömrəli tam orta məktəbdə oxuyur. XI sinif şagirdidir. Yüksək bal toplayaraq Harvard Universitetində tam təqaüdlə təhsil almaq imkanı əldə edib. Bakı məktəblisi IELTS, SAT, SAT esse imtahanlarından, "Dünya tarixi" və "2-ci səviyyə riyaziyyat" fənlərindən yüksək nəticə qazandığını deyib. 2018-ci ildə qəbul faizi 4,59 faiz olan Harvard Universitetinin bakalavriat səviyyəsində təhsil almaq şansı qazanan yeganə azərbaycanlıdır. Əlavə edir ki, Harvard Universiteti onun qazandığı yeganə ali təhsil müəssisəsi deyil. İstedadlı məktəbli topladığı balla Harvarddan əlavə, Amerikanın Kolqeyd, Çexiyanın Çarles, Belçikanın Löven Katolik universitetlərində və Sinqapurun Yale-NUS Kollecində də tam təqaüdlə təhsil almaq şansı qazanıb.

⇨Ardı səh.11



# Təlimdə geri qalan şagirdlərlə işin təşkili

## Şagirdləri sistemli mütaliəyə cəlb etməklə onların təlimə maraqlarını artırıram

Səh.8

# Bu il XI sinifləri 83001 nəfər şagird bitirir

2017-2018-ci tədris ilində respublikanın ümumtəhsil məktəblərinin IX siniflərini 111257 nəfər, XI siniflərini 83001 nəfər, qiyabi (axşam) ümumtəhsil məktəblərini isə 658 nəfər şagird bitirir.

2017-2018-ci tədris ilində respublika üzrə 4442 ümumi təhsil məktəbində fəaliyyət göstərən 4767 məktəbəhazırlıq qrupunu 93960 uşaq başa vurub. Növbəti tədris ilində dövlət hesabına fəaliyyət göstərən məktəbəhazırlıq qruplarına respublika üzrə cəlb olunacaq uşaqların sayının beşyaşlıların 75 faizini təşkil edəcəyi proqnoz edilir.

2018-2019-cu tədris ilində respublikanın ümumtəhsil məktəblərinin I siniflərinə 165780 uşağın qəbulu proqnozlaşdırılır.

Təhsil naziri Ceyhun Bayramovun müvafiq əmrinə əsasən, "Son zəng" tədbiri iyunun 14-də hər bir təhsil müəssisəsinin ərazisində təşkil olunacaq. Əmrdə məktəb rəhbərlərinə "Son zəng" tədbirində valideyn komitələri,valideyn-müəllim assosiasiyaları və ictimaiyyət nümayəndələrinin, məktəbin sabiq məzunlarının iştirakı tövsiyə edilib. Yerli təhsili idarəetmə qurumları tərəfindən "Son zəng"in məzmunlu keçirilməsi və şagirdlərin təhlükəsizliyinin təmin edilməsi istiqamətində zəruri tədbirlərin görülməsi də əmrdə əks olunub.

Məzunları təbrik edir, onlara gələcək həyat və təhsillərində uğurlar arzulayırıq!

# Elm və təhsilin inteqrasiyası

Müasir dövrün reallıqları ölkələr qarşısında həlli vacib vəzifələr qoyur. Bu vəzifələrin böyük hissəsi istənilən ölkənin inkişafının əsas hərəkətverici qüvvəsi olan elm və təhsilin payına düşür. Məhz elm və təhsilin üzvi surətdə vəhdəti biliklər iqtisadiyyatının inkişafına yol açmaqla insan kapitalının formalaşmasını və rəqabət dünyasında ölkənin mövqelərinin möhkəmlənməsini şərtləndirir. Son illərdə Azərbaycanın elm və təhsili sahəsində əldə edilən ən mühüm yeniliklərlə AMEA-nın Rəyasət Heyətinin iyunun 8-də respublikamızın elm və təhsil elitasının iştirakı ilə keçirilən ümumi yığıncağında yaxından tanış olmaq olardı.

Öncə AMEA-nın prezidenti, akademik Akif Əlizadə Akademiyanın beşillik fəaliyyətinə dair məruzə ilə çıxış edib. O, Akademiyanın Rəyasət Heyətinin 2013-cü ildə seçilmiş tərkibinin beşillik fəaliyyət müddətinin başa çatdığını, bu müddətdə prioritet istiqamətlər üzrə bir çox nailiyyətə imza atıldığını bildirib: "Bu gün Akademiya elmi problemlərin həlli ilə bərabər, respublikamızın ictimai və iqtisadi inkişafında, strateji yol xəritələrinin həyata keçirilməsində yaxından iştirak edir".

Akademik Akif Əlizadə AMEA-da həyata keçirilən sosial proqramlardan, elmin populyarlaşdırılması istiqamətində fəaliyyətdən, hüquqi islahatlar, ictimaiyyətlə əlaqələrin qurulması sahələrindəki uğurlardan da söz açıb.

⇨Ardı səh.6

## RƏSMİ XRONİKA




- İyunun 13-də Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin görüşü olub.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Rusiya Federasiyasına işgüzar səfərə gəlib.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev TANAP layihəsinin açılış mərasimində iştirak etmək üçün iyunun 12-də Türkiyə Respublikasında səfərdə olub. Həmin gün Türkiyənin Əskişəhər şəhərində TANAP qaz kəmərinin istifadəyə verilməsi münasibətilə təntənəli mərasim keçirilib. Prezident İlham Əliyev mərasimdə iştirak edib. Səfər çərçivəsində Prezident İlham Əliyevin Əskişəhərdə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Ukrayna Prezidenti Petro Poroşenko və BP şirkətinin baş icraçı direktoru Robert Dadli ilə görüşləri olub.
- Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 11-də Müdafiə Nazirliyinin Raket Qoşunlarının “N” saylı hərbi hissəsinin açılışında iştirak edib.
- Prezident İlham Əliyev iyunun 11-də Q.Q.Qurbanovun Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyinin direktoru təyin edilməsi, A.Ə.Məmmədovun Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinin direktoru təyin edilməsi, Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi, Y.S.Abramovun “Şöhrət” ordeni ilə təltif edilməsi, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyası əməkdaşlarının təltif edilməsi haqqında sərəncamlar imzalayıb.
- Azərbaycan Prezidenti İlham Əliyev iyunun 10-da Rusiya Federasiyasının, Peru və Bolqarıstan respublikalarının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirlərinin etimadnamələrini qəbul edib.
- Dövlət başçısı İlham Əliyev iyunun 8-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə bu ölkənin Dövlət bayramı - Rusiya Günü, Filippin Respublikasının Prezidenti Rodriqo Roa Duterteyə ölkəsinin milli bayramı - Müstəqillik Günü münasibətilə təbrik məktubları ünvanlayıb.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 8-də Avropada Mühafizəkarlar və İslahatçılar Alyansının prezidenti, Avropa Parlamentinin Beynəlxalq Ticarət Komitəsinin vitse-prezidenti, Avropa Parlamentinin üzvü Yan Zahradili qəbul edib.

# “Tələbələr üçün Ombudsman xidmətinin yaradılması” ilə bağlı Vyanada görüş

12-13 iyun tarixlərində Avstriyanın Vyana şəhərində Erasmus+ proqramı çərçivəsində “Tələbələr üçün Ombudsman xidmətinin yaradılması” (AESOP) layihəsi ilə bağlı növbəti görüş keçirilib.

Avstriyanın Təhsil, Elm və Tədqiqat Nazirliyinin nəzdində fəaliyyət göstərən Tələbə Ombudsman Ofisində baş tutan görüşdə Təhsil Nazirliyini Elm, ali və orta ixtisas təhsili şöbəsinin əməkdaşları Nərgiz Qaraxanova və Vüsalə Qurbanova təmsil ediblər. Sözügedən qurum layihənin tərəfdaşlarından biridir və digər benefisiar tərəfdaşlar (o cümlədən respublikamızın dörd ali təhsil müəssisəsi) Avstriyanın təcrübəsi ilə tanış olmaq üçün bu tədbirdə iştirak ediblər.

Tədbirdə ali təhsil müəssisələri yaratdıqları ombudsman ofisləri, layihə çərçivəsində gördükləri işlər, iş əsnasında yaranan problemlər barədə məlumatlar verib. Görüşdə layihə ilə bağlı gələcək addımlar müzakirə edilib, mövzu ətrafında geniş diskussiyalar aparılıb və tövsiyələr verilib.

Qeyd edək ki, layihə çərçivəsində cari ilin əvvəllərində Xəzər, Gəncə Dövlət, Naxçıvan Dövlət və Naxçıvan universitetlərində tələbələr üçün Ombudsman ofisləri yaradılıb. Həmin ofislərin yaradılmasında məqsəd tələbələrin akademik mühitdə yarana biləcək çətinliklərinin aradan qaldırılması üçün çıxış yollarının göstərilməsi, bu sahədə qanunvericiliklə bağlı tələbələrin məlumatlandırılması, onların hüquq və vəzifələrinin izah edilməsi, həmçinin təbliğat işlərinin aparılması və tələbələrin hüquqlarının müdafiəsidir.



Ofis işçiləri və Ombudsman tərəfləri məlumatla təmin edir, onları istiqamətləndirir, tələbələrin suallarına cavab tapmaqda kömək edir və aidiyyəti olan tərəflərə böhranlı vəziyyətin həlli yolunu tapmaqda yardım göstərir.

# Yeni təqaüd proqramı elan edilib

**Oruc MUSTAFAYEV**

Türkiyə Respublikasının Türkiyə və Yaxın Şərq Dövlət İdarəçilik İnstitutu (TODAİE) 2018/2019-cu tədris ilində xarici ölkələrin dövlət qulluqçuları üçün magistratura və doktorantura təhsil səviyyələri üzrə təqaüd proqramı elan edib. Təqaüd proqramı politologiya və dövlət idarəçiliyi ixtisasları üzrə həyata keçirilir. Tədris ingilis dilində aparılacaq. Magistratura təhsil səviyyəsi üzrə aylıq təqaüd 850, doktorantura təhsil səviyyəsi üzrə aylıq təqaüd 1200 türk lirəsidir.

Maraqlananlar iyulun 17-dək müraciət edə bilərlər. Ərizə forması və tələb olunan bütün digər sənədlər iyulun 17-dək *enderun@todaie.edu.tr* elektron poçt ünvanına göndərilməlidir. Daha ətraflı məlumatı www.todaie.edu.tr/genel/bizden_detay_eng.php?kod=1908&tipi=67 səhifəsindən əldə etmək olar.

Qeyd edək ki, Türkiyə və Yaxın Şərq Dövlət İdarəçilik İnstitutu 1952-ci ildə Türkiyə Cümhuriyyəti və Birləşmiş Millətlər Təşkilatı arasında imzalanan texniki yardım anlaşması çərçivəsində qurulub. TODAİE təkcə Türkiyənin deyil, həm də onun yaxın coğrafiyasını təşkil edən Yaxın Şərq, Balkan və Qafqaz məkanının ən güclü və nüfuzlu dövlət idarəçiliyi institutu statusunu qazanıb. Hazırda bu nüfuzlu təhsil müəssisəsində Türkiyə ilə yanaşı, 32 ölkənin 60-a yaxın nümayəndəsi təhsilini davam etdirir. TODAİE yalnız nəzəri biliklərin verildiyi bir akademik qurum deyil, eyni zamanda idarəçilik üzrə təcrübə mübadiləsi mərkəzi kimi də fəaliyyətə malikdir. Təhsil, araşdırma və nəşr fəaliyyətləri ilə ölkədə və dünyada son dərəcə mötəbər mövqeyə malik olan institutun magistratura proqramları Avropa Dövlət İdarəetmə Akkreditasiya Birliyi tərəfindən akkreditə olunub.

# AzTU alimləri “Elm-Təhsil İnteqrasiyası” adlı qrant müsabiqəsində 5 layihə üzrə qalib olub

## Qalib layihələrə Elmin İnkişafı Fondu tərəfindən 315000 manat qrant ayrılıb

Azərbaycan Texniki Universitetinin (AzTU) alimləri tərəfindən Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun təşkil etdiyi “Elm-Təhsil İnteqrasiyası” adlı qrant müsabiqəsinə təqdim olunan layihələrdən beşi qalib olub. Qalib olan layihələrə Elmin İnkişafı Fondu tərəfindən ümumilikdə 315000 manat qrant ayrılıb.

Qrant ayrılan layihələr “Azərbaycanda elektron tullantıları problemləri və onların həlli yolları”, “İnnovativ metallurgiya texnologiyası əsasında yayma istehsalatında yüksək xassələrə malik bimetallik valın işlənilməsi”, “A2VB3VI birləşmələri əsasında aşqarlama və nanostrukturlaşma yolu ilə alınmış yüksək termoelektrik effektivli yeni materiallar”, “Acınohur titanmaqnetit superkonsentratının məhsullarından istifadə etməklə litium titanatların sintezi və xassələrinin funksiyalaşdırılması” və “Qeyri-səlis məntiq əsasında universitetlərin göstəricilərinin təhlili üsulları və informasiya analitik sistemin işlənilməsi” layihələridir.

Layihələr AMEA-nın müxtəlif institutları və elmi-tədqiqat mərkəzləri ilə birgə icra olunacaq.

Qeyd edək ki, Elmin İnkişafı Fondunun təşkil etdiyi “Elm-Təhsil İnteqrasiyası” adlı qrant müsabiqəsində qalib gələn 69 fundamental-tətbiqi xarakterli və 2 xüsusi layihəyə ümumilikdə 4 milyon 090 min manat vəsait ayrılıb.

# Gələcəyini qur

**Rəşad ZİYADOV**

## Məktəblilərə ixtisas seçimində və gələcək karyeralarını müəyyənləşdirməkdə dəstək

İyunun 12-də “Məktəblinin dostu” layihəsi və Azərbaycan Gənclərinin Nailiyyəti İctimai Birliyinin əməkdaşlığı çərçivəsində keçirilən “Gələcəyi qur: Məktəblərdə karyeranın planlaşdırılması və inkişafı” layihəsinin növbəti mərhələsi olaraq məktəb şagirdləri üçün müxtəlif sektorlarda işləyən peşəkarlarla görüş təşkil edilib.

Həm yerli, həm də xarici şirkətlərin iştirakı ilə həyata keçirilən tədbirdə Azərbaycan Respublikasının Təhsil Nazirliyi və “Məktəblinin dostu” layihəsi əsas tərəfdaşlar olaraq çıxış edib. Şevron Xəzər şirkətinin maliyyə dəstəyi ilə reallaşdırılan layihənin əsas məqsədi yuxarı sinif şagirdlərini müasir əmək bazarının tələbləri, müxtəlif peşələr və iş dünyası ilə tanış edərək onlara öz bacarıq və maraqlarına uyğun ixtisas seçimində və gələcək karyeralarını rasional şəkildə müəyyənləşdirməkdə yol göstərməkdir. Burada şagirdlər aktiv şəkildə müxtəlif özəl və dövlət qurumlarında çalışan əməkdaşlarla görüşüb, onları hər hansı peşə ilə bağlı maraqlandıran suallara cavab tapa bilirlər. Qeyd edək ki, tədbirdə şagirdlər öncədən seçdikləri məzmunlara uyğun iş adamları ilə görüş şansı əldə edirlər. Bu isə o deməkdir ki, hansısa bir şagird maliyyə və turizm sahəsi ilə maraqlanırsa, artıq o həmin sahənin mütəxəssisi ilə “dəyirmi masa” ətrafında görüşür, arzuladığı iş və sahə ilə bağlı marağı olan suallara cavab tapır, gələcəkdə bu sahəyə yiyələnməyin mərhələlərini öyrənir.

“Məktəblərdə karyeranın planlaşdırılması və inkişafı” layihəsinin növbəti mərhələsi olaraq şagirdlərin peşəkarlarla görüşünü yüksək dəyərləndirən “Məktəblinin dostu” layihəsinin rəhbəri Rüstəm Ağayev bildirib ki, nəzdimizdə Psixoloji Mərkəz peşə seçimi və karyera planlaşdırması fəaliyyət göstərir. Bu əməkdaşlıq qeyd olunan istiqamətdə müəyyənləşdirdiyimiz hədəflərə çatmaq üçün olan gedişata öz xüsusi töhfəsini verir: “Artıq bu ilin fevral ayından bizim əməkdaşlıq üçün görüşümüz keçirildi və proqramın mərhələləri müəyyənləşdirildi. İlkin etap olaraq təlimçilərin təlimləndirilməsi baş tutdu, belə ki, “Məktəblinin dostu” layihəsinin tətbiq olunduğu 32 məktəbdən 32 nəfər əməkdaş 15-16 mart tarixlərində keçirilən təlim sessiyalarına cəlb olundu. Proqramın davamı olaraq 15 məktəbdə paralel zamanda “Məqsədli Karyera” təlim sessiyalarına start verildi. 7 sessiyadan ibarət olan təlim mərhələsində şagirdlər iş və karyera arasındakı fərqi, şəxsi bilik və bacarıqlarının, eləcə də onlara məxsus dəyərlərin müvafiq karyera sahələri ilə uyğunluğunu müəyyənləşdirmə imkanı əldə etdilər. Ümumilikdə, ixtisas, peşə seçimi yolunda hansı addımların vacibliyi barəsində məlumat əldə etmiş oldular. Təlimlərə 400 nəfər şagird cəlb edildi, bu gün isə professional mühitdə 130 nəfərə yaxın şagird iştirak edir ki, bu, artıq özü uğurdur”.

Ümumiyyətlə, şagirdlərin əmək bazarında mövcud olan karyera və yeni iş imkanlarını daha yaxşı dərk etmələri üçün bu cür peşəkarlarla biznesyönümlü görüşlərin təşkilini təqdirəlayiq hal kimi qiymətləndirən Rüstəm Ağayev şagirdləri fəal olmağa və bu cür imkanı səmərəli şəkildə dəyərləndirməyə dəvət etdi.



Tədbirdə Azərbaycan Gənclərinin Nailiyyəti İctimai Birliyinin icraçı direktoru Sevinc Məmmədova, Şevron Xəzər şirkətinin direktoru Bəxtiyar Axundov və Təhsil Nazirliyinin nümayəndəsi Orxan Abbasov layihənin önəmi barəsində təhlillərlə çıxış ediblər.

Daha sonra Silab İnnovasiya Laboratoriyası Bakı Mərkəzinin qurucusu Cəsur Həsənov və PMD qrupunun nümayəndəsi Nərmin Rəhimli iş fəaliyyəti barəsində təqdimatlar edib.

“World cafe” formatında təşkil olunmuş tədbirdə fərqli peşə sahələrindən olan peşəkarlarla görüş müasir əmək bazarının müxtəlif sahələr üzrə mümkün karyera və iş imkanları barədə şagirdləri maarifləndirməyə imkan yaradıb. Tədbirdə Şevron Xəzər, Paşa Bank, Paşa Sığorta, PMD Grup, Barama İnnovasiya və Sahibkarlıq mərkəzi, Azercell və Deloitte kimi şirkət əməkdaşları 15 ümumtəhsil müəssisəsindən seçilmiş 130 nəfər şagirdlə fikir mübadiləsi aparıb. Şagirdlər hər sahə üçün ayrılmış masalara yaxınlaşaraq mütəxəssislərə onları maraqlandıran sualları ünvanlayıb müzakirə etmək şansı əldə ediblər. Tədbirdə rəsmi tərəfdaş qurumların nümayəndələri və məktəblərdə təlimləri icra edən “Məktəblinin dostları” iştirak edib.

Qeyd etmək lazımdır ki, layihənin ilkin mərhələsində “Məktəblinin dostu” layihəsinin tətbiq olunduğu 15 ümumtəhsil müəssisəsindən 400 şagird “Məqsədli Karyera” təlim proqramında iştirak edib, bacarıq və maraqlarının müxtəlif karyera sahələri ilə uyğunluğunu müəyyən etmə imkanından faydalanıblar.

Tədbir şagirdlərə sertifikatların təqdim olunması mərasimi ilə başa çatıb.

## Doktorantların və gənc tədqiqatçıların XXII Respublika elmi konfransının keçirilməsi barədə

### Azərbaycan Respublikası təhsil nazirinin əmri

Doktorantların və gənc tədqiqatçıların apardıqları elmi tədqiqat işlərinin nəticələrinin müzakirəsini təşkil etmək, habelə onların elmi yaradıcılığını stimullaşdırmaq məqsədilə "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 13.5-ci bəndini rəhbər tutaraq

ƏMR EDİRƏM:

**1.** Doktorantların və gənc tədqiqatçıların XXII Respublika elmi konfransı 2018-ci il 22-23 noyabr tarixlərində Azərbaycan Dövlət Pedaqoji Universitetində keçirilsin və konfrans Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr edilsin.

**2.** Konfransın Təşkilat komitəsinin tərkibi və Əsasnaməsi təsdiq edilsin (əlavə 1 və 2).

**3.** Ali təhsil müəssisələrinin rektorları doktorantların və gənc tədqiqatçıların məruzə tezislərinin 2018-ci il 1 oktyabr tarixinədək Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsinə təqdim edilməsini təmin etsinlər.

**4.** Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru (C.Cəfərov) konfransın yüksək səviyyədə keçirilməsi üçün lazımi şərait yaratsın, konfransın proqram və materiallarının nəşr edilməsini təmin etsin.

**5.** Elm, ali və orta ixtisas təhsil şöbəsi (Y.Piriyev) konfransın keçirilməsi ilə əlaqədar lazımi təşkilati məsələləri həll etsin.

**6.** İnformasiya şöbəsi (E.Məmmədov) bu əmrin Nazirliyin internet səhifəsində yerləşdirilməsini, "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını, çoxaldılıb ali təhsil müəssisələrinə göndərilməsini təmin etsin.

**7.** Əmrin icrasına nəzarət nazir müavini F.Qurbanova həvalə edilsin.

**Ceyhun BAYRAMOV,**
**Azərbaycan Respublikasının təhsil naziri**

*8 iyun 2018-ci il*

## Respublika fənn olimpiadalarının nəticələri barədə

### Azərbaycan Respublikası təhsil nazirinin əmri

2017-2018-ci tədris ili üzrə keçirilmiş məktəblilərin fənn olimpiadalarının başa çatdığını nəzərə alaraq nəticələrin elan edilməsi məqsədi ilə "Azərbaycan Respublikası Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 8.14-cü bəndini rəhbər tutaraq

ƏMR EDİRƏM:

**1.** 2017-2018-ci tədris ili üzrə Respublika fənn olimpiadalarının nəticələri elan edilsin (əlavə olunur).

**2.** İnformasiya şöbəsi (E.Məmmədov) əmrin çoxaldılıb yerlərə çatdırılmasını, "Azərbaycan müəllimi" qəzetində dərc edilməsini və Nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**3.** Əmrin icrasına nəzarət aparat rəhbəri vəzifəsini icra edən, müşavir Muxtar Məmmədova həvalə olunsun.

**Ceyhun BAYRAMOV,**
**Azərbaycan Respublikasının təhsil naziri**

*4 iyun 2018-ci il*

## Təhsil naziri Mingəçevir şəhərində vətəndaşları qəbul edəcək

**Ağdaş, Yevlax, Bərdə rayon və Mingəçevir şəhər sakinlərinin nəzərinə!**

Təhsil naziri Ceyhun Bayramov 29 iyun 2018-ci il tarixində saat 11:00-da Mingəçevir şəhərindəki Heydər Əliyev Mərkəzində mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2018-ci ilin iyun ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Ağdaş, Yevlax, Bərdə rayon və Mingəçevir şəhər sakinlərini qəbul edəcək. Qəbulda Ağdaş, Yevlax, Bərdə rayonlarında və Mingəçevir şəhərində müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak edə bilərlər.

Qəbula gəlmək istəyən vətəndaşlar 8-22 iyun 2018-ci il tarixlərində Təhsil Nazirliyinin Telefon Məlumat Mərkəzinin 146 nömrəli telefonuna ("Qaynar xətt" xidməti) zəng etməklə və ya nazirliyin rəsmi saytının "Vətəndaşların qəbulu" bölməsinə daxil olmaqla *(http://edu.gov.az/az/contacts/request)* elektron qeydiyyatdan keçə bilərlər.

Qeydiyyatdan keçmiş vətəndaşlardan xahiş olunur ki, qəbula gələrkən aidiyyəti məsələləri dolğun ifadə edən ərizə ilə müraciət etsinlər.

# Cümhuriyyətin 100 illik yubileyinə SABAHın töhfəsi

## "SABAH" incəsənət festivalı ilə



İyunun 11-də Beynəlxalq Muğam Mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr edilmiş "SABAH" incəsənət festivalının bağlanış mərasimi keçirilib.

Festivalın keçirilməsində məqsəd SABAH qrupları layihəsinin incəsənətlə bağlı müvafiq ali təhsil müəssisələrində təhsil alan tələbələrinin nailiyyətlərini nümayiş etdirmək, tələbələrin təhsilə və yaradıcılığa həvəsini artırmaq və milli mədəniyyətimizi təbliğ etməkdir.

Tədbirdə Prezident Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva, təhsil naziri Ceyhun Bayramov, millət vəkilləri, ölkəmizin tanınmış mədəniyyət və incəsənət xadimləri, ali təhsil müəssisələrinin rəhbərləri və digər qonaqlar iştirak ediblər.

Əvvəlcə qonaqlar Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının SABAH qruplarının tələbələrinin müxtəlif layihələri, əl işləri ilə tanış olublar.

Daha sonra tədbirdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbələrinin hazırladığı tamaşa nümayiş olunub.

Sonra Bakı Musiqi Akademiyasının SABAH tələbələrinin ifasında musiqi proqramı təqdim edilib.

Tədbirdə çıxış edən təhsil naziri Ceyhun Bayramov müasir dünyada təhsilin mühüm rolundan, ölkəmizdə bu sahənin inkişafı ilə bağlı reallaşdırılan tədbirlərdən danışıb. Nazir SABAH qrupları tələbələrinin festivalın keçirildiyi iki gün ərzində təqdim etdiyi nümunələrin təqdirəlayiq olduğunu bildirib və bu cür tədbirlərin miqyasının genişləndirilməsinin vacibliyini vurğulayıb.

Qeyd edilib ki, 2014-2015-ci tədris ilindən etibarən fəaliyyət göstərən SABAH qrupları ali təhsildə tədrisin keyfiyyətinin yüksəldilməsi, yeni və fərqli mühitin yaradılması, savadlı, bacarıqlı və hazırlıqlı tələbələrin yetişdirilməsi, əmək bazarının artan tələblərinə müvafiq olaraq kadr hazırlığının təmin edilməsi məqsədi ilə yaradılıb.

Tədbirin sonunda festivalın təşkilinə göstərdikləri xüsusi dəstəyə görə müvafiq ali təhsil müəssisələrinin rəhbərlərinə təşəkkürnamələr təqdim olunub, bu müəssisələrin bir qrup əməkdaşı diplomlarla təltif edilib.

Festival Təhsil Nazirliyi, Beynəlxalq Muğam Mərkəzi və "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin birgə əməkdaşlığı ilə təşkil olunub. SABAH qruplarının incəsənətlə əlaqədar 4 ali təhsil müəssisəsinin-Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası və Bakı Musiqi Akademiyasının iştirakı ilə təşkil edilən festivala iyunun 10-dan start verilib. Həmin gün ADMİU-nun "Səda" Tədris Teatrında SABAH qrupları müəllimləri və tələbələrinin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə hazırladığı "Hərə bir qəhrəman" tamaşası təqdim edilib. İçərişəhərdə Qoşa Qala qapısı meydanında isə SABAH qrupları layihəsinin incəsənətlə bağlı müvafiq ali təhsil müəssisələrində təhsil alan tələbələrin nailiyyətləri nümayiş olunub. Həmçinin canlı tamaşalar göstərilib, klassik musiqi əsərləri ifa olunub, rəssamlıq, keramika, xalçaçılıq, qobelen və dizaynla əlaqədar SABAH tələbələrinin nailiyyətləri təqdim edilib.

Festival çərçivəsində incəsənətin müvafiq sahələri üzrə ustad dərsləri də keçirilib.

# Yaradıcı müəllim və məktəb rəhbəri axtarışında

## Pedaqoji mühazirələrin respublika mərhələsi keçirilib

**Niyazi RƏHİMOV**



İyunun 9-da 132-134 nömrəli təhsil kompleksində "Ümumi təhsildə keyfiyyət ili" çərçivəsində pedaqoji mühazirələrin respublika mərhələsi keçirilib.

Mühazirələrdə təhsil nazirinin müavini Firudin Qurbanov, Təhsil Nazirliyinin nümayəndələri, məktəb rəhbərləri, tanınmış təhsil işçiləri iştirak edib.

Təhsil nazirinin müavini Firudin Qurbanov pedaqoji mühazirələri dinləyib, bu mühazirələrdə çıxış edən müəllimlərə öz tövsiyələrini verib. Nazir müavini pedaqoji mühazirələrin müəllimlərin bilik və bacarıqlarının artırılmasında mühüm rol oynayacağını bildirib, onların iş təcrübələrinin digər həmkarları arasında yayılmasının faydalı olacağını vurğulayıb.

Qeyd edək ki, pedaqoji mühazirələrin yazılmasında ümumi təhsil sistemində çalışan işçilər-müəllimlər, məktəb rəhbərləri, metodistlər, məsləhətçilər, psixoloqlar iştirak ediblər. Pedaqoji mühazirələrin keçirilməsində əsas məqsəd ümumi təhsilin keyfiyyət göstəricilərinin yaxşılaşdırılması ilə bağlı aktual məsələlərə diqqəti artırmaq, təhsil işçilərinin bu barədə rəy və mülahizələrini öyrənmək, yaradıcı müəllim və məktəb rəhbərlərini aşkara çıxarmaq, qabaqcıl təcrübə nümunələrini təbliğ etmək və perspektiv üçün inkişafyönlü təkliflər hazırlamaqdan ibarətdir.

Təhsil Nazirliyinin nümayəndəsi Əhliyət Adıgözəlov bizimlə söhbətində bildirib ki, pedaqoji mühazirələr 2 mərhələdə - rayon (şəhər) və respublika mərhələləri üzrə təşkil olunmuşdur. Rayon (şəhər) mərhələsinin qaliblərinin mühazirələri respublika mərhələsinə təqdim olunub. Respublika mərhələsində proqrama 14 bölmə üzrə 114 pedaqoji mühazirə daxil edilib. Pedaqoji mühazirələr hər bir bölmə üzrə bölmə rəhbərləri və üzvlər tərəfindən dinlənilib və 10 ballıq sistemlə qiymətləndirilib.

Pedaqoji mühazirələrin hər bölməsində təxminən 20-25 nəfər dinləyici iştirak edib. Dinləmələrin qiymətləndirilməsi zamanı bölmə rəhbəri ilə bərabər digər 4 nəfər tanınmış təhsil işçisi iştirak edib. Dinləmələr obyektiv və şəffaf şəkildə aparılıb. Qiymətləndirmədən sonra qaliblər müəyyənləşəcək.

Pedaqoji mühazirələrdə təqdimatla çıxış edən müəllimlərin də təəssüratlarını öyrəndik.

Göygöl rayon 1 nömrəli tam orta məktəbin tarix müəllimi, mühazirəçi Elnur Hacıyev pedaqoji mühazirələrlə bağlı öz fikirlərini bizimlə bölüşdü. O, pedaqoji mühazirələrin müəllimlərin müxtəlif istiqamətlərdə potensiallarının üzə çıxmasına səbəb olduğunu dedi:

Mən "Layihə metodlu ekskursiyaların təşkili" mövzusu ilə pedaqoji mühazirələrə qatıldım. Təqdim etdiyim mühazirə respublika mərhələsinə vəsiqə qazandı. Mühazirələr müəllimlər üçün çox səmərəli keçir. Biz öz təqdimatımızdan başqa digər müəllim yoldaşlarımızın da təqdimatlarını dinlədik və onların pedaqoji təcrübələrindən faydalandıq.

Sumqayıt şəhər 1 nömrəli tam orta məktəbin fizika müəllimi Aliyə Əhmədova pedaqoji mühazirələrə qatılmaqda məqsədinin respublikanın qabaqcıl müəllimləri ilə təcrübə mübadiləsində iştirak etmək, onların təcrübələrindən yararlanmaq olduğunu bildirdi.

"Mən də öz təcrübələrimi müəllimlərlə bölüşməyə gəlmişəm. Mühazirədə təbiət elmlərində yeni təlim həllərindən hesab olunan sistem təlim texnologiyası haqqında məlumat verdim. Çalışacağam ki, həmin müəllimləri öz layihəmə cəlb edim. 2018-ci ildə sistem təlim texnologiyasının ilk dəfə olaraq Qafqaz regionunda konfransını təşkil etməyi planlaşdırıram".

Aliyə Əhmədova pedaqoji mühazirələrdə iştirak edən müəllimlərin təqdimatlarının təkcə bu prosesə qatılanların deyil, respublikamızın bir çox təhsil işçisinin də bundan faydalanacağını deyib.

# İlk zəngdən son zəngə

## Təhsildə keyfiyyət ilinin nailiyyətləri







⇦ Əvvəli səh.1

Ruhiyyə DAŞSALAHLI

Beləliklə, məktəbəqədər və ümumi təhsildə hansı keyfiyyət dəyişikliyinə nail olunduğuna nəzər yetirək:

### Təmayülləşmənin miqyası genişlənib

Yuxarıda qeyd etdiyimiz kimi, 2017-2018-ci dərs ilindən ümumi təhsilin tam orta təhsil səviyyəsində təmayülləşməsinin miqyası genişləndi. Tətbiqi heç də sadə olmayan bu prosesdə hər bir məqam nəzərə alınmışdı. Yəni IX sinfi bitirən şagirdlərin meyil-maraqlarına görə düzgün seçimi, peşəkar səviyyəli pedaqoji heyətin formalaşdırılması, məktəblərdə lazımi təlim-tərbiyə şəraitinin yaradılması, təhsilin məzmununun müasir çağırışlara uyğun optimal müəyyənləşdirilməsi diqqətlə ölçülüb-biçilib sonra icraya yönəldildi.

Beləliklə, icbari ümumi orta təhsil səviyyəsində fənlər üzrə zəruri minimum bilik və bacarıqlara yiyələnən şagirdlər üçün tam orta təhsilin marağa uyğun təşkili ümumi təhsil sistemində yeni mərhələnin əsasını qoydu. Nəticədə 2017-2018-ci dərs ilində ölkə üzrə 722 məktəbin təmayüllü 1206 onuncu sinfinə 27005 nəfər şagird cəlb olundu.

### Azərbaycan məktəblilərinin bilik hərəkatı

Respublika fənn olimpiadaları ölkənin bütün şəhər və rayonlarının məktəblərini əhatə edən elm yarışıdır. Bu yarışlar ayrı-ayrı fənlər üzrə xüsusi istedadı olan şagirdlərin aşkarlanmasına xidmət edir. Onların bilik və bacarıqlarının qiymətləndirilməsi, şagirdlərin həmin fənlərə olan maraqlarının artırılması, sağlam rəqabət mühitində öz bilik və bacarıqlarını nümayiş etdirmələrinə imkan yaradılması məqsədi daşıyır. Azərbaycan dili və ədəbiyyatı, riyaziyyat, fizika, kimya, biologiya, informatika, coğrafiya və tarix olmaqla 8 fənn üzrə IX, X və XI sinif şagirdlərinin iştirakı ilə keçirilsə də, bu yarışlarda xüsusi istedadı və hazırlığı ilə seçilən 7-8-ci sinif şagirdlərinə də tez-tez rast gəlinir.

Builki Respublika fənn olimpiadalarında 33 mindən çox şagird iştirak etdi, 45 nəfər qızıl, 89 nəfər gümüş, 142 nəfər bürünc olmaqla 276, Naxçıvan MR daxil olmaqla isə 298 nəfər qalib elan edildi.

Ölkəmizdə keçirilən olimpiadaların 4 ildir artan dinamika ilə inkişafı nəzərdən qaçmayıb. 4 il öncə bu yarışa 22 min şagird qatıldığını nəzərə alsaq, ildən-ilə artan dinamika güclənən etimad və böyüyən maraqla izah oluna bilər. Belə ki, olimpiada 3 ildir fərqli qaydalarla müxtəlif formatda keçirilir. Hər il iştirakçıların sayının artması gərgin müsabiqə şəraiti yaradır və kifayət qədər böyük rəqabət mühiti formalaşır. Artım dinamikasının ayrı-ayrı fənlər üzrə də müşahidə olunması olimpiadanın məqsədinə çatdığının göstəricisidir.

Respublika fənn olimpiadalarında fəal iştirak ölkəmizin beynəlxalq bilik yarışlarındakı nəticələrinə təsirsiz ötüşmür. Elə götürək sonuncu dərs ilini. 2017-2018-ci tədris ilində beynəlxalq olimpiadalarda qazanılmış medalların sayı 13 olub.

Onu da qeyd edək ki, beynəlxalq olimpiadalarda təmsil olunan komandalarımız əksər hallarda ən gənc komandalar olur. Tərkibində 7-8-ci sinif şagirdləri də olan komandalarımız nümayiş etdirdikləri biliklə ölkəmizi fərqləndirirlər. Bunun nəticəsidir ki, beynəlxalq olimpiadalarda olan medal sayı ildən-ilə yaxşılaşır.

Xatırladaq ki, Azərbaycan məktəbliləri 1994-cü ildən beynəlxalq olimpiadalarda 314 medal qazanıb. Son 5 il ərzində isə məktəblilər ölkəmizə 3 qızıl, 21 gümüş və 85 bürünc medal olmaqla, ümumilikdə 109 medal gətiriblər. Bu da müstəqillik dövründə qazanılan bütün medalların təxminən 35 faizidir.

### Heydər Əliyev yolu şagirdlərin təqdimatlarında

Artıq 3-cü ildir ki, IX-XI sinif şagirdləri ulu öndərlə bağlı düşüncələrini, arzularını *"Ən yaxşı təqdimat"* müsabiqəsində ifadə edirlər. İqtisadi cəhətdən inkişaf etmiş mərkəzi şəhərlərdə yerləşən ən nüfuzlu məktəblərdən tutmuş ucqar kəndlərdəki kiçik məktəblərə qədər hər yerdən məktəblilər dahi şəxsiyyətlə bağlı ürək sözlərini ədəbi-bədii dillə, öz tərzində təqdim edirlər. Bu il ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibəti ilə keçirilən "Ən yaxşı təqdimat" müsabiqəsinin nəticələrinə əsasən, 8 nəfər I, 14 nəfər II, 18 nəfər III dərəcəli diplomla, 25 nəfər isə tərifnamə ilə təltif olundu.

Qeyd edək ki, təkcə birinci yerə layiq görülən 8 nəfərdən 5-nin kənd məktəblərindən, hətta rayon mərkəzindən 30 kilometrədək uzaqlıqda yerləşən təhsil müəssisələrindən seçildiyini nəzərə alsaq, müsabiqənin miqyasını və əhəmiyyətini, şəffaflığını və ədalətliliyini təsəvvür etmək daha asan olar.

### "Ədəbiyyat biliciləri"

Mütaliə vərdişlərinin təkmilləşdirilməsi, şagirdlərdə bədii ədəbiyyata marağın daha da artırılması, ədəbi biliklərin genişləndirilməsi, kitaba sevginin yaradılması məqsədi ilə artıq üçüncü ildir ki, keçirilir. Bu ümumrespublika müsabiqəsi ümumtəhsil məktəblərinin VIII-XI sinif şagirdlərini əhatə edir. Müsabiqənin builki nəticələrinə görə, 5 nəfər birinci, 10 nəfər ikinci, 15 nəfər üçüncü dərəcəli diploma, 20 nəfər tərifnamayə layiq görülüb.

### Müəllimlər diaqnostik qiymətləndirmədə

Məlum olduğu kimi, Azərbaycanda əvvəllər heç vaxt müəllimlərin qiymətləndirilməsi aparılmayıb. İlk dəfə 2014-cü ildə başlayan proses 2017-ci ildə başa çatıb və ölkənin ümumi təhsil müəssisələrində çalışan müəllimlərin diaqnostik qiymətləndirilməsinə yekun vurulub. Beləliklə, 2014-2018-ci illər ərzində respublika üzrə ümumilikdə 140000-dən çox pedaqoji işçi diaqnostik qiymətləndirmədən keçib və qiymətləndirməyə cəlb edilmiş müəllimlərin dərs yükü norması 1,5 dəfə yüksəldilməklə əməkhaqları 2 dəfə artırılıb. Əvvəllər az bal toplayan və yaxud topladığı balla qane olmayanlar diaqnostik qiymətləndirilməsi üçün yenidən müraciət ediblər. Nəticədə 2018-ci ildə 16000-dən, 2017-ci ildə 49000-dən çox müəllim diaqnostik qiymətləndirmədən keçib.

Məlumat üçün bildirək ki, diaqnostik qiymətləndirmənin nəticələri müəllimlərin iş yerinin dəyişdirilməsi zamanı nəzərə alınır. Onların bilik və bacarıq səviyyələrinin müəyyənləşdirilməsi dərs yükünün rasional bölüşdürülməsinə xidmət edir. Yüksək nəticə göstərənlərin dərs yükü norması və əməkhaqqı, bununla da maddi rifahı yaxşılaşdırılır.

Sadəcə müəllimlərin deyil, regionlardakı məktəbdənkənar təhsil müəssisələrinin dərnək rəhbəri və məşqçi-müəllimlərinin də bilik və bacarıqlarının qiymətləndirilməsi keçirilir. Bu il 3616 nəfər dərnək rəhbəri və məşqçi-müəllimin bilik və bacarıqları qiymətləndirilib. Bu da regionlar üzrə pedaqoji işçi heyətinin ümumi sayının 88,32 faizi deməkdir. On beş istiqamət üzrə aparılan qiymətləndirmədə məntiqi düşünmə və pedaqoji qabiliyyət, peşə-ixtisas, informasiya-kommunikasiya texnologiyaları üzrə biliklər və psixoloji xüsusiyyətlər yoxlanılıb. Onu da bildirək ki, müəllimlərin diaqnostik qiymətləndirilməsinin nəticələri kimi, bu imtahanın nəticələri də nəzərə alınır. Belə ki, məktəbdənkənar təhsil müəssisələrinin sayının optimallaşdırılması zamanı müəssisələrin yeni tərkibinin müəyyənləşdirilməsində dərnək rəhbəri və məşqçi-müəllimlərin qiymətləndirmədəki nəticələri əsas götürülür.

### 477 müəllimlə yeni müqavilə

Müəllimlər üçün bu il ilk dəfə həyata keçirilən daha bir yenilik müddətli müqavilə ilə işləyənlərin daimiləşməsi üçün onlarla müsahibələrin təşkil edilməsi oldu. Bu məqsədlə martın 29-dan ölkə üzrə sənəd qəbulu aparıldı. Tələb edilən meyarlara uyğun olduğunu hesab edən hər kəs müraciət edərək müsabiqəyə qatıldı. Əvvəlki illərdə buna bənzər layihələr olsa da, bu dəfə ümumtəhsil müəssisələrində müddətli müqavilə ilə işləyən müəllimlərin həmin yerlərə daimiləşdirilməsi mərkəzləşdirilmiş qaydada ilk dəfə reallaşdırıldı. Uyğun hesab edilən 477 nəfərlə bağlı müsbət qərarlar verildi və onlar işlədikləri yerlərə daimi müəllim olaraq qəbul edildilər. Həmin şəxslər 2016-2017-ci və 2017-2018-ci tədris illəri üzrə müəllimlərin işə qəbulu müsabiqəsində zəruri keçid balını toplayan və ümumi təhsil müəssisəsinə müddətli əmək müqaviləsi əsasında işə qəbul edilən müəllimlər idi.

### Müəllimlərin yerdəyişməsində yenilik

Bu il müşahidə edilən ən çox yenilik müəllimlərin yerdəyişməsi müsabiqəsində oldu. Təhsil Nazirliyi sisteminə daxil olan ümumi təhsil müəssisələrində müddətsiz müqavilə ilə işləyən müəllimlərin iş yerinin digər ümumtəhsil müəssisələrinə dəyişdirilməsi artıq eyni rayon (şəhər) daxilində və ya bir rayondan (şəhərdən) digərinə olmaqla iki mərhələdə yox, bir mərhələdə proqram təminatı tətbiq edilməklə həyata keçirilir. Namizədlər işə qəbul üzrə müsabiqədə və ya diaqnostik qiymətləndirilmədə 2 və ya daha çox sayda iştirak edibsə, ona müsabiqəyə qatılmaq istədiyi balı seçmək imkanı verilir. Həmçinin güzəştli kateqoriyalara əvvəlcədən müəyyən edilən bal artımı tətbiq olunur.

### Yüksək bal toplayanlar arasında hədəfi müəllimlik olanların sayı ildən-ilə artır

Bütün bu islahatlar istər-istəməz müəllim peşəsinin nüfuzunun artmasına gətirib çıxarır. İstər müəllimlərin diaqnostik qiymətləndirilməsi və bunun nəticəsi olaraq onların maaşının artırılması, istər müəllimlərin və məktəb direktorlarının işə qəbul qaydalarında ədalətli, şəffaf sistemin yaradılması, istərsə də kənd məktəblərində işə qəbul olunmuş gənc mütəxəssislərə həvəsləndirmə tədbirləri, "Gələcəyin müəllimi təqaüdü"nün təsis edilməsi gənc müəllimlər üçün stimula çevrilir. Hətta müsabiqədə yüksək bal toplayan gənc müəllimlərin ucqar kənd məktəblərində işləməyə üstünlük verdikləri də müşahidə edilir. Təhlillər göstərir ki, yüksək bal toplayan və müəllimlik ixtisasını ilk sırada seçən tələbələrin sayı ildən-ilə artır. Bu artım dinamikası, sadəcə yüksək bal toplayıb müəllim olmaq arzusunda olanlara Təhsil Nazirliyinin verdiyi əlavə təqaüdlə izah oluna bilməz. Gənclər həm də ona görə müəllim olmaq istəyirlər ki, bu peşənin nüfuzu artır. Bunu rəqəmlər də təsdiq edir. Məsələn, 2014-cü ildə 500 və daha artıq bal toplayan 674 nəfər müəllimlik ixtisasını seçmişdisə, 2017-ci ildə bu rəqəm 1370 olub.

2018-ci ildə ali təhsil müəssisələrinə qəbul imtahanlarının yaz sessiyasında da belə faktlarla qarşılaşdıq. 600-də çox bal toplayan eyni sinifdən iki şagirdin müəllimliyi seçməsi faktı İsmayıllı rayonunda müşahidə edildi. Belə faktları nəzərə alsaq, bu il yüksək balla müəllimliyi seçənlərin artacağı şübhə doğurmur.

### PIRLS qiymətləndirilməsində nəticələr yüksəlib

İbtidai təhsil səviyyəsinin sonunda şagirdlərin oxu bacarıqlarını qiymətləndirən beynəlxalq tədqiqat proqramı olan PIRLS 2001-ci ildən başlayaraq hər beş ildən bir keçirilir. Azərbaycan bu proqrama ilk dəfə 2011-ci ildə qoşulub və bu, ölkəmizin ikinci iştirakıdır. Təsadüfi seçim əsasında 170 ümumtəhsil məktəbi, 6000-dən çox şagird, 340 müəllim və 6000-dən çox valideynlə bu beynəlxalq tədqiqatda yer alan Azərbaycan özünəməxsus mövqeyi ilə seçilib. PIRLS-2016 tədqiqatında iştirak edən 4-cü sinif şagirdlərinin nəticələrinə gəlincə, nəticələr ürəkaçandır. Belə ki, azərbaycanlı şagirdlərin 2016-cı ildə oxu bacarıqları 2011-ci ilin müvafiq göstəricisi ilə müqayisədə 10 bal artaraq 462 baldan 472 bala yüksəlib. "PIRLS 2011" tədqiqatının nəticələri ilə müqayisədə son 5 ildə "mükəmməl" və "yüksək" səviyyəyə uyğun nəticə göstərmiş ibtidai sinif şagirdlərinin sayı 2 dəfə artıb. "Aşağı" səviyyəyə uyğun nəticə göstərmiş şagirdlərin faizi isə 10 faiz azalaraq 37-dən 27-yə enib.

### Birinci siniflərə elektron qəbulun əhatə dairəsi genişlənib

Bu il 51 mindən artıq uşağın birinci sinfə qəbul olacağı proqnozlaşdırılır. Təhsil Nazirliyi vətəndaş məmnuniyyətinə nail olmaq və şəffaflığı təmin etmək məqsədi ilə artıq 4 ildir ki, Bakı şəhərində məktəbə qəbulu elektron sistem vasitəsilə aparır. Bu ildən ilk dəfə olaraq Gəncə və Sumqayıt şəhərlərində, o cümlədən Abşeron rayonunda da eyni qayda tətbiq edildi.

Beləliklə, 2018-2019-cu dərs ili üçün Bakı ilə yanaşı, Gəncə və Sumqayıt şəhərlərinin, Abşeron rayonunun, eləcə də Təhsil Nazirliyinin birbaşa tabeliyindəki ümumi təhsil müəssisələrinin I siniflərə şagird qəbulu elektron sistem vasitəsi ilə həyata keçirilir. İyunun 11-nə olan məlumata əsasən, elektron sistem (mektebeqebul.edu.az) vasitəsi ilə I sinfə qəbul üçün ümumilikdə 58 minə yaxın sorğu yerləşdirilib. Belə ki, paytaxt məktəblərinin I sinfinə qəbul üçün bu günədək 42325 sorğu yerləşdirilib. Abşeron rayonu üzrə 5776, Gəncə şəhəri üzrə 3802, Sumqayıt şəhəri üzrə 5353 nəfərin sorğusu qeydə alınıb. Həmin bölgələr üzrə I sinfə gedəcək şagirdlərin sayının 17 873 nəfər olacağı proqnozlaşdırılır.

Qeyd edək ki, sözügedən xidmət "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 23 may 2011-ci il tarixli fərmanının tələblərinə uyğun olaraq həyata keçirilir.

### İnformatika fənninin yeni formatda tədrisi

Təhsil Nazirliyi 2017-2018-ci dərs ilindən proqramlaşdırmanın tədrisi məqsədi ilə informatika fənni üzrə "Rəqəmsal bacarıqlar" pilot layihəsinin mərhələlər üzrə tətbiqinə başlayıb. Layihə çərçivəsində alqoritmik düşüncə və məntiq, layihə işləmə bacarıqları inkişaf etdirilir və proqramlaşdırmanın əsasları öyrədilir. İnformatika fənninin yeni formatda tədrisindən ibarət olan layihəyə Bakı məktəblərindən start verilib. Artıq 45 məktəb üzrə 240 sinifdə 6500-ə yaxın V sinif şagirdi əhatə olunub. İnformatika fənninin yeni formatda tədrisi 150-dən çox müəllim tərəfindən aparılır. Həm rus, həm də Azərbaycan dilində həyata keçirilən tədris prosesi ilə bağlı çoxlu müsbət rəy var.

### Peşə təhsilində canlanma

Təhsilin bütün sahələrində olduğu kimi, peşə təhsilində də canlanma yaranıb. Ötən dərs ilində bu istiqamətdə bəzi ciddi addımlar atılıb. Məsələn, qanunvericilik bazası təkmilləşdirilib. İlk dəfə olaraq "Peşə təhsili haqqında" qanun layihəsi hazırlanıb və Milli Məclisin plenar iclasında qanun qəbul olunub. "Peşə təhsili müəssisələrində yaşlıların təhsili və ixtisasartırma kurslarının təşkili Qaydaları"nın, "Dövlət və bələdiyyə tərəfindən yaradılan ilk peşə-ixtisas təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin layihəsi hazırlanıb.

Ötən dövr ərzində peşə təhsili müəssisələri üzrə 1350 mühəndis-pedaqoji heyətin diaqnostik qiymətləndirilməsi keçirilib.

800-dən artıq ümumtəhsil fənn, 200-dən artıq ixtisas fənn müəllimləri və ustalar ölkəmizdə və ölkədən kənarda keçirilən seminarlarda, o cümlədən pedaqogika, didaktika, kurikulumun hazırlanması və tədrisi üzrə təlimlərdə iştirak ediblər.

"Azərbaycanda Peşə Təhsili və Təliminin (PTT) inkişafına Avropa İttifaqının dəstəyi" Texniki Yardım layihəsinin və regionlarda (Gəncə, Bərdə, Qax, İsmayıllı, Qəbələ və Cəlilabad) peşə təhsili müəssisələrinin fəaliyyətinə dəstək məqsədilə Avropa İttifaqının 4 qrant layihəsinin icrasına başlanılıb.

### "ASAN Peşə" təhsil mərkəzi

2018-ci il fevralın 27-də Mingəçevirdə Təhsil Nazirliyinin və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin birgə layihəsi olan "ASAN Peşə" təhsil mərkəzi yaradıldı.

⇨Ardı səh.5

# İlk zəngdən son zəngə

## Təhsildə keyfiyyət ilinin nailiyyətləri

⇦ Əvvəli səh.1

"ASAN Peşə" Təhsil Mərkəzi müasir tələblərə cavab verən bütün növ zəruri avadanlıq, təlim və tədris vəsaitləri ilə təchiz olunub. Layihəyə uyğun olaraq, "ASAN Peşə" Təhsil Mərkəzində 4 istiqamət - elektrik, mexanik, santexnik, tikişçi ixtisasları üzrə tədris aparılacaq.

### Koreya təhsil standartları əsasında Peşə Təhsil Mərkəzinin təməli qoyulub

Koreya təhsil standartları əsasında Peşə Təhsil Mərkəzinin isə həlelik təməli qoyulub. Belə ki, 2019-2020-ci dərs ilində fəaliyyətə başlaması nəzərdə tutulan müasir standartlara uyğun təhsil müəssisəsi - Sənaye və İnnovasiyalar üzrə Dövlət Peşə Təhsil Mərkəzi tamamilə Koreya təhsil standartları əsasında qurulacaq. Azərbaycan və Koreya hökumətləri arasında əldə edilən razılaşmaya uyğun olaraq bu peşə təhsil müəssisəsi bütün növ zəruri avadanlıqlar, təlim və tədris vəsaitləri ilə təchiz olunacaq. Nümunəvi təhsil müəssisəsi olan Peşə Tədris Mərkəzində təhsilalanların bilik və bacarıqlarının inkişaf etdirilməsi üçün əlverişli şərait yaradılacaq. Layihəyə uyğun olaraq Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi mexanika, elektronika, elektrik mühəndisliyi, sənayedə quraşdırma işləri, tikinti, informasiya texnologiyaları, avtomobil və avtomatlaşdırma istiqamətləri üzrə ən müasir maddi-texniki bazaya sahib olacaq.

Xatırladaq ki, Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin bazasında Koreya təhsil standartları əsasında yaradılacaq Peşə Təhsil Mərkəzinin təməlqoyma mərasimi bu il - 2018-ci il yanvarın 26-da olub.

### Avropa İttifaqı peşə təhsilində baş verən dəyişikliklərdən razıdır

Peşə təhsili müəssisələrinin maddi-texniki bazası da gücləndirilir. Təkcə onu demək kifayətdir ki, Bakı və Gəncə şəhərlərində yerləşən peşə təhsili müəssisələrində quraşdırılması üçün Çin Xalq Respublikasından ölkəmizə 70 adda 168 ədəd müxtəlif təyinatlı simulyatorlar, təlim və tədris vəsaitləri gətirilib.

Peşə təhsili sahəsində əldə edilən irəliləyiş diqqətdən qaçmayıb. Bu, Avropa İttifaqının 2018-ci il üçün Azərbaycan üzrə biznes mühiti hesabatında əksini tapıb. Hesabatda Avropa İttifaqına üzv olan 20 ölkədən təqribən 385 şirkətin Azərbaycanda biznes fəaliyyəti ilə bağlı fikirləri yer alıb. Ötən illə müqayisədə bu il sorğuda iştirak edən şirkətlərin sayı 31 faiz artıb. Avropa İttifaqının Azərbaycan üzrə sorğu hesabatında 5 ən vacib islahat təlimləri kimi peşə təhsili sisteminin şirkətlərin tələblərinə uyğunlaşdırılması qeyd edilib. Azərbaycanda fəaliyyət göstərən Avropa şirkətlərinin 24 faizi peşə təhsili və təliminin qənaətbəxş olduğunu bildirib. Bu rəqəm 2017-ci illə müqayisədə 4 dəfə çoxdur. Eləcə də peşə təhsili ilə bağlı İKT sektorundan sorğuya cəlb edilən 7 iştirakçıdan 6-sı bu sahəni qənaətbəxş kimi qiymətləndirib.

### Ali təhsil və elm: ümidlər artır

Ali təhsil və elm istiqaməti üzrə qət edilən məsafə də kifayət qədər böyükdür. Tələbələrin köçürülmə prosesinin sadələşdirilməsi və şəffaflığın təmin edilməsi, beynəlxalq reytinq cədvəllərində Azərbaycan universitetlərinin təmsil olunması, Beynəlxalq Elm və Mühəndislik Sərgisində "Sabahın alimləri" musabiqəsinin qalibləri olan şagirdlərimiz tərəfindən hazırlanan 2 ixtiraçılıq işinin xüsusi mükafatlara layiq görülməsi və başqa faktlar ali təhsil pilləsində də, elm istiqaməti üzrə də gələcəyə ümidləri artırır.

### Köçürülmə ilə bağlı 1067 sorğu təsdiq edilib

Ölkəmizdə tələbələrin köçürülmə prosesinin sadələşdirilməsi və şəffaflığın təmin edilməsi məqsədi ilə artıq 2016-cı ildən ardıcıl addımlar atılır. *"transfer.edu.az"* portalının istifadəyə verilməsi ilə başlayan proses xüsusi vüsət alıb. Artıq 2 ildir ki, tələbələrin yerdəyişməsi və köçürülməsi elektron sistem əsasında uğurla həyata keçirilir. Köçürülmədə edilən bu dəyişikliklər sadəcə tələbələrin rahatlığına səbəb olmayıb, həm də prosesin şəffaflığını təmin edib.

Beləliklə, *"transfer.edu.az"* portalı vasitəsi ilə 2018-ci ildə bakalavriat və magistratura üzrə 1067 nəfərin sorğusu təsdiq olunub. Bakalavriat üzrə yerli ali təhsil müəssisələrindən 650, xaricdəki universitetlərdən 26, magistratura üzrə 15, orta ixtisas təhsili üzrə 186 nəfərin sorğusuna müsbət cavab verilib.

### 225 nəfər xaricdə təhsil almaq hüququ qazanıb

2017-2018-ci tədris ilində hökumətlərarası müqavilələr çərçivəsində 22 nəfər Çin Xalq Respublikasında, 198 nəfər Macarıstanda, 5 nəfər isə Rumıniyada dövlət xətti ilə təhsil almaq hüququ qazanıb.

2018-ci ilin əvvəllərində hökumətlərarası müqavilələr çərçivəsində 2018-2019-cu tədris ili üçün Macarıstanda, Rumıniyada, Latviyada və Çində təhsil məqsədi ilə Təhsil Nazirliyi tərəfindən seçimlər aparılıb, 250-yə yaxın Azərbaycan vətəndaşının namizədliyi təsdiq olunmaq üçün müvafiq ölkələrin aidiyyəti qurumlarına təqdim edilib.

### Azərbaycan universitetləri beynəlxalq reytinq cədvəllərində

Ali təhsil pilləsində müşahidə edilən keyfiyyət dəyişikliyi bir çox məsələlərdə, o cümlədən beynəlxalq reytinq cədvəllərində əksini tapıb. Belə ki, Böyük Britaniyanın "Quacquarelli Symonds" (QS) agentliyinin İnkişaf etməkdə olan Avropa və Mərkəzi Asiya regionu üzrə reytinq cədvəlində Azərbaycanın 6 ali təhsil müəssisəsi 300 ən yaxşı ali məktəb sırasında qərarlaşıb: Bakı Dövlət Universiteti (95), Xəzər Universiteti (100), Azərbaycan Dövlət İqtisad Universiteti (161-170), Azərbaycan Dövlət Memarlıq və İnşaat Universiteti (171-180), Azərbaycan Dillər Universiteti (171-180), Bakı Slavyan Universiteti (201-250).

### Nəşr aktivliyinə görə Azərbaycan regionda birincidir

"Clarivate Analytics" ("Thomson Reuters") şirkəti ilə 2015-ci ildən başlanan əməkdaşlıq öz müsbət nəticələrini verməkdədir. Qlobal elmi bazadan istifadə aktivliyinin dinamikasında 2017-ci ildə əvvəlki illə müqayisədə 75 faiz artım müşahidə olunub. İmpakt faktorlu jurnallarda çap olunmuş məqalələrin sayında son 4 ildə 68 faiz artım qeydə alınıb.

Nəşr aktivliyinin son 3 ildəki artım dinamikasına görə Azərbaycan regionda birinci yerə çıxıb. 2017-ci ildə publikasiya sayı üzrə ən yüksək göstərici (1118 elmi tədqiqat işi) qeydə alınıb, ilkin təhlillərə əsasən ölkə üzrə ümumi publikasiyaların təxminən 43 faizi məhz ali təhsil müəssisələrinin payına düşüb.

### Şagirdlərimiz Beynəlxalq Elm və Mühəndislik Sərgisində

Azərbaycan təhsil sisteminin uğurunu təsdiq edən növbəti fakt dünyanın ən böyük şagird elmi müsabiqəsi hesab olunan Beynəlxalq Elm və Mühəndislik Sərgisində qeydə alındı. "Kiçik Nobel mükafatı" müsabiqəsi də adlandırılan bu beynəlxalq tədbirdə iştirak edən azərbaycanlı şagirdlər öz elmi nailiyyəti ilə fərqləndilər. Bu ilin mayında ABŞ-da təşkil olunan Beynəlxalq Elm və Mühəndislik Sərgisində "Sabahın alimləri" müsabiqəsinin qalibləri olan şagirdlərimiz tərəfindən hazırlanan 2 ixtiraçılıq işi 1000 və 5000 ABŞ dolları məbləğlərində xüsusi mükafatlara layiq görüldü.

Qeyd edək ki, dünyanın ən böyük şagird ixtiraçılıq sərgisində hər il 75 ölkədən 1800-dən çox məktəbli iştirak edir və qalib işlərin 30 faizi patent alır.

### "SABAH" qruplarını 850-yə yaxın məzun bitirir

Hər hansı başqa ölkədən götürülmüş bir təşəbbüs deyil, Azərbaycanın formalaşdırdığı bir təhsil modeli olan SABAH qrupları ölkəmizdə böyük rezonans yaradıb. 2017-2018-ci dərs ilində 12 ali təhsil müəssisəsində 32 ixtisas üzrə 851 tələbə müsabiqədən keçərək SABAH qruplarına qəbul olub. SABAH qrupları artıq ikinci ildir ki, öz məzunlarını yola salır. 2016-2017-ci tədris ili üzrə bu qrupların ilk məzunlarının sayı 722 nəfər olub. Cari tədris ilində isə 850-yə yaxın SABAH məzunu təhsilini başa vurur.








### "Təhsil haqqında" Qanuna dəyişiklik

Təhsil Nazirliyi tərəfindən "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa əlavə və dəyişikliklərin edilməsi barədə təkliflər layihəsi hazırlanaraq Milli Məclisə təqdim olunub. Təkliflərdə qanunun 24 maddəsinə dəyişiklik edilməsi, 2 yeni maddənin isə əlavə olunması göstərilib. Layihədə pedaqoji fəaliyyətin tənzimlənməsi, təhsilverənlərin əmək münasibətləri və sair məsələlər yer alıb.

İyunun 12-də Milli Məclisin iclasında "Təhsil haqqında" qanuna dəyişikliklər müzakirəyə çıxarılıb. Layihə səsə qoyularaq qəbul olunub.

### Bir azdan son zəng çalınacaq

Beləliklə, başa vurduğumuz dərs ilində təhsilin bütün istiqamətlərində irəliyə doğru addım qeydə alınıb. Bir azdan isə son zəng səslənəcək. Bu zəng şagirdləri məktəb partalarından müvəqqəti və ya birdəfəlik ayırsa da, islahatların davamlılığına təsir göstərməyəcək. Şagirdlər yay istirahətinə başlayanda Təhsil Nazirliyi həyata keçirəcəyi təhsil islahatlarının növbəti mərhələsinin bu nöqtədən sonrakı ştrixlərini müəyyənləşdirəcək.

# UNEC-də "Açıq qapı" günü



"Açıq qapı"da UNEC-in rektoru, professor Ədalət Muradovla yanaşı millət vəkili, Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov, millət vəkili Çingiz Qənizadə, "APA Holding"in prezidenti Vüsalə Mahirqızı və UNEC-in İctimai Nəzarət Şurasının üzvü Sevinc Qarayeva da iştirak edib. Onlar UNEC-in tələbə və valideynlərin imtahan sessiyası ilə bağlı müraciətlərini dinləyiblər. 30-a yaxın müraciətin dinlənildiyi görüşdə rektor Ə.Muradov məsələlərin operativ həlli ilə bağlı müvafiq struktur bölmələrə tapşırıq verib.

"Açıq qapı"dan sonra ictimaiyyət nümayəndələri UNEC News-a təəssüratlarını bölüşüblər.

*Millət vəkili Çingiz Qənizadə:* "Millət vəkilləri və ictimaiyyət nümayəndələrinin iştirakı ilə tələbə müraciətlərinin dinlənilməsi obyektivlik və şəffaflığın təntənəsidir. Hər bir müraciətə universitet rəhbərliyinin ədalətli yanaşması bu fikirləri bir daha təsdiq edir. Əminəm ki, UNEC öz uğurları ilə qısa zamanda dünya universitetləri ilə bir sırada dayanacaq".

*Millət vəkili, Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov:* "İlk dəfə deyil ki, UNEC-də "Açıq qapı"da iştirak edirəm. Hər dəfə də universitetdə müsbət dəyişikliklərin şahidi oluram. Tələbələrin sərbəst şəkildə problemlərini rektora çatdırmaları, haqlarını müdafiə etmələri universitet rəhbərliyinin onlara yaratdığı səmimi mühitdən irəli gəlir. Mən UNEC-də savadlı, elmli, öz hüquqlarını bilən, onları müdafiə etməyi bacaran tələbələr gördüm və bu, məni çox sevindirdi. Bütün bunlar da keyfiyyətli mütəxəssislərin hazırlanmasına xidmət edir".

*"APA Holding"in prezidenti Vüsalə Mahirqızı:* "UNEC-in rektorunun iştirak etdiyi "Açıq qapı" gününü izləmək çox maraqlı oldu. Universitetdəki mühit, rektorun əlçatanlığı, problemlərə dəqiq yanaşma, həm də tələbələrin sərbəstliyi xoşuma gəldi. Müşahidə etdim ki, UNEC-də klassik "qorxulu rektor" stereotipi yaxşı mənada dağılaraq liberal mühit yaradılıb. Təhsilə, tələbəyə münasibət, xaricdə təhsilə dəstək və müsbət yanaşma, yeniliklər məni çox sevindirdi".

Qeyd edək ki, UNEC rektorunun iştirakı ilə keçirilən "Açıq qapı" günləri hər həftənin şənbə günü olmaqla yay imtahan sessiyasının sonuna kimi davam edəcək.

# "Ölkəmin rəqs çələngi"

## Festivalın bağlanış mərasimi keçirilib

İyunun 12-də Azərbaycan Dövlət Musiqili Teatrında "Ölkəmin rəqs çələngi" respublika uşaq rəqs festival-müsabiqəsinin yekun konserti keçirilib.

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş tədbirdə təhsil nazirinin müavini Firudin Qurbanov, ölkəmizdə fəaliyyət göstərən səfirliklərin nümayəndələri, mədəniyyət və incəsənət xadimləri iştirak edib.

Festival-müsabiqənin seçim turuna 23 müəssisədən 30 rəqs qrupu qatılaraq "Milli rəqs", "Müasir rəqs" və "Dünya xalqlarının rəqsləri" nominasiyaları üzrə 67 rəqs nömrəsi nümayiş etdirib.

Bakı şəhəri üzrə Gənclərin Bədii Yaradıcılıq Evi, 2, 3, 4, 5, 6 nömrəli Uşaq-Gənclər İnkişaf mərkəzlərinin, bölgələr üzrə Gəncə, Mingəçevir, Qəbələ, Qax, Quba, İsmayıllı, Zaqatala, Tərtər, Salyan, Beyləqan, Göyçay, Tovuz, Ucar, Oğuz, Xaçmaz, Masallı rayon Uşaq-Gənclər İnkişaf mərkəzlərinin rəqs kollektivlərinin çıxışları münsiflər heyəti tərəfindən 10 ballıq sistemlə qiymətləndirilib. Hər üç nominasiya üzrə 3 kollektiv "Qran-pri" mükafatına, 8 kollektiv I, 8 kollektiv II, 8 kollektiv isə III yerlərə layiq görülüb.

Konsertdə kollektivlər rəqs nömrələri ilə çıxış ediblər.

Tədbirin sonunda qaliblər mükafatlandırılıb.

# Elm və təhsilin inteqrasiyası

## AMEA və Təhsil Nazirliyi səmərəli əməkdaşlığı davam etdirir




⇦ Əvvəli səh.1

Oruc MUSTAFAYEV

### Elm və təhsil vahid sosial institut kimi

AMEA-nın prezidenti çıxışında qeyd edib ki, son beş ildə elmlə təhsilin inteqrasiyası, kadr hazırlığı sisteminin müasir standartlara uyğun təkmilləşdirilməsi, elmi tədqiqat işlərinin nəticələrinin tədris prosesində tətbiqi, multidissiplinar biliklərin tədrisi istiqamətində bir sıra mühüm işlər görülüb. Akademiyada elm və təhsilin vahid sosial institut kimi formalaşması əsas vəzifələrdən biri kimi qarşıya qoyulub. Akif Əlizadə diqqətə çatdırıb ki, yüksək ixtisaslı kadr hazırlığı sahəsində elm və təhsilin səmərəli şəkildə inteqrasiyasına nail olmaq, ölkəmizin kadrlara artan tələbatını ödəmək məqsədilə ölkə rəhbərliyinin dəstəyi sayəsində AMEA-da magistratura pilləsi yaradılıb. AMEA-da magistratura təhsilinin həyata keçirilməsi ilə bağlı Milli Məclis tərəfindən "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda müvafiq dəyişikliklər olunub. Natiq elm və təhsilin inteqrasiyası sahəsindəki uğurlardan biri kimi doktorantura təhsilinin və elmi tədqiqatların modernləşdirilməsi üzrə həyata keçirilən "Nizami" layihəsini də xüsusi qeyd edərək, son beş ildə tətbiqi tədqiqatların səmərəliliyinin mühüm dərəcədə artdığını bildirib: "Son beş ildə əsas uğurlarımızdan biri "Web of Science", "Scopus", "Google" bazaları üzrə statistik göstəricilərin dayanıqlı yüksəlmə meyilləri ilə bağlıdır". Hazırda beynəlxalq elmi bazalarla əməkdaşlığın genişləndirilməsinin elmi məhsuldarlığın dinamikasına müsbət təsir göstərdiyini deyən natiq bildirib ki, bu məqsədlə "Clarivate Analytics" təşkilatı ilə AMEA arasında saziş imzalanıb. Sazişə əsasən, AMEA-nın bütün elmi müəssisələrində çalışan alimlər "Web of Science" bazasından istifadə imkanı əldə edib: "AMEA-nın əksər elmi müəssisələrinin "Web of Science" bazasında vahid profili mövcuddur. Bu profillər vasitəsilə elmi müəssisələrin və əməkdaşların nəşr aktivliyini, H (Hirş) indeksini və istinad göstəricilərini asanlıqla əldə etmək mümkündür".

### Təhsil-tədqiqat-innovasiya

Tədbirdə çıxış edən təhsil naziri Ceyhun Bayramov Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən iqtisadi strategiyanın əsas prioritetlərindən birinin bilik iqtisadiyyatının formalaşdırılması, təhsil, elm və innovasiya arasında effektiv qarşılıqlı əlaqənin yaradılması olduğunu bildirib: "Təsadüfi deyil ki, təhsilin inkişafı üzrə Dövlət Strategiyasında ali təhsil müəssisələrində "təhsil-tədqiqat-innovasiya" formatında inkişafın təşviqi əsas hədəflərdən biri kimi nəzərdə tutulub, bu da elmi fəaliyyətin nəticələrinin kommersiyalaşdırılmasına diqqətin artırılmasını zəruri edib".

Elmi fəaliyyətin stimullaşdırılması ilə bağlı həyata keçirilən tədbirlərdən danışan nazir dünyanın tanınmış elmi-analitik informasiya təminatçısı olan "Clarivate Analytics" ("Thomson Reuters") şirkəti ilə 2015-ci ildən başlanan uğurlu əməkdaşlığın öz müsbət nəticələrini verdiyini diqqətə çatdırıb. Belə ki, qlobal elmi bazadan istifadə aktivliyinin dinamikasında 2017-ci ildə əvvəlki illə müqayisədə 75% artım müşahidə olunub, impakt faktorlu jurnallarda çap olunmuş məqalələrin sayında son 4 ildə 68% artım qeydə alınıb. Nəşr aktivliyinin son 3 ildə artım dinamikasına görə Azərbaycan regionda birinci yerə çıxıb. 2017-ci ildə nəşrlərin sayı üzrə ən yüksək göstərici qeydə alınıb, ilkin təhlillərə əsasən, 1118 elmi tədqiqat işinin təxminən 43%-i ali təhsil müəssisələrinin payına düşüb: "Onu da diqqətə çatdırım ki, yalnız Təhsil Nazirliyinə tabe olan ali təhsil müəssisələrində çalışan alimlər tərəfindən hər il 200-dən çox monoqrafiya, 800-dən artıq dərslik və dərs vəsaiti, 10 mindən çox elmi məqalə və məruzə nəşr olunur".

### Elm və təhsilin inteqrasiyası

Müasir dünyada elm və təhsilin inteqrasiyası mühüm trendlərdən biri kimi çıxış edir. Təhsil naziri qeyd edib ki, hər il ali təhsil müəssisələrində aparılan fundamental və tətbiqi elmi-tədqiqat işlərinin nəticələri Təhsil Nazirliyi tərəfindən təhlil edilir, mühüm elmi nəticələr ölkə üzrə hazırlanan ümumi hesabata daxil edilmək məqsədi ilə AMEA-ya təqdim olunur. 2017-ci ildə 152 mühüm elmi nəticə seçilərək AMEA-ya təqdim edilib.

Nazir əlavə edib ki, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu tərəfindən aktual elmi araşdırmalara vəsaitin ayrılması elmin inkişafını stimullaşdıran əsas amillərdəndir. Fond ilk dəfə olaraq, tədqiqatların akademik və təhsil qurumlarından olan alimlər tərəfindən birgə aparılması məqsədi ilə "Elm-təhsil inteqrasiyası" müsabiqəsi keçirib. Müsabiqənin nəticələrinə əsasən, 71 layihə qalib elan olunub ki, onlardan 69-u təhsil müəssisələrində çalışan alim və mütəxəssislərin rəhbər və icraçı qismində iştirakı ilə həyata keçiriləcək. Unikal formatda aparılacaq birgə tədqiqatlara 4 milyon 90 min manat vəsaitin təxminən 50/50 faiz nisbətində yönəldilməsi nəzərdə tutulub.

### Tədqiqat universiteti yaradılır

Ceyhun Bayramov qeyd edib ki, Təhsil Nazirliyinə tabe olan universitetlərdə çalışan professor-müəllim heyəti tərəfindən ixtiraların patentləşdirilməsinə dair son 5 ildə 216 sifariş verilib, ixtiralara alınan patentlərin sayı isə 159 olub ki, onlardan 98-i Azərbaycanda, 66-sı isə ölkə hüdudlarından kənarda alınıb. Onu da qeyd etmək lazımdır ki, universitetlərin mövcud elmi potensialı patentlərin sayının əhəmiyyətli şəkildə artırılmasına imkan verir. Bu baxımdan mövcud elmi potensialdan səmərəli istifadə edərək elmi tədqiqatların keyfiyyət əmsalının artırılması, nüfuzlu beynəlxalq nəşrlərdə elmi məqalələrin çapının genişləndirilməsi, tədqiqat nəticələrinin daha geniş tətbiqinə nail olunması ali təhsil və elmi tədqiqat müəssisələri qarşısında duran əsas vəzifələrdəndir. Bu istiqamətdə işlərin sistemli şəkildə davam etdirilməsi, ölkəmizdə elmi potensialın formalaşdırılması və davamlı inkişaf etdirilməsi məqsədi ilə AMEA ilə birlikdə "tədqiqat universiteti"nin yaradılması istiqamətində işlərə başlanılıb.

**Hazırda elmi-pedaqoji kadr hazırlığı ali təhsil müəssisələrinin əsas fəaliyyət istiqamətlərindən birini təşkil edir. Belə ki, ölkə üzrə doktorantura proqramları üzrə təhsil alan 3307 nəfərdən fəlsəfə doktoru üzrə təhsil alanların 65%-i, elmlər doktoru üzrə təhsil alanların 50%-i ali təhsil müəssisələrinin payına düşür.**

### Əməkdaşlıq üçün geniş platforma

Son illər Təhsil Nazirliyi və AMEA arasında əməkdaşlığın yeni istiqamətləri müəyyən edilib, həyata keçirilən layihələrdə uğurlu nəticələr əldə olunub. AMEA-da magistraturanın yaradılması elm və təhsilin inteqrasiyası, eləcə də AMEA və Təhsil Nazirliyi arasında əməkdaşlıq üçün geniş platforma formalaşdırıb: "Əminik ki, ölkə Prezidentinin bu tarixi qərarı Azərbaycanda elm və təhsilin tərəqqisinə, intellektual potensialın artırılmasına və insan kapitalının inkişafına güclü təkan verəcək. Bu istiqamətdə reallaşdırılan tədbirlərin davamı olaraq, cənab Prezidentin təşəbbüsü ilə magistratura səviyyəsində təhsilalanlara hərbi xidmətdən möhlət hüququ verilib və tələbə təqaüdlərinin məbləği artırılıb. Məhz bu siyasətin nəticəsidir ki, cari tədris ilində ali təhsil müəssisələrinin magistraturasına qəbul olunanların sayı əvvəlki illə müqayisədə 36%, qəbul olunan oğlanların sayı isə 74% artıb".

Son illərdə elmi kadr hazırlığını təmin edən doktorantura təhsilinin təkmilləşdirilməsi istiqamətində əhəmiyyətli addımların atıldığını diqqətə çatdıran nazir Təhsil Nazirliyi, AMEA, ölkəmizin 9 və Avropa Birliyinin 5 ali təhsil müəssisəsi tərəfindən "Azərbaycanda doktorantura təhsilinin təkmilləşdirilməsi və vahid Avropa təhsil məkanının tələblərinə uyğun strukturlaşdırılması"- "Nizami" layihəsinin həyata keçirildiyini bildirib. Layihə çərçivəsində ölkəmizdə doktorantura təhsili sahəsində qanunvericiliyin təkmilləşdirilməsi, doktorantura təhsili standartlarının Avropa standartlarına uyğunlaşdırılması, bu səviyyədə keyfiyyətin təminatı və beynəlmiləlləşmənin genişləndirilməsi istiqamətində tədbirlər həyata keçirilir.

### Elmi-pedaqoji kadr hazırlığı

Nazir çıxışında hər bir ölkənin ali təhsil sisteminin inkişafında mühüm aspekt təşkil edən elmi-pedaqoji kadr hazırlığı məsələsinə də toxunub. Qeyd olunub ki, hazırda elmi-pedaqoji kadr hazırlığı ali təhsil müəssisələrinin əsas fəaliyyət istiqamətlərindən birini təşkil edir. Belə ki, ölkə üzrə doktorantura proqramları üzrə təhsil alan 3307 nəfərdən fəlsəfə doktoru üzrə təhsil alanların 65%-i, elmlər doktoru üzrə təhsil alanların 50%-i ali təhsil müəssisələrinin payına düşür.

Ölkə Prezidentinin təşəbbüsü ilə reallaşdırılan xaricdə təhsil üzrə Dövlət Proqramı çərçivəsində dünyanın aparıcı universitetlərinə göndərilən 3558 nəfərin 63%-ni magistratura və doktorantura səviyyələrində təhsil alan gənclər təşkil edir: "Əminəm ki, təhsilini uğurla başa vuran həmin gənclər ölkəmizdə elm və təhsilin inkişafına, elmi potensialın gəncləşməsinə mühüm töhfə verəcəklər".

### AMEA ilə səmərəli əməkdaşlıq dərinləşdiriləcək

Məlumdur ki, qloballaşan dünyanın müasir çağırışları kreativ düşüncənin hələ erkən yaşlardan inkişaf etdirilməsinin əhəmiyyətini daha da aktuallaşdırır. Ceyhun Bayramov qeyd edib ki, müasir təfəkkürlü və yaradıcı düşünən gənclərin bilik və bacarıqlarının üzə çıxarılması və onların tədqiqatçı-mütəxəssis kimi formalaşması xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan, "Sabahın alimləri" müsabiqəsini xüsusi qeyd etmək lazımdır. Təhsil Nazirliyinin AMEA və digər tərəfdaşlarla birgə təşkil etdiyi müsabiqədə ümumtəhsil məktəblərinin şagirdləri öz ixtiraçılıq bacarıqlarını nümayiş etdirir, seçilən layihələrdən ən yaxşıları ölkəmizi 75 ölkədən 1800-dən çox məktəblinin iştirak etdiyi Beynəlxalq Elm və Mühəndislik Sərgisində təmsil edirlər. Cari ilin mayında ABŞ-da təşkil olunan növbəti Beynəlxalq sərgidə şagirdlərimizin 2 ixtiraçılıq işi 1000 və 5000 ABŞ dolları məbləğində xüsusi mükafatlara layiq görülüb.

Bununla yanaşı, ümumtəhsil məktəblərində "Kiçik akademiya"-ların fəaliyyəti, şagirdlərin olimpiadalara hazırlığı sahəsində Təhsil Nazirliyi AMEA ilə səmərəli əməkdaşlıq edir. Həyata keçirilən uğurlu tədbirlərin nəticəsidir ki, son 5 ildə Azərbaycan məktəbliləri beynəlxalq olimpiadalarda 3 qızıl, 21 gümüş və 85 bürünc medal olmaqla ümumilikdə 109 medal qazanıblar. Bu tədbirlər şagirdlərdə tədqiqatçılıq bacarıqlarının formalaşmasına zəmin yaradır.

AMEA-nın ümumi Yığıncağı və Təhsil Nazirliyinin kollegiyasının qərarına əsasən təsdiq olunmuş "Elm və təhsilin inteqrasiyası üzrə birgə fəaliyyət planı" çərçivəsində tədbirlər uğurla həyata keçirilməkdədir. Cari və növbəti illərdə AMEA-nın yüksək elmi potensialı olan alimlərinin ali təhsil müəssisələrinin magistrant və doktorantlarına elmi rəhbər kimi cəlb edilməsinin genişləndirilməsi və AMEA-nın tanınmış alimlərinin təhsil müəssisələrində "ustad dərsləri"nin təşkili istiqamətində birgə tədbirlərin həyata keçirilməsi, elm-təhsil-innovasiya əməkdaşlığının dərinləşdirilməsi qarşıda duran əsas vəzifələrdəndir.

Sonra "Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı", AMEA-nın Azərbaycanın görkəmli alim və mütəfəkkirlərinin adına təsis etdiyi adlı mükafatların sahiblərinə təqdim olunma mərasimi keçirilib. Azərbaycanda neft sənayesinin inkişafındakı böyük xidmətlərinə görə AMEA-nın həqiqi üzvü Xoşbəxt Yusifzadə, Azərbaycanda kosmik texnologiyaların inkişafındakı böyük xidmətlərinə görə Rusiya Elmlər Akademiyasının həqiqi üzvü Roald Saqdeyev "Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı" ilə təltif ediliblər. Akademik Bahadır Tağıyevə AMEA-nın Nəsirəddin Tusi, AMEA-nın müxbir üzvü Zeynal Əkpərova AMEA-nın Həsən bəy Zərdabi, akademik Abel Məhərrəmova AMEA-nın akademik Yusif Məmmədəliyev, geologiya-mineralogiya üzrə elmlər doktoru Adil Əliyevə AMEA-nın akademik Musa Əliyev, akademik Nailə Vəlixanlıya AMEA-nın Abbasqulu ağa Bakıxanov adına mükafatları verilib. AMEA-nın akademik Üzeyir Hacıbəyli adına mükafatına isə müasir Azərbaycan rəngkarlıq məktəbini dünya səviyyəsində tanıtdığına görə Xalq rəssamı Tahir Salahov layiq görülüb.

Fasilədən sonra AMEA-nın prezidenti vəzifəsinə və AMEA Rəyasət Heyəti üzvlüyünə seçkilər keçirilib. Akademik Akif Əlizadə yenidən AMEA-nın prezidenti, akademiklər Nərgiz Paşayeva, İradə Hüseynova AMEA-nın yeni vitse-prezidentləri, akademiklər İsa Həbibbəyli, İbrahim Quliyev, Tofiq Nağıyev və Dilqəm Tağıyev yenidən AMEA-nın vitse-prezidentləri seçiliblər. AMEA-nın müxbir üzvü Bilal Bilalov isə vitse-prezident vəzifəsini icra edən seçilib. Bundan başqa, səsvermə nəticəsində akademiklər Əhliman Əmiraslanov Biologiya və Tibb Elmləri Bölməsinin, Nazim Məmmədov Fizika-Riyaziyyat və Texnika Elmləri Bölməsinin, Fəxrəddin Qədirov Yer Elmləri Bölməsinin, Dilqəm Tağıyev Kimya Elmləri Bölməsinin, Nərgiz Axundova İctimai Elmlər Bölməsinin, Teymur Kərimli Humanitar Elmlər Bölməsinin akademik-katibləri seçiliblər.

# ADNSU-nun İctimai Etimad Şurası imtahan prosesini izləyib

## Universitetdə magistratura pilləsində akademik yazı ilə bağlı tədris aparılacaq

İyunun 13-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) İctimai Etimad Şurası universitetdə yay imtahan sessiyasının gedişini izləyib.

İctimai Etimad Şurasının üzvləri, millət vəkili Hikmət Babaoğlu, Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının sədri, hüquq müdafiəçisi Sahib Məmmədov, Neft Araşdırmaları Mərkəzinin direktoru İlham Şaban və başqaları imtahan keçirilən auditoriyaları gəzib, imtahan prosesi ilə tanış olub, tələbələrin hazırlığı, imtahan üçün yaradılmış şərait barədə fikir mübadiləsi aparıblar.

İctimai Etimad Şurasına 2017-2018-ci tədris ilinin yay imtahan sessiyasında 11 000-dək tələbə və magistrantın imtahanlarda iştirak etməsi, universitetdə imtahan sessiyasının mövcud qaydalara uyğun təşkil edilməsi, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığın və obyektivliyin təmin olunması və s. məsələlərlə bağlı məlumat verilib. İyunun 13-də ADNSU-da 38 qrup yazılı, 45 qrup yazılı-şifahi formada imtahan verib. 1026 nəfər tələbə yazılı imtahanlarda, 1215 nəfər tələbə isə yazılı-şifahi imtahanlarda iştirak edib.

İctimai Etimad Şurasının nümayəndələri ADNSU-da imtahanlarda şəffaflığın təmin edilməsi məqsədilə yaradılmış İmtahan Müşahidə Mərkəzində olub imtahan prosesi ilə tanış olublar.

ADNSU-nun rektoru, professor Mustafa Babanlı yay imtahan sessiyası və imtahan prosesinin təşkili barədə şura üzvlərinə məlumat verib. Rektor həmçinin universitetdə şifahi imtahanların tətbiqinə geniş yer verildiyini və magistratura pilləsində akademik yazı ilə bağlı tədris aparılacağını vurğulayıb.

ADNSU-da imtahan prosesinin təşkili ilə bağlı fikirlərini bölüşən şura üzvləri universitetdə yaradılan şəffaf tədris mühitini təqdir edib və imtahana nəzarət prosesini yüksək qiymətləndiriblər.

# Milli Məclis “Təhsil haqqında” Qanuna dəyişiklikləri qəbul edib

İyunun 12-də Milli Məclisin növbədənkənar plenar iclası keçirilib.

İclasda bir sıra məsələlər, o cümlədən “Təhsil haqqında” Qanunda dəyişikliklər edilməsi barədə qanun layihəsi nəzərdən keçirilib. Qanuna təklif olunan dəyişikliklər barədə parlamentin Elm və təhsil komitəsinin sədri İsa Həbibbəyli məlumat verib. Bildirib ki, qanunda nəzərdə tutulan dəyişikliklər Azərbaycan Prezidentinin 2013-cü il 24 oktyabr tarixli 13 saylı Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda qarşıya qoyulmuş hədəflərə nail olunması və müasir təhsil sisteminin formalaşdırılması istiqa-

## Təhsil müəssisələrində tədris digər dillərdə də aparıla biləcək

mətində tədbirlərin həyata keçirilməsi ilə əlaqədar normativ hüquqi bazanın təkmilləşdirilməsi məqsədi daşıyır.

Qanunun “Ümumi təhsil” maddəsinin 11-ci bəndinə əsasən, Azərbaycanda ibtidai təhsil 6 yaşdan başlanır. Dəyişikliklə bəndə ikinci cümlə əlavə olunub. Yeniliyə əsasən, valideynlərin və ya digər qanuni nümayəndələrin müraciəti ilə hər təqvim ilinin sonunadək 6 yaşı tamam olan uşaqlar da məktəbə qəbul edilirlər.

Digər dəyişikliklə maddənin 12-ci bəndi ləğv edilib. Bu bəndə əsasən, valideynlərin və ya uşaqların digər qanuni nümayəndələrinin arzusu ilə təhsil müəssisəsi xüsusi istedadlı uşaqları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada daha erkən yaşda qəbul edə bilər.

Həmin maddənin 14-cü bəndinə edilən əlavəyə əsasən, xüsusi proqram əsasında təhsil verən təhsil müəssisələri istisna olmaqla, ümumi təhsil müəssisəsinin yerləşdiyi ərazidə yaşayan təhsilalanlar həmin təhsil müəssisəsinə ilk növbədə qəbul olunacaqlar. Ümumi təhsil müəssisələrinə uşaqların qəbulu, sinifdən-sinfə keçirilməsi və yerdəyişməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən ediləcək.

Başqa bir dəyişikliyə görə, vətəndaşların və təhsil müəssisəsi təsisçilərinin istəyi nəzərə alınaraq, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə və ya müvafiq icra hakimiyyəti orqanı ilə razılaşmaya uyğun olaraq təhsil müəssisələrində tədris müvafiq dövlət təhsil standartları əsasında digər dillərdə də aparıla bilər. Tədris digər dillərdə aparılan ümumi təhsil müəssisələrində Azərbaycan dili, ədəbiyyatı, tarixi və coğrafiyası tədris olunmalıdır.

Layihə səsə qoyularaq qəbul edillib.

# ADU-da yazılı imtahanlar

## Tələbələrdə məntiqi təfəkkürü formalaşdırmaq, yazı qabiliyyətlərini aşılamaq əsas hədəfdir

Azərbaycan Dillər Universitetində (ADU) 2017-2018-ci tədris ilinin yaz imtahan sessiyasının gedişini müşahidə etmək məqsədilə KİV nümayəndələrinin iştirakı ilə mediatur təşkil olunub. Mediaturda “Respublika”, “Azərbaycan müəllimi”, “Səs”, “İki sahil”, “525-ci qəzet”, “Həftə içi” qəzetlərinin, Moderator.az, Axar.az, Azedu.az, Tehsil-press.az və digər saytların nümayəndələri iştirak edib.

Öncə iştirakçılar imtahanların gedişini izləyib. Sonra universitetdə fəaliyyət göstərən “İmtahan qərargahı” ilə yaxından tanış olublar.

Monitorinq başa çatdıqdan sonra universitetin tədris işləri üzrə prorektoru, professor Əfqan Abdullayev imtahan sessiyasının gedişi barədə KİV nümayəndələrinə ətraflı məlumat verib. Ə.Abdullayev bildirib ki, 2017-2018-ci tədris ilinin yaz semestrinin imtahan sessiyasının müvafiq təlimatlara və əsasnamələrə uyğun keçirilməsini təmin etmək məqsədi ilə ADU-nun rektoru, AMEA-nın həqiqi üzvü Kamal Abdulla tərəfindən əmr imzalanıb: “İmtahan sessiyası əyani şöbədə 1 iyun 2018-ci il tarixində başlayıb, 7 iyul



2018-ci ilədək davam edəcək. İmtahanlararası müddət minimum 2 gün, imtahanlara ayrılmış vaxt 2 saat müəyyənləşdirilib”.

Ə.Abdullayev imtahanların təşkili, yoxlama prosesi, biletlərin strukturu haqqında da danışıb. Universitetdə imtahanların yazılı şəkildə keçirildiyini və daha çox düşündürücü suallar tərtib olunduğunu qeyd edən prorektor burada məqsədin tələbələrdə məntiqi təfəkkürü formalaşdırmaq, yazı qabiliyyətlərini aşılamaqdan ibarət olduğunu da sözlərinə əlavə edib.

Ə.Abdullayev onu da qeyd edib ki, imtahan sessiyası dövründə yarana biləcək neqativ halları dərhal araşdırmaq və müvafiq tədbirlər görmək, habelə sessiyanın şəffaf, normativ sənədlərə uyğun keçirilməsinə kömək etmək məqsədi ilə Operativ Qərargah fəaliyyət göstərir. Prorektor, həmçinin, imtahan nəticələrindən narazı olan tələbələrin apelyasiya şikayət vermək hüquqlarından söz açıb. İmtahanlarla bağlı “Qaynar xətt”in də fəaliyyət göstərdiyini deyən Ə.Abdullayev universitetin qapısının istər valideynlərin, istərsə də ictimaiyyət nümayəndələrinin üzünə hər zaman açıq olduğunu bildirib.

# MDU alimləri Fizika İnstitutunda

M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Nüvə Fizikası Elmi-Tədqiqat İnstitutunun elmi işlər üzrə direktor müavini Vladislav Osedlo və professor Sergey Svertilov Azərbaycan Milli Elmlər Akademiyası Fizika İnstitutunda olublar. İnstitutun direktoru, akademik Nazim Məmmədovla görüş zamanı V.Osedlo qeyd edib ki, Nüvə Fizikası Elmi-Tədqiqat İnstitutu “Universat-Sokrat” universitet layihəsi çərçivəsində Milli Aviasiya Akademiyası ilə əməkdaşlıq edir. Bildirib ki, Fizika İnstitutuna səfər etməkdə məqsəd İnstitutun fəaliyyəti ilə tanış olmaq, gələcək əməkdaşlıq perspektivlərini müzakirə etməkdir. N.Məmmədov universitetlə əməkdaşlığın mümkünlüyünü vurğulayıb.

Daha sonra S.Svertilov məruzə edərək layihə haqqında məlumat verib.

Sonda qonaqlar Fizika İnstitutunun İnnovasiya sektorunda quraşdırılan maddi-texniki baza ilə tanış olublar. İnstitutun alimləri burada aparılan tədqiqat işləri haqqında məlumat veriblər.

# İctimaiyyət nümayəndələri Bakı Slavyan Universitetində imtahan sessiyasını izləyib

Niyazi RƏHİMOV

## Məqsəd tələbələrin biliyinin obyektiv qiymətləndirilməsidir

İyunun 12-də aparıcı KİV nümayəndələri, təhsil ekspertləri, qeyri-hökumət təşkilatları və valideynlərin iştirakı ilə Bakı Slavyan Universitetində (BSU) 2017-2018-ci tədris ilinin yaz imtahan sessiyasının monitorinqi aparılıb.

İştirakçılar əvvəlcə imtahanların keçirilmə prosesi ilə tanış olaraq tələbələrin proseslə bağlı fikirlərini öyrəniblər.

İştirakçılara imtahan prosesi haqqında məlumat verən BSU-nun rektoru Nurlana Əliyeva bildirib ki, universitetdə yaz imtahan sessiyası iyunun 1-də başlanıb və 30-na qədər davam edəcək. Rektor qeyd edib ki, imtahanlar bir qayda olaraq yazılı formada aparılır. İmtahanların şəffaf və obyektiv aparılması məqsədilə dekanlar, kafedra müdirləri qarşısında konkret vəzifələr qoyulub. Sessiyanın gedişi zamanı imtahanların nəticəsindən yarana biləcək narazılıqların mövcud qaydada araşdırılması və həll edilməsi məqsədilə universitetdə qərargah



fəaliyyət göstərir. N.Əliyeva onu da deyib ki, nəticələr imtahan başa çatdıqdan az sonra sayta yerləşdirilir. Şikayətlərə baxmaq və aşkarlanmış çatışmazlıqları aradan qaldırmaq məqsədilə qərargahın nəzdində apelyasiya komissiyaları təşkil edilib. Nurlana Əliyeva əsas məqsədin tələbələrin biliyinin obyektiv və dəqiq qiymətləndirilməsi olduğunu bildirib. O, imtahanın yüksək səviyyədə aparılması üçün universitetdə hər cür şəraitin yaradıldığını qeyd edib. Bildirilib ki, hazırlığına, biliyinə güvənən gənclərin imtahanla bağlı heç bir problemi olmur.

Universitetdə fəaliyyət göstərən imtahan qərargahının rəhbəri, tədris işləri üzrə prorektor, professor Telman Cəfərov da imtahanların gedişi ilə bağlı iştirakçıları məlumatlandırıb. O, imtahan qərargahının saat 9-dan 19:00-a qədər fəaliyyət göstərdiyini, tələbələrin şikayətlərinə onların özlərinin və valideynlərinin iştirakı ilə baxıldığını, buraxılmış səhvlərin bir-bir izah edildiyini, bir sözlə, şəffaflığa və obyektivliyə tam zəmanət verildiyini diqqətə çatdırıb. T.Cəfərov qərargahın hamının üzünə açıq olduğunu, valideynlərin, ictimai təşkilatların nümayəndələrinin istənilən vaxt qərargahın işi ilə tanış ola bildiklərini də sözlərinə əlavə edib.

Müşahidəçilər imtahanların müşahidə kameraları quraşdırılmış xüsusi auditoriyalarda keçirilməsini, bununla yanaşı, hər auditoriyada 2-3 müəllim-əlaqələndiricinin nəzarət etməsini, imtahan prosesində baş verə biləcək bütün mənfi halların qarşısının alınması üçün lazımi tədbirlərin görülməsini yüksək dəyərləndiriblər. Eyni zamanda, biliklərini nümayiş etdirmək üçün tələbələrə yaradılan şəraitdən razılıq ifadə olunub.

# Bəzi deputatlar üçün xatırlatmalar

Milli Məclisin iyunun 12-də keçirilən növbədənkənar plenar iclasında “Təhsil haqqında” Qanuna dəyişikliklər müzakirə olunub. Müzakirələrdə deputatlar maraqlı haşiyələrə çıxıblar. Bəzi millət vəkillərinin çıxışları təəccüb doğurmaqla yanaşı, məlumatsızlıq mühitində olduqlarını göstərib.

Məsələn, deputat Vahid Əhmədov Milli Məclisdə çıxış edərək müəllimlərin sertifikatlaşdırılmasının keçirilməsinə etiraz edib. Onun iddiasına görə, imtahan verən müəllimlər həyəcanlanacaq: “Tələb edirik ki, elmlər namizədləri və elmlər doktorları da mütləq imtahan verib sertifikat almalıdır. Yəni 5 ildən sonra o stressi bir də yaşamalıdırlar. Əgər islahat budursa, əhali, müəllimlər, alimlər arasında stress yaratmaqdan ibarətdirsə, bu, islahat deyil! Ümumiyyətlə, sertifikatlaşdırma nə ilə əlaqədardır? Elmlər namizədi müdafiə edib elmlər namizədi adını alıb, elmlər doktoru müdafiə edib, sertifikatını alıb, onda onlar niyə təzədən sertifikat almalıdır?”.

Deputat bir məqamda haqlıdır. İmtahan hər zaman həyəcanvericidir. Hansı yaşda nə məqsədlə imtahan edilməyindən asılı olmayaraq, həyəcan yaradır. Yəni, sertifikatlaşdırmanın stresslə müşayiət olunacağı həqiqətdir. Ancaq buradan başqa bir nəticə də çıxır: stress yaratdığı üçün sertifikatlaşdırma aparılmamalıdır?! Deputatın fikri nədir, bəlkə ümumiyyətlə, ölkədə həyəcanla müşayiət olunan bütün imtahanlar ləğv edilsin?! Eyni zamanda, sertifikatlaşma proseduru ancaq imtahan deməkdirmi?

Bircə onu unutmamalıyıq ki, müəllimlik dünyanın hər yerində ən çətin və ən məsuliyyətli peşə sahələrindəndir. Gələcəyimizin müəllimlərin yetişdirdiyi nəsildən asılı olduğunu da nəzərə alsaq, cəmiyyət müəllimləri imtahanlardan yayındırmaq deyil, əksinə, onları öz üzərində işləməyə məcbur edən saysız sınaqlara cəlb etməyin tərəfdarı olmalıdır.

Bir də ki, elmlər namizədliyini, doktorluğu müdafiə edərkən həyəcanlanmayan müəllim sertifikat alarkən niyə stress keçirsin ki?

Deputat Siyavuş Novruzov isə qanuna edilən dəyişikliklərdən danışarkən məktəbəqədər təhsillə bağlı sahib olduğu yanlış informasiyaya əsaslanıb: “Qanunda yazılır ki, məktəbəqədər təhsil almayan şəxs birinci sinfə gedə bilməz. Lakin bu gün ölkədə məktəbəqədər təhsilin səviyyəsi 20 faizdir. Əgər bu yoxdursa, bəs, uşaq birinci sinfə necə getsin”.

Bu yerdə xatırlatma edək ki, 2017-2018-ci tədris ilində məktəbəhazırlığın əhatəliliyi əvvəlki illə müqayisədə 10 faiz artırılaraq 65 faizə çatıb. Millət vəkilinin parlamentdə səsləndirdiyi rəqəmlə bu göstərici arasında fərq cəmi 45 faizdir.

Milli Məclisdə “Təhsil haqqında” Qanunun müzakirəsinə “Mən problemləri Milli Məclisdə çıxış etmək əvəzinə, çox zaman kiçik çevrədə diqqətə çatdırmağa çalışıram. Bura gəlməzdən əvvəl Təhsil Nazirliyinin hər iki müavininə xidməti telefonundan zəng etdim, heç biri cavab vermədi”, - sözləri ilə başlayan deputat Elşən Musayevin fikrinə isə təəccüblənməmək mümkün deyil. Görəsən, təhsildəki problemləri telefonda müzakirə etmək üçün deputatın zəng etdiyi ikinci müavin kimdir? Axı, təhsil nazirinin hazırda bir müavini var.

Deputat Aqil Abbas isə çox mətləbdən danışıb. Onu da deyib ki, əvvəllər dərslər sentyabrın 1-i başlayıb, mayın axırında bitirdi. Köhnə əyyamları xatırlayan deputat “Bu da cəhənnəm olsun. Dərslərin 15 iyunda başa çatması nə deməkdir? Məktəbdə bu uşaqları niyə süründürürlər? Bu nə deməkdir? İsa müəllim (İsa Həbibbəyli-red) bundan danışın e. Bu gün hər kəs deyir ki, 1-ci sinifə gedən uşağın çantasının çəkisi 7 kiloqramdır. Ştanqist yetişdirirlər? 15 sentyabrı başa düşdük. 15 iyun nə deməkdir? Çox xahiş edirəm ki, bu məsələni qaldırsınlar. Bir də bu 7 kiloqramlıq çanta məsələsinə baxılsın”, - deyərək həyəcan təbili çalıb.

Milli Məclis sədri Oqtay Əsədov Aqil Abbasın çıxışına qismən cavab verib. O, deputatın diqqətinə çatdırıb ki, 15 iyun məsələsi elə 15 sentyabrın məntiqi nəticəsidir: “Alimlər məsələsinə gəldikdə isə deyə bilərəm ki, onlar gənc olduğundan yəqin siz onlardan xəbərsizsiniz. Səsləri bir azdan çıxacaq”.

Spikerin təbirincə desək, cənab deputat çox şeydən məlumatsız olub. Yalnız son tədris ilində Amerikada, Hindistanda öz kəşfləri ilə dünyaya səs salan azərbaycanlı məktəblilər, ortaya elmi nəticələr qoymağa məktəbdən başlayan “Sabahın alimləri” barədə nə oxuyub, nə də eşidib. Bunlar bir yana, müzakirəyə çıxardığı təhsil ilinin başlama və bitmə vaxtları da artıq mövzu kimi gündəmdən düşüb.

Bu yerdə hörmətli Aqil Abbasın nəzərinə çatdıraq ki, qaldırdığı iki məsələ, şagirdlərin ağırlaşan dərs yükü və uzadılan dərs ili bir-biri ilə bağlıdır. Məsələ burasındadır ki, dərs ili həm də məktəblilərin dərs yükünün azaldılması məqsədi ilə uzadılıb. May ayından dərslərin keçirilməməsi, vaxtın iyunun 14-dək boşuna uzadılması barədə söylənənlər isə əsassızdır. Tədris proqramı iyunun 14-də yekunlaşır. Proqramın bundan daha tez yekunlaşdırılması, dərs keçilməməsi ayrı-ayrı müəllimlərin yaratdığı problemdir, ümumilikdə təhsil sisteminin yox.

Maraqlıdır ki, dünyada ziyalı təbəqəsinin tədris ilinin, dərs saatlarının qısaldılması ilə bağlı təkliflərinə ölkəmizdə olduğu qədər çox rast gəlinmir. Nə qədər qəribə olsa da, Aqil Abbas məktəbdə daha çox olmağı, tədrisə daha uzun müddət cəlb olunmağı süründürməçilik kimi təqdim edir. Keyfiyyətli təhsil istəməyimizlə yanaşı, tədris ilinin uzadılmasını süründürməçilik adlandırırıq.

Qaldı ki, 7 kiloluq çanta məsələsinə (Yeri gəlmişkən, bu məsələ deputat Elşən Musayevin də yaralı yeridir.). Çantaların çəkisi ilə bağlı aidiyyəti qurum dəfələrlə aydınlıq gətirib. Hətta çantalarda dərslik daşımağa alternativ olaraq elektron dərsliklər təqdim etdiyini də bildirib. Görünür, həddən ziyadə məşğul olan millət vəkillərimizin bu açıqlamalarla da tanış olmağa vaxtları olmayıb. Amma bu heç də onlara “məktəbdə ştanqist yetişdirirsiz?” sualını verməyə əsas yaratmır.

Bəli, məktəbin bir hədəfi də fiziki sağlam olan nəsil formalaşdırmaqdır. Amma bunu deputatlarımız bilməyə də borcludurlar. Məktəbdə “ştanqist” də, futbolçu da, şahmatçının da yetişdirilməsinə qayğı göstərilir. Son illərdə məktəblərdə idmanın kütləviliyinin artırılması istiqamətində ciddi bir hərəkata start verilib. Odur ki, millət vəkillərinin bu təşəbbüslər üzərində köklənməsi daha maraqlı olar, onların seçicilərini də yeniliklərə dəstək olmağa istiqamətləndirərdi.

Cənab deputatlar, bəlkə məsələlərə baxış bucağımızı dəyişək?

**“Azərbaycan müəllimi”**

# Uşaq birlikləri rəhbərləri işinin metodikasına dair



**S.BAYRAMOVA,**
*ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru*

## Bu prosesdə ən mühüm çətinliklərdən biri uşaqların intellektual və psixoloji hazırlığının təmin edilməsidir

Son vaxtlar "təhsil menecerləri", "gənclərlə iş üzrə menecerlər" ifadələri ilə yanaşı "uşaq birlikləri rəhbər menecerləri" ifadəsi də təhsili idarəetmə prosesində geniş yer tutmaqdadır.

Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasında deyildiyi kimi: "İnkişaf etmiş ölkələrin təcrübəsindən aydın olur ki, təhsildə idarəetmənin ictimailəşməsi prosesi sürətlənməkdədir. Təhsil strategiyasının uğurla həyata keçirilməsində və təhsilin keyfiyyətinin dayanıqlı yüksəlişində maraqlı tərəflərin cəlb olunmasını təmin edən səmərəli idarəetmə mühüm rol oynayır. Bu, ilk növbədə, bütün növ təhsil müəssisələrinin müstəqilliyinin artırılmasını, valideyn, şagird, tələbə və təhsil prosesinin digər iştirakçılarını geniş cəlb etməklə təhsil ocaqlarının idarə olunmasını, nəticəyönlü menecmentin və digər müasir idarəetmə texnologiyalarının prosesə tətbiqini tələb edir".

Menecment təşkilatın effektiv və məhsuldar nailiyyətləri üçün öz resurslarından istifadə etməklə planlaşdırma, təşkiletmə, istiqamətləndirmə və nəzarətetmə kimi tərif olunur.

Menecment - fərdi yanaşma əsasında təsir göstərməni nəzərdə tutmayan, rəhbər və tabeliyində olanların birgə fəaliyyətdə hədəflərə effektli şəkildə çatmaq üçün komfortlu əməkdaşlıq şəraitinin yaradılmasına əsaslanan idarəetmədir.

Müasir təhsil sistemində idarəetmə prosesi, ümumiyyətlə, bütöv bir fəaliyyətin təşkili mürəkkəb sistemdir. Bu mürəkkəbliyi aradan qaldırmağın əsas yollarından biri pedaqoji menecmentin prinsiplərinə düzgün əməl etmək və bu prinsiplərdən irəli gələn məsələləri, tələbləri demokratik şəkildə həyata keçirməkdir. Burada ən vacib amil insanın şəxsi ləyaqətinə hörmət edilməsi, qarşılıqlı hörmət əsasında inam atmosferi, insanın öz imkanlarını aşkar edə biləcəyi şəraitin yaradılmasıdır. Uşaq birlikləri rəhbərləri də menecer olaraq bu sahənin kordunasiyasını təmin edir. Uşaq birlikləri menecer-rəhbərləri müasir mərhələdə yeni idarəetmə formalarının təkmilləşmiş nəticəsi kimi də qəbul oluna bilər.

Ümumtəhsil, ilk peşə və orta ixtisas təhsili müəssisələrində fəaliyyət göstərən uşaq birlikləri rəhbərləri, məktəb psixoloq-voleoloqları üçün nəzərdə tutulmuş bu metodik tövsiyə həm onlarla işin elmi-praktik hazırlığını təmin etmək, həm də gələcəkdə ümumtəhsil məktəblərində uşaq birlikləri menecer-metodistləri vəzifəsinə hazırlaşanlar üçün çox əhəmiyyətlidir.

Müasir mərhələdə uşaqlarla işin təşkili ölkənin təhsil və gənclər siyasətinin tələblərinə əsasən həyata keçirilir. Bu mənada uşaqların tərbiyəsinə müxtəlif sosial təsisatların təsiri nəzərə alınmalıdır. Onların arasında uşaq birliklərinin xüsusi yeri vardır. "Onun perspektiv məqsədi öz qüvvə və imkanlarına əsaslanmaqla uşaqlara kömək etmək, uşaq maraqlarının təmin olunmasındakı boşluğu doldurmaqdır" (Ə.X.Paşayev, F.A.Rüstəmov. Pedaqogika, Bakı, 2002, səh.129). Uşaqlar həm məktəbdə, həm də ondan kənarda öz maraq dairələrinə görə birləşirlər. Uşaq birlikləri şəraitində uşağın sosiallaşması məsələsinin həllinə yönəlmiş tərbiyəvi iş şəxsiyyətin formalaşmasının digər amilləri ilə qarşılıqlı əlaqədə keçirilsə də, öz məqsədi, məzmunu və strukturu etibarı ilə onlardan xeyli fərqlənir. Sosial münasibətlər dinamikdir. Bu, uşaqların müvəqqəti birliklərdə intensiv ünsiyyəti zamanı daha çox meydana çıxır.

Uşaq birlikləri ilə işin metodikasının sosiallaşması prizmasından yanaşsaq hər hansı birliyin məqsədini iki aspektdə nəzərdən keçirmək olar: uşaqların öz qarşılarına qoyduğu məqsəd, uşaq birliklərinin işində iştirak edən böyüklərin qarşıya qoyduğu məqsəd.

Uşaqların könüllü birliyi yalnız o zaman mümkün olar ki, onlar bu işdə maraqlı həyat perspektivlərini, öz tələbatlarının təmin olunması imkanlarını görə bilsinlər. Ən vacibi odur ki , birliklər uşaqların fəaliyyətinin sosial əhəmiyyətini yüksəldə bilsinlər.

Uşaq birlikəri təlim-tərbiyə prosesini koordinasiya baxımından da çox vacibdir. Onlar şagird şəxsiyyətinə ikitərəfli təsir göstərir. Bir tərəfdən uşağın məqsəd, maraq və tələbatlarının təmin olunmasına şərait yaradır. Digər tərəfdən öz tələbatlarını məhdudlaşdırma, ictimai normaları, dəyərləri, sosial proqramları korrektə yolu ilə şəxsiyyətin daxili imkanlarının seçimi baş verir.

Uşaq birlikləri fəaliyyətinin koordinasiyasında onların dövlətin təhsil siyasəti haqqında təhsilə dair normativ-qanunvericilik bazasının mənimsənilməsi mühüm əhəmiyyət kəsb edir. Bu sahədə "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununun siniflər üzrə ictimai oxularının keçirilməsi də az əhəmiyyət daşımır. Məsələn, maddələr üzrə tanışlıq zamanı uşaqlar özlərinin təhsil hüquqlarını da məsimsəmiş olurlar. Qanunun 3-cü maddəsinin öyrənilməsi uşaqların təhsil sahəsində dövlət siyasətinin əsas prinsipləri ilə tanış olmasına imkan verir.

Uşaq birliklərinin bu cür nəzəri hazırlığı uşaqların maraqlarını, hüquqlarını, ləyaqətlərini qorumaqla, müdafiə funksiyasını da yerinə yetirmiş olur.

Bu birliklərdə sosiallaşma prosesi yalnız uşaq və böyüklərin birgə fəaliyyətinin, maraqlarının ümumiliyi şəraitində səmərəli nəticələr verə bilər. Bu zaman birliyin fəaliyyət formalarının seçilməsi, bir qrupdan, bir mikrokollektivdən digərinə keçmək hüququ şagirdin ixtiyarında qalır.

Uşaq birliklərinin tipləri birliklərin fəaliyyətinin məzmununa, müddətinə və idarəetmə formalarına görə fərqlənir.

Məzmununa görə fərqlənənə əmək, asudə vaxt, ictimai-siyasi, dini, vətənpərvərlik, idrak (öyrənmə fəaliyyəti ilə məşğul olan) birliklərini misal göstərmək olar. Əmək birliklərində şagirdlərin əmək fəaliyyətinin təşkili həyata keçirilir. Məsələn, şagird kooperativləri, hər şeydən əvvəl, uşaqların şəxsi iqtisadi problemlərini həll etmək məqsədilə həyata keçirilən birgə fəaliyyətdir.

Asudə vaxt birlikləri uşaqların qabiliyyət və meyillərinin inkişafı məsələlərinin həllini, onlara ünsiyyət özünüifadə və özünütəsdiq imkanının verilməsini nəzərdə tutur.

Mövcudluq müddətinə görə birliklər daimi, müvəqqəti və situativ olur. Daimi birliklər, bir qayda olaraq, məktəbin, əlavə təhsil müəssisəsinin bazasında, uşaqların yaşayış yerlərində təşkil edilir.

Tipik müvəqqəti birliklərə yay uşaq mərkəzləri, turist qrupları aiddir. Situativ birliklərə isə çox vaxt tələb etməyən, hər hansı bir məsələni həll etmək məqsədilə təşkil edilən uşaq birlikləri misal ola bilər (məsələn, yardım aksiyasında, toplanışda iştirak etmək və s.).

İdarəetmə xarakterinə görə qeyri-formal uşaq, klub birliklərini və uşaq təşkilatlarını fərqləndirmək olar.

Uzun illər keçmiş SSRİ məkanında, o cümlədən Azərbaycanda vahid uşaq təşkilatı (pioner təşkilatı - S.B) fəaliyyət göstərmiş və o, uşaqların təşkilindən daha çox məktəb həyatının təşkili formasına çevrilmişdi.

Demokratik cəmiyyət şəraitində uşaq təşkilatlarının işində də əsaslı dəyişikliklər etmək zərurəti meydana çıxdı. İlk növbədə onların işinin məzmununu yeniləşdirmək vacib hesab edildi. Bu zaman şəxsiyyətin sosiallaşması üçün birlik və təşkilatlar yaradıldı. Uşaqlara müxtəlif birliklərdə, təşkilatlarda, qruplarda fəaliyyət və ünsiyyət sahəsi seçmək imkanı verildi. Onlar bu imkanı əldə etməklə sərbəstlik qazandılar, variativ mövqedən çıxış etmək bacarığına yiyələndilər. Variativ yanaşma uşaqların fəaliyyətinin məzmununa görə bir-birindən fərqlənən kompleks proqramı və ona adekvat olan iş formaları və metodlarını nəzərdə tutur. Bu proqramlar uşaqların maraq və tələbatlarının diapozonunu, eyni zamanda ətraf aləmdə baş verən iqtisadi, sosial, siyasi və mənəvi dəyişiklikləri nəzərə almağı tələb edir .

Uşaqlar birlikləri maraqlarına görə seçmək, bir birlikdən digərinə keçmək, ürəklərinə yatan fəaliyyət proqramını həyata keçirmək, həmçinin proqramların icra müddəti və sürətini planlaşdırmaq imkanına malik olurlar.

Proqramlar variativlik nəzərə alınmaqla işlənib hazırlanır. Təşkilat üzvlərinə öz proqramlarına əlavələr etmək hüququ verilir.

Uşaqlarda demokratik mədəniyyətin tərbiyə olunmasında uşaq ictimai-siyasi birliklərinin əhəmiyyəti böyükdür. İnsanın siyasi cəhətdən inkişaf etməsi, demokratik mədəniyyətə yiyələnməsi, ilk növbədə onun həmrəyliyə, cəmiyyətdə mövcud olan müxtəlif istiqamətli maraqların harmoniyasına imkan yaratmasında özünü göstərir. Eyni zamanda, cəmiyyətin, sosial təbəqələrin, fərdlərin qarşısında duran vəzifələrin konstruktiv həllinə imkan verən kompromislər axtarışına meyilli olmasında nəzərə çarpır.

Bu cür düşünmək və fəaliyyət göstərmək üçün insanın yaşadığı ictimai mühit haqqında tarixi, fəlsəfi, iqtisadi, politoloji, psixoloji biliklərə yiyələnməsi zəruridir.

Bu gün uşaq birliklərində uşaqların sosial-iqtisadi fəallığının tərbiyə edilməsi məsələsi xüsusi aktuallıq kəsb edir. Bu proses aşağıdakıların həyata keçirilməsini təmin edir:

- uşaqların və yaşlıların sosial-iqtisadi münasibətlərinin qarşılıqlı təsiri;
- əldə edilmiş biliklərin praktik fəaliyyətə tətbiqi.

Uşaqların tərbiyəsində onların müvəqqəti birliklərinin də böyük əhəmiyyəti vardır. Belə birliklərdən uşaqların öz yaşıdları ilə dinamik və intensiv ünsiyyətinə real şərait yaradılır. Müvəqqəti birliklərdə yeniyetmələr öz həyat fəaliyyətlərini müstəqil təşkil etməyi sınaqdan keçirir, bu zaman passiv müşahidəçidən fəal təşkilatçıya çevrilirlər.

Beləliklə, müxtəlif uşaq birlikləri uşağın daxili aləminin təşəkkülünə, onlarda ümumi mədəniyyətin, yeni dəyərlərin formalaşmasına imkan yaradır, uşağın sosial inkişafını stimullaşdırır.




# Təlimdə geri qalan şagirdlərlə işin təşkili

**Ofelya CƏFƏROVA,**
*Bakı şəhəri 164 nömrəli tam orta məktəbin tarix müəllimi*

## Şagirdləri sistemli mütaliəyə cəlb etməklə onların təlimə maraqlarını artırıram

Məktəblərdə müəllimlər əksər hallarda mövzunu yaxşı mənimsəyən, fəal şagirdlərlə işləməyə daha çox üstünlük verirlər. Sinifdənxaric, məktəbdənkənar tədbirlərdə belə şagirdləri irəli çəkir, onların intellektual potensiallarından, bilik və bacarıqlarından daha çox faydalanırlar. Bu da öz növbəsində bir sıra mənfi hallara, pedaqoji prosesin tələblərinin pozulmasına yol açır. Sinifdə zəif oxuyan şagirdlərin təlim marağı daha da zəifləyir, onlar tədris prosesindən, sinifdənxaric və məktəbdənkənar tədbirlərdən geri qalırlar. Əslində isə müəllim dərsi elə təşkil etməlidir ki, sinifdə fəal öyrənmə mühiti yaransın, proses bütün şagirdləri əhatə etsin. Belə olduğu halda dərs sinfi bütünlüklə əhatə etməklə, şagirdlərin marağı ilə qarşılanır.

Təlimdə geridə qalan şagirdlərlə işin sistemli təşkili müəllimdən pedaqoji ustalıq, şagird şəxsiyyətinə, onun mənəvi-psixoloji, ailə vəziyyətinə, arzu və istəklərinə, dünyagörüşünə yaxından bələdlilik tələb edir. Mən öz iş təcrübəmdə bu cəhətə xüsusi önəm verir, şagirdlərimin tədris hazırlığı səviyyəsini mütəmadi olaraq yüksəltməyə çalışıram. Müəllim olaraq mənim bu istiqamətdə öz iş prinsipim, şagirdlərə pedaqoji-psixoloji yanaşmam vardır. Bu işləri aşağıdakı kimi sistemləşdirə bilərəm:

- Dərs prosesində maraqlı tarixi faktları əks etdirən filmlərə, sənədli xronikalara və s. baxış;
- Şagirdləri mütəmadi olaraq ekskursiyalara aparmaq, gördüklərini qeyd etdirmək və onun əsasında esse, məlumat hazırlamağı tapşırmaq;
- Müəyyənləşdirilmiş qrafik əsasında təlimdə geri qalan şagirdlərlə məşğələlər keçmək;
- Təlimdə geri qalan şagirdləri mütəmadi olaraq sinifdənkənar tədbirlərə cəlb etmək, onlara həmin tədbirlərdə məsul vəzifələr tapşırmaq;
- Ədəbi-bədii kompozisiyalar, "dəyirmi masa"lar, bilik yarışları, viktorinalarda təlimdə geri qalan şagirdlərin iştirakını təmin etmək;
- Təlimdə geri qalan şagirdlərin psixoloji gərginliklərini aradan qaldırmaq üçün müxtəlif həvəsləndirici, maraqlandırıcı situasiyaların yaradılması;
- Təlimdə geri qalan şagirdlərin valideynləri ilə sistemli olaraq maarifləndirici tədbirlərin təşkil olunması, onların ailə vəziyyətinin öyrənilib, lazımi pedaqoji-psixoloji dəstəyin verilməsi;
- Asudə vaxtın səmərəli təşkili.

Şagirdlərin təlimdə geridə qalmasının səbəbləri müxtəlif olur. Ailə mühiti, şagird yoldaşlarının kimliyi şagirdin mənəvi-psixoloji durumuna ciddi təsir edir, müxtəlif problemlərin, komplekslərin yaranmasına yol açılır. Odur ki, bir müəllim olaraq şagirdlərimin dərsdənsonrakı davranışlarını diqqətdə saxlayır, ailə vəziyyətləri ilə sistemli olaraq maraqlanıram. Çalışıram ki, valideynlərin övladlarının təliminə ciddi yanaşmasına, onları daim nəzarətdə saxlamağa nail olsunlar.

Müasir dövrün yaratdığı problemlərdən biri də şagirdlərin sosial şəbəkələrə ciddi şəkildə meyil etməsidir. Təcrübəmdən bilirəm ki, təlimdə geri qalmanın əsas səbəblərindən biri də məhz budur. Valideynlərlə apardığım söhbətlərdə onlara izah edirəm ki, övladlarının kompüterdən, sosial şəbəkələrdən istifadələrinə ciddi yanaşsınlar. Çalışsınlar ki, sosial şəbəkələrdən istifadə ancaq şagirdin bilik və bacarıqlarının təkmilləşməsinə xidmət etsin. Onun yad təsirlərə düşməsinə, lazımsız informasiyalar əldə etməsinə şərait yaranmasın. Şagirdlərimin təlim geriliyinin aradan qaldırılmasında təşkil etdiyim əlavə məşğələlər də önəmli rol oynayır. Bu zaman şagirdin hər birinə fərdi yanaşma imkanı əldə edir, mövzunun daha mükəmməl mənimsənilməsinə nail oluram. Fərdi yanaşmanın yalnız əlavə məşğələlərdə deyil, dərs prosesində də tətbiqi müsbət nəticələr yaradır.

Qeyd etdiyim kimi, şagirdin təlim geriliyinin əsas səbəblərindən biri də ailə mühitidir. Bəzən valideynlər müxtəlif bəhanələr gətirərək, övladlarının təlimi ilə maraqlana bilmədiklərini söyləyirlər. Unudurlar ki, övlada qarşı bugünkü laqeydlik onun gələcək həyatı üçün mənfi nəticələrə yol açacaqdır. Belə ailələri nəzarətə götürür, onları mütəmadi olaraq məktəbə dəvət edir, dərslərdə iştirak etmələrinə şərait yaradıram. Bu, bir neçə cəhətdən əhəmiyyətlidir. Birincisi, şagird valideyninin məktəbə gələcəyini bilib dərslərinə ciddi hazırlaşır. İkincisi, valideyn digər şagirdlərin yaxşı oxuduğunu, yaxşı oxuyan şagirdlərin valideynlərinin rəğbətləndirildiyini görüb öz övladının da yaxşı oxumasına, onun təlimi qayğısına qalmağa başlayır. Pedaqoji təcrümdə bu kimi hallarla kifayət qədər qarşılaşmışam. Buradan belə bir qənaətə gəlmək mümkündür ki, valideyn - məktəb - şagird üçbucağının pedaqoji-psixoloji tələblər səviyyəsində təşkili şagirdin təlim geriliyinin aradan qaldırılmasında stimuldur.

Şagirdlərin təlim geriliklərinin aradan qaldırılması yollarından biri də sinifdənxaric və məktəbdənkənar tədbirlərin təşkilidir. Bu kimi tədbirləri məhz şagirdlərin arzu və istəkləri səviyyəsində təşkil etməklə, təlimdə geri qalan şagirdlərin təşkilatçılığına xüsusi diqqət yetirirəm. Hiss edirəm ki, belə məqamlarda zəif oxuyan şagirdlər öz məsuliyyətlərini dərk edir və tapşırılan işə ciddi yanaşırlar. Təşkil olunan bu kimi tədbirlərdən sonra şagirdlərə öz müşahidələrini ümumiləşdirib esse, məlumat yazmağı tapşırıram. Ekskursiyada iştirak edən bütün şagirdlər, eləcə də zəif oxuyanlar tapşırığı yüksək səviyyədə yerinə yetirirlər. Beləcə, təlimdə geri qalan şagirdlərimdə təlimə maraq oyadır, mövzunu mənimsəmələrinə yol açıram. Onlar bundan sonra da sinifdənxaric, məktəbdənkənar tədbirlərə böyük məmnuniyyətlə qoşulur, təlimdə sinif yoldaşlarından geri qalmamağa çalışırlar.

Şagirdlərlə mütəmadi olaraq keçirdiyim "dəyirmi masa"lar da təlimdə geri qalanların fəallaşdırılması baxımından əhəmiyyətli rola malikdir. Bəzən belə tədbirlərin aparıcılığı məhz zəif oxuyan şagirdlərə həvalə olunur. Bu da onlarda təlim uğurlarına yol açan özünəinam, sağlam rəqabət hissinin yaranmasına imkan verir. Etiraf edim ki, bu kimi tədbirlər vasitəsilə fəallaşdırılan neçə-neçə şagird sonradan ən yaxşı oxuyanlar cərgəsinə qoşulub.

Tarix müəllimi kimi məktəbdə mütəmadi olaraq maraqlı tədbirlər təşkil edirəm. Bu tədbirlər ayrı-ayrı tarixi, ədəbi qəhrəmanların həyatına, keçdikləri ömür yollarına həsr olunur. Bu tədbirlərdə baş rollar əsasən zəif oxuyan şagirdlərə tapşırılır. Bu kimi tədbirlər yalnız təlim marağının təmin olunmasına deyil, eləcə də şagirdlərin vətənpərvərlik hisslərinin yaranmasına, onların mənəvi keyfiyyətlərinin, vətəndaşlıq amallarının formalaşmasına da təkan verir. Onlar milli qəhrəmanlarımızın, tarixi şəxsiyyətlərimizin, yaxşı təhsil almaqla böyük uğurlar əldə etmiş alimlərin, ziyalıların obrazlarını məharətlə canlandırır, onları qürurla ifa edirlər. Hiss edirəm ki, onlar bu tədbirlərdə iştirak etmək, böyük tarixi şəxsiyyətlərin obrazlarını canlandırmaqla əsaslı şəkildə mənəvi təsirə məruz qalırlar. Bu təsir onları təlimə marağa, vətəni sevməyə, xeyirxah, mərhəmətli olmağa, gələcəyə nikbin ruhda baxmağa, bir sözlə, hərtərəfli inkişafa həvəsləndirir.

Qeyd edim ki, dərslərimi əsasən informasiya-kommunikasiya texnologiyalarının tətbiqi şəraitində qururam. Mövzuya müvafiq olaraq Azərbaycan filmlərindən göstərdiyim maraqlı kadrlar, musiqi parçaları, tarixi faktlar şagirdlərin diqqətini cəlb edir, pedaqoji prosesin elmi, metodiki cəhətdən səmərəli qurulması təmin olunur. Maraqlı keçən dərs fonunda zəif oxuyan şagirdlər belə prosesə diqqət kəsilir, mövzunu öyrənməyə meyil göstərirlər.

Şagirdlərin təlimə marağının təmin olunmasında, təlimdə geriliyin aradan qaldırılmasında əhəmiyyətli rol oynayan amillərdən biri də asudə vaxtın səmərəli idarə olunmasıdır. Müasir informasiya-kommunikasiya dövründə şagirdlər öz asudə vaxtlarını daha çox kompüter önündə keçirməyə, şəbəkə oyunlarından istifadə etməyə üstünlük verirlər. Bu isə, əlbəttə ki, intellektual inkişafa müsbət təsir göstərmir. Şagirdləri sistemli mütaliəyə cəlb etməklə həm onların asudə vaxtlarının səmərəli keçməsinə, həm intellektual inkişaflarına, həm də təlimə maraqlarının təmin olunmasına imkan yaradıram. Mütaliənin səmərəliliyini, onun təlim keyfiyyətinin yüksəldilməsinə təsirini daha da artırmaq üçün keçilən mövzu, zaman, insan şəxsiyyətinin xarakterizəsi baxımından mükəmməl əsərlərin oxunmasına üstünlük verirəm. Sonra bu əsərlər təhlil olunur. Təhlil zamanı şagirdlərin oxuduqları əsərləri daha çox sosial, mənəvi aspektdən araşdırmalarına, təhlil etmələrinə, onun sosial-psixoloji mahiyyətini meydana qoymalarına çalışıram. Şagird daha çox oxuduqca, mütaliəyə meyil etdikcə intellekti yüksəlir, hadisələrə baxış bucağı, münasibəti formalaşır, münasib olmayan vərdişlərə yönəlmir, dərslərinə diqqət ayırmağa daha çox vaxt əldə edir. Şagirdlərin oxuduqları əsərlərin müzakirəsini əksər hallarda "dəyirmi masa" formasında təşkil edirəm.

Bütün şagirdlərin iştirak etdiyi bu kimi tədbirlərdə şagirdlər öz çıxışları ilə bir-birilərini öyrədir, fikir mübadiləsi aparırlar. Belə müzakirələrdə sağlam rəqabət yarandığını müşahidə edirəm. Onu da müşahidə edirəm ki, təlimdə geri qalan şagirdlər də müzakirələrə ciddi şəkildə hazırlaşır, maraqlı fikirlər səsləndirirlər. Bu kimi tədbirləri, ümumlikdə dərslərimin ayrılmaz tərkib hissəsi hesab edirəm. Biz şagirdlərimizlə iştirak etdiyimiz sinifdənxaric, məktəbdənkənar tədbirlərdə: ekskursiyalarda, "dəyirmi masa"larda, ədəbi-bədii kompozisiyalarda öyrəndiklərimizi təlim prosesinə tətbiq etməklə həm onun maraqlı keçməsinə, həm də bütün sinfi əhatə etməsinə, nəticə etibarilə şagirdlərin təlim geriliyinin aradan qaldırılmasına yol açırıq.

Müəllimin yaradıcı fəaliyyəti, yenilikləri tətbiq etmə ustalığı, qabaqcıl təcrübədən bəhrələnmə bacarağı, innovativliyi, yenilikləri öyrənməyə həvəsi ona qeyd olunanları məharətlə yerinə yetirməyə imkan verir. Nəticə etibarilə təlimin keyfiyyəti yüksəlir. Təlim keyfiyyətinin yüksəlməsi, müasir səciyyə daşıması fonunda təlimdə geri qalan şagirdlər də verilən tapşırıqları mənimsəyir, gerilik aradan qalxır, sinif ən yaxşı şagirdlərin təhsil aldığı nümunəvi sinfə çevrilir. Təcrübəmə istinadən deyə bilərəm ki, neçə-neçə şagirdim tətbiq etdiyim yanaşmalar sayəsəndə təlim geriliyini aradan qaldırmış, ən yaxşı şagirdlər sırasına qoşulmuşdur. Səbrlə, pedaqoji yanaşmaları zamanında, elmi aspektdə tətbiq etməklə uğur qazanmaq mümkündür.

# Nailiyyətlərin simaları

**Oruc MUSTAFAYEV**

Başa vurduğumuz tədris ili ölkəmizin təhsil sistemində bir sıra uğurlarla yadda qaldı. Təhsil Nazirliyi tərəfindən istedadlı uşaqların aşkara çıxarılması, bilik və bacarıqlarının stimullaşdırılması, onlarda elmi tədqiqatçılıq səriştələri və yaradıcılığın inkişaf etdirilməsi istiqamətində məqsədyönlü tədbirlərin təşkili nəticəsində şagirdlərimiz bir sıra bilik yarışlarında, beynəlxalq əhəmiyyətli olimpiadalarda uğurlar qazanaraq öz layiqli töhfələrini veriblər. Cari tədris ilində uğurları ilə yadda qalan gənclərimizi oxuculara təqdim edirik.



**"Sabahın alimləri"**, 13-18 may 2018-ci il tarixlərində Amerika Birləşmiş Ştatlarının Pittsburq şəhərində Intel Fondunun təşkil etdiyi Beynəlxalq Elm və Mühəndislik Sərgisində akademik Zərifə Əliyeva adına liseyin X sinif şagirdi Cavid Hüseynzadə və həmin liseyin IX sinif şagirdi Ceyla Hüseynzadənin, X sinif şagirdləri Əliağa Abdullayev və Adnan Bünyatovun layihələri xüsusi mükafatlara layiq görülüb.



**Reyhan Camalova,**
*"İstək" liseyinin IX sinif şagirdi*

2017-ci il noyabrın 17-də Hindistanda keçirilmiş VIII Qlobal Sahibkarlıq Sammitində ABŞ prezidentinin qızı İvanka Tramp tərəfindən xüsusi mükafat alıb. Cari ilin fevralında isə Gənclər üçün Prezident mükafatına layiq görülüb. Gənc tədqiqatçı "Forbes" jurnalının reytinq cədvəlində yer alıb.



**Fərahim Hüseynzadə,**
*BDU-nun məzunu, Çinin Renmin Universitetinin tələbəsi*

Cari tədris ilində Renmin Universitetinin daxili təqaüdünə və ən yüksək elmi mükafatına layiq görülüb. Renmin Universitetində fakültə, ümumilikdə isə universitet üzrə birinci yerə yüksəlib.



**Ramil Babazadə,**
*Akademik Zərifə Əliyeva adına liseyin eksperimental pilot siniflərinin XI sinif şagirdi*

Cari tədris ilində Moskvada 2-ci Meqapolis Olimpiadasında və kimya üzrə Respublika fənn olimpiadasında qızıl medallar qazanıb, "Birincilərin birincisi" nominasiyasına layiq görülüb.



**Emil Qasımov,**
*Akademik Zərifə Əliyeva adına liseyin eksperimental pilot siniflərinin XI sinif şagirdi*

2018-ci ildə riyaziyyat fənni üzrə Respublika olimpiadasında qızıl medala, "Birincilərin birincisi" adına layiq görülüb. Bu il Cənubi Koreyanın KAIST Universitetinə tam təqaüdlə qəbul olunub.



**Nərmin Məmmədova,**
*"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" təqaüdçüsü*

2017-2018-ci dərs ilindən Böyük Britaniyanın Edinburq Universitetində müəllimlik fəaliyyətinə başlayıb.



**Günel Mahmudova,**
*Türkiyə Dəyanət Vəqfi Bakı Türk Liseyinin XI sinif şagirdi*

Cari tədris ilində Respublika fənn olimpiadasında biologiya fənni üzrə qızıl medala və "Birincilərin birincisi" adına layiq görülüb.



**Günay Quliyeva,**
*Qazax rayonu Kommuna kənd S.Həsənov adına tam orta məktəbin IX sinif şagirdi*

Cari tədris ilində ədəbiyyat üzrə Respublika olimpiadasında birinci yeri tutub və "Birincilərin birincisi" adına layiq görülüb.



**Zahir Məmmədzadə,**
*Bakı şəhəri 239 nömrəli tam orta məktəbin X sinif şagirdi*

Cari tədris ilində coğrafiya üzrə Respublika fənn olimpiadalarında "Birincilərin birincisi" adına layiq görülüb.



**Məhəmməd Yusifov,**
*Gəncə şəhəri 26 nömrəli tam orta məktəbin eksperimental pilot siniflərinin IX sinif şagirdi*

Cari tədris ilində fizika üzrə Respublika fənn olimpiadalarında "Birincilərin birincisi" seçilib.



**Murad Ağazadə,**
*Fizika, riyaziyyat və informatika təmayüllü liseyin IX sinif şagirdi*

2018-ci il 7-12 may tarixlərində Serbiyanın paytaxtı Belqrad şəhərində keçirilən 35-ci Balkan Riyaziyyat Olimpiadasında bürünc medala layiq görülüb.



**Anar Abbaslı,**
*Xalqlar Dostluğu "İstək" liseyinin XI sinif şagirdi*

2018-ci il 7-12 may tarixlərində Serbiyanın paytaxtı Belqrad şəhərində keçirilən 35-ci Balkan Riyaziyyat Olimpiadasında bürünc medala layiq görülüb.



**Ramil Cəbiyev,**
*Nərimanov "İstək" liseyinin X sinif şagirdi*

2018-ci il 7-12 may tarixlərində Serbiyanın paytaxtı Belqrad şəhərində keçirilən 35-ci Balkan Riyaziyyat Olimpiadasında bürünc medala layiq görülüb.



**Anar Rzayev,**
*Akademik Zərifə Əliyeva adına liseyin eksperimental pilot siniflərinin X sinif şagirdi*

2018-ci il 7-12 may tarixlərində Serbiyanın paytaxtı Belqrad şəhərində keçirilən 35-ci Balkan Riyaziyyat Olimpiadasında bürünc medala layiq görülüb.



**Ziya Muxtarov,**
*Akademik Zərifə Əliyeva adına liseyin XI sinif şagirdi*

Cari tədris ilində informatika üzrə Respublika fənn olimpiadasında qızıl medala və "Birincilərin birincisi" adına layiq görülüb.



**Nəriman Mirişov,**
*Bakıdakı 160 nömrəli Klassik gimnaziyanın XI sinif şagirdi*

2018-ci il 23-28 aprel tarixlərində Minskdə keçirilən 52-ci Beynəlxalq Mendeleyev Kimya Olimpiadasında gümüş medala layiq görülüb.



**Kənan Ağayev,**
*Kimya-biologiya təmayüllü Respublika liseyinin X sinif şagirdi*

Cari tədris ilində Niderlandın Neymegen şəhərində keçirilən 14-cü Beynəlxalq Elm Olimpiadasında bürünc medala layiq görülüb.



**Əli Əliyev,**
*Kimya-biologiya təmayüllü Respublika liseyinin X sinif şagirdi*

Cari tədris ilində Niderlandın Neymegen şəhərində keçirilən 14-cü Beynəlxalq Elm Olimpiadasında bürünc medala layiq görülüb.



**Turan Bayramlı,**
*Bakı şəhəri 291 nömrəli "Ekologiya" liseyinin X sinif şagirdi*

Cari tədris ilində Niderlandın Neymegen şəhərində keçirilən 14-cü Beynəlxalq Elm Olimpiadasında bürünc medala layiq görülüb.



**Vüqar Rufulla,**
*Bakı şəhəri 261 nömrəli tam orta məktəb-liseyin X sinif şagirdi*

Tarix fənni üzrə Respublika fənn olimpiadasının qalibi, "Birincilərin birincisi" adına layiq görülüb.



**Turan Məmmədli,**
*Lənkəran şəhəri 4 nömrəli humanitar təmayüllü məktəb-liseyin eksperimental pilot siniflərinin XI sinif şagirdi*

14-cü Beynəlxalq Elm Olimpiadasının bürünc, 52-ci Beynəlxalq Mendeleyev Kimya Olimpiadasında gümüş medala layiq görülüb.

# Milli Qəhrəmanın xatirəsi anılıb

Azərbaycanın Milli Qəhrəmanı Namiq Allahverdiyevin xatirəsi onun adını daşıdığı Beyləqan şəhər 1 nömrəli tam orta məktəbdə anılıb.

Namiq Allahverdiyevin ailə üzvlərinin, Beyləqan Rayon İcra Hakimiyyətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rayon şöbəsinin nümayəndələrinin, "N" saylı hərbi hissənin zabit və əsgərlərinin, Qarabağ müharibəsi veteranlarının, Azərbaycan Yazıçılar Birliyinin rayon bölməsinin üzvlərinin iştirak etdiyi tədbirdə əvvəlcə Azərbaycanın Dövlət himni səsləndirilib, respublikamızın müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbir iştirakçıları Milli Qəhrəmanın büstü önünə əklil və gül-çiçək dəstələri qoyub, məktəbdə yaradılmış guşədə şəhidin foto və şəxsi əşyaları ilə tanış olublar.

Mərasimdə çıxış edənlər Milli Qəhrəmanın mənalı həyat və qəhrəmanlıqla dolu döyüş yolundan danışıblar. Məlumat verilib ki, Namiq Müslüm oğlu Allahverdiyev 1967-ci il oktyabrın 5-də Beyləqan rayonunda anadan olub. 1984-cü ildə 1 nömrəli orta məktəbi bitirib, 1985-ci ildə hərbi xidmətə çağırılıb. 1987-ci ildə hərbi xidmətini Moskva ətrafında başa vuraraq Vətənə qayıdıb. Ermənilərin torpaqlarımıza təcavüzü başlayanda N.Allahverdiyev könüllü özünümüdafiə batalyonlarından birinə yazılıb. İlk döyüşlərə Qubadlı rayonunda başlayan Namiq Laçın, Əsgəran, Füzuli, Goranboy rayonları uğrunda gedən döyüşlərdə iştirak edib. Son döyüşləri Tərtər rayonu istiqamətində olub. Şıxarx, Həsənqaya, Çaylı və digər kəndlərin erməni qəsbkarlarından azad edilməsində iştirak edib. 1992-ci il iyulun 9-da erməni silahlı bölmələrinin Cəmilli yüksəkliyinə hücumunun qarşısını alarkən həlak olub. Bakı şəhərində Şəhidlər xiyabanında dəfn edilib.

Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Allahverdiyev Namiq Müslüm oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülüb. Beyləqan rayonundakı 1 nömrəli tam orta məktəb onun adını daşıyır.

Tədbirdə Azərbaycan Yazıçılar Birliyinin Beyləqan rayon bölməsinin üzvləri Milli Qəhrəmana həsr etdikləri şeirlər söyləyib, məktəblilərin ifasında ədəbi-bədii kompozisiya nümayiş etdirilib.

# ADAU-nun əməkdaşları bölgələrdə olub

Azərbaycan Dövlət Aqrar Universitetinin (ADAU) bir qrup əməkdaşı Yevlax və Bərdə rayonlarında olub, təhsil müəssisəsinin maddi-texniki bazası, sürətli inkişafı, ölkə başçısının aqrar təhsilə qayğısı barədə ətraflı məlumatlar verib, çoxsaylı sualları cavablandırıblar.

Görüşlərdə çıxış edən məsul katib Telman Musayev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstərişi əsasında 500 və daha çox bal toplayan, kənd təsərrüfatı yönümlü (torpaqşünaslıq və aqrokimya, aqronomluq, meşəçilik, zootexniklik, balıqçılıq və balıqçılıq təsərrüfatı işi, aqromühəndislik, meliorasiya və su təsərrüfatı tikintisi mühəndisliyi, şərabçılıq, bitki mühafizəsi, bağçılıq və tərəvəzçilik, su bioehtiyatları və akvabitkilər, ekologiya, baytarlıq və əczaçılıq) ixtisaslarını seçən abituriyentlərə universitetin büdcədənkənar vəsaiti hesabına 200 manat əlavə təqaüd veriləcəyini diqqətə çatdırıb. Bildirib ki, aqraryönümlü ixtisasların hamısı dövlət sifarişlidir. Tələbələr yüksək təhsillə yanaşı müasir standartlara cavab verən tələbə evlərində yaşayış yerləri ilə də təmin olunurlar.

Digər çıxış edənlər də aqrar sahəyə və aqrar təhsilə diqqət və qayğıdan, Azərbaycan Dövlət Aqrar Universitetinin maddi-texniki bazasının ən müasir standartlara uyğun yenidən qurulmasından, iki tələbə evinin gənclərin istifadəsinə verilməsindən, universitetin müasir laboratoriyalar və avadanlıqlarla təchiz olunmasından danışıblar. Xüsusi vurğulayıblar ki, aqrar sahəyə savadlı kadr hazırlamaq üçün universitetdə hər bir şərait və tam şəffaf mühit mövcuddur. İxtisas seçimi zamanı bu halların nəzərə alınması təbii ki, gələcəkdə ilk olaraq rahat iş yeri tapmaq, tələbəlik illərində ən yaxşı sosial şəraitə nail olmaq deməkdir.

Bunlarla yanaşı, görüş iştirakçıları ADAU-nun bu günü adlı video material izləyib, təhsil müəssisəsi haqqında daha geniş və dolğun məlumat əldə ediblər.

# Lənkəran Dövlət Humanitar Kollecində yekun konfrans

İyunun 8-də Lənkəran Dövlət Humanitar Kollecində buraxılış kurs tələbələrinin diplomqabağı təcrübələrinin yekun konfransı keçirilib. Tədbiri açan kollecin direktoru, dosent Ruslan Həmidov təcrübələrin əhəmiyyəti, mütəxəssis hazırlığı prosesində zəruriliyi barədə məlumat verərək builki təcrübələrdə qazanılan uğurlar və müşahidə edilən nöqsanlardan danışıb.

Kollecin təcrübə rəhbəri Sevər Əhmədova təcrübələr zamanı çəkilmiş materiallardan hazırlanan videomaterialları nümayiş etdirib. Bildirib ki, kollecin "Texnologiya müəllimliyi", "Təsviri incəsənət müəllimliyi", "Fiziki tərbiyə müəllimliyi" ixtisaslarının tələbələri Lənkəran şəhər 4 nömrəli humanitar təmayüllü məktəb-liseydə, "Arxiv işi və kargüzarlıq" ixtisasının tələbələri Azərbaycan Respublikasının Dövlət Arxivinin Lənkəran filialında, "Muhasibat uçotu" ixtisasının tələbələri 15 saylı ərazi maliyyə hesablaşma mərkəzində, "Kitabxana informasiya təminatı" ixtisasının tələbələri Lənkəran rayon mərkəzi kitabxanasında, musiqi ixtisasları üzrə tələbələri isə Cəfər Cabbarlı adına Lənkəran şəhər 1 nömrəli uşaq musiqi məktəbində təcrübədə olublar.

Metodist müəllimlərdən Nərminə Həbibova, Esmira Çükürova, Qətilə Şükürova, Validə Məmmədova çıxış edərək təcrübələrin mütəşəkkil keçirilməsinə və təcrübəçilərin nəzəri biliklərə malik olduqlarına görə kollec, eləcə də təcrübələrin normal təşkili üçün müvafiq şərait yaradan müəssisə rəhbərlərinə təşəkkürünü bildiriblər.

Konfransda təcrübəçi tələbələrdən bir neçəsi söz alaraq təəssüratlarını bölüşüblər.

# "Qarabağda yetişən dahilər"

Göygöl şəhər 6 nömrəli tam orta məktəbdə ədəbiyyat fənnindən "Qarabağda yetişən dahilər" adlı "açıq dərs" keçirilib.

Məktəbin VI sinfində Şəbnəm Ələkbərli tərəfindən keçilən dərsdə şagirdlər "Romantiklər", "Filosoflar" və "Humanistlər" adlı 3 qrupa bölünüblər.

"Ağabəyim ağa kimdir?" tədqiqat sualını şagirdlər qruplar şəklində cavablandırıblar.

Sonda Ş.Ələkbərlinin keçdiyi "açıq dərs" müzakirə olunub. Məktəbin direktoru Nərgiz Əmiraslanova və fənn müəllimləri dərsin yaxşı təşkil olunduğunu və şagirdlərin ədəbiyyat fənnindən yüksək bilik nümayiş etdirdiklərini bildiriblər.

**Raminə MƏMMƏDOVA,**
*Göygöl Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*




# "Qurtuluşun zəfər günü"

Naxçıvan Dövlət Universiteti incəsənət fakültəsində 15 iyun Milli Qurtuluş Gününə həsr olunmuş "Qurtuluşun zəfər günü" adlı tədbir keçirilib. Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsindən sonra tədbiri açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov dahi rəhbər Heydər Əliyevin xilaskarlıq missiyasından danışıb.

Rektor Milli Qurtuluş Gününü Azərbaycanın müstəqillik tarixinin ən şərəfli səhifələrindən biri kimi dəyərləndirərək qeyd edib ki, bu günün mənası təkcə ölkənin xaos və anarxiyadan xilas olunması, xarici və daxili düşmənlərin Azərbaycanı parçalamaq, müstəqil dövlətimizi məhv etmək planlarının qarşısının alınması ilə məhdudlaşmır. Bu tarixi gün, eyni zamanda, Azərbaycanın dünya birliyinə qovuşması, dünya dövlətləri tərəfindən tanınması, beynəlxalq aləmdə layiqli yerini tutması ilə səciyyələnir. Prezident İlham Əliyevin ümummilli liderin siyasi xəttini layiqincə davam etdirdiyi diqqətə çatdırılıb.

"Heydər Əliyevin Azərbaycanın milli dövlətçiliyində rolu və yeri" adlı çıxışında Azərbaycan tarixi kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Nadir Hüseynbəyli qeyd edib ki, hər bir xalqın tarixində onun müstəqilliyi, milli azadlıq uğrunda apardığı mübarizənin böyük rolu vardır. Bu müstəqillik və azadlıq heç də asan qazanılmır, bütün xalqlara və millətlərə qismət olmur, çünki müstəqilliyi qazanmaqla yanaşı, onu həm də qoruyub saxlamaq vacib şərtdir. Vurğulanıb ki, ölkədə sabitliyə məhz 1993-cü ildə xalqın tələbi ilə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra nail olunub. Məhz ulu öndərin müdrik və qətiyyətli addımı nəticəsində Azərbaycan dövlətçiliyinə yönəlmiş qəsdlərin qarşısı uğurla alınıb.

Tədbir incəsənət fakültəsi tələbələrinin ifasında konsert proqramı ilə davam edib.

# Elm ocağı kimi tanınan Talıstan məktəbi



## Təhsil ocağı 50-ci buraxılışını qeyd edir

İxtiyar dağların döşünə sığınan, bir baxışla hər kəsi özünə valeh edən Talıstan kəndi! İsmayıllıda qədim odlar yurdunun bir parçası, dilbər guşəsi - vaxtı ilə xalq şairi S.Vurğunun ilham pərisinə çevrilən bir kənd. Kəndə gələrkən hündür ağaclarla əhatə olunan asfalt yolun sağ tərəfində bir bina ucalır. Bu bina E.Bayramov adına Talıstan kənd tam orta məktəbidir. O məktəb ki, bu gün təkcə İsmayıllı rayonunda deyil, respublikamızda tanınan, öz uğurları ilə hamının diqqətini çəkən bir elm ocağıdır.

Həyatımızda mühüm rol oynayan təhsil gələcəyimizin təminatçısıdır. Əsrimizdə elmin qüdrəti böyükdür. Yalnız o adam biliklərin zirvəsinə çata bilər ki, qorxmadan, yorulmadan onun daşlı-kəsəkli yollarını ötə bilsin. Dahi Nizami Gəncəvi əbəs yerə deməyib ki;

*Qüvvət elmdədir, başqa cür heç kəs,*
*Heç kəsə üstünlük eyləyə bilməz.*

Bəli, bu gün öz təhsil uğurları ilə fərqlənən Talıstan kənd tam orta məktəbinin pedaqoji kollektivi də bu amala, bu məsləkə xidmət edir. Məktəbdə 356 nəfər şagirdin təlim-tərbiyəsi ilə 42 nəfər ali təhsilli müəllim məşğul olur. Bu müəllimlərin demək olar ki, hamısı Talıstan məktəbinin yetirmələridir. Onlardan beş nəfər ali məktəbi fərqlənmə diplomu ilə bitirmişdir.

Məktəbdə internet şəbəkəsinə qoşulmuş kompüterlərlə təchiz olunmuş kompüter sinfi, fənn kabinetləri, innovativ təlim üçün yeni kitabxana, idman zalı şagirdlərin ixtiyarındadır. Məktəbdə çalışan hər bir kollektiv üzvü öz işinə məsuliyyətlə yanaşır, şagirdlərin elmlərə yiyələnməsi üçün səy və bacarığını əsirgəmir.

Qeyd etməliyik ki, təhsilin keyfiyyəti ilk növbədə müəllim peşəkarlığı və məktəbdə idarəetmənin düzgün təşkilindən asılıdır. Bu istiqamətdə məktəbin gördüyü işlər təqdirəlayiqdir. Məktəbə Əməkdar müəllim Aydın Əzizov rəhbərlik edir. Məktəbdə yaradılan sağlam mühit şagirdlərimizin təhsildə yüksək nailiyyətlər əldə etməsinə stimul verir. Məktəbin direktoru başda olmaqla pedaqoji heyətin işi demokratik prinsiplər əsasında qurulmuşdur. Bu zaman məktəbin yerləşdiyi kəndin spesifik xüsusiyyətləri də diqqətdə saxlanılmışdır.

Məktəbdə tez-tez ədəbi-bədii gecələr, şeir, inşa müsabiqələri, idman yarışları, kitab müzakirələri, disputlar keçirilir. Bütün bunlar şagirdlərin geniş dünyagörüşlü, intellektual, müasir, savadlı, hərtərəfli böyüməsinə şərait yaradır.

Qazanılan nailiyyətlərə görə məktəb ölkə başçısının sərəncamları ilə 2008-ci və 2013-cü illərdə "Ən yaxşı məktəb"müsabiqəsinin qalibi olmuşdur. Həmçinin iki müəllimimiz: riyaziyyat müəllimi Aydın Əzizov və kimya müəllimi Şahsuvar Abbasov "Əməkdar müəllim" fəxri adına layiq görülüb, 2 nəfər "Qabaqcıl Təhsil işçisi" döş nişanı, 4 nəfər isə Təhsil Nazirliyinin fəxri fərmanı ilə mükafatlandırılıb.

Bundan ruhlanan müəllimlərimiz hər il yeni-yeni uğurlar əldə edir, rayonun təhsil sahəsindəki nailiyyətlərinə gözəl töhfələrini verirlər. Son illərdə 600-dən yuxarı bal toplayan məzunlarımız respublikanın ən yüksək ali məktəblərində təhsil alır, magistratura pilləsində təhsillərini davam etdirirlər.

### 500-dən çox bal toplayanlar

Cari 2017-2018-ci tədris ilində qocaman təhsil ocağını 20 nəfər şagird bitirir. Onlardan 16 nəfər ali məktəbə sənəd vermişdir. Qəbul imtahanlarının yaz mərhələsində 4 nəfər 600-dən, 8 nəfər isə 500-dən çox bal toplamışdır. Şagirdlərdən Aysel Məhərrəmova 665, Əli Qasımov 640, Yalçın Ağamirzəyev 637, Səbinə Rüstəmli 627, Xədicə Cəbiyeva 587, Ümüd Səfərli 545, Səbinə Şiralızadə 525, Əzizə Əkbərli 520 bal toplasalar da, öz nəticələri ilə razılaşmır, növbəti mərhələdə daha yüksək nəticə göstərmək üçün əzmlə çalışırlar.

Çox sevindirici haldır ki, yüksək nəticə göstərmiş şagirdlərdən Aysel, Xədicə, Əzizə məhz müəllimlik peşəsinə yiyələnmək istəyirlər.

Təsadüfi deyildir ki, Ayselin bacısı Mahirə də 600-dən yüksək bal toplayaraq müəllimlik peşəsini seçmişdir. Hal-hazırda BDU-da magistr pilləsində təhsilini davam etdirir.

11-ci sinfin məzunlarının bu cür uğur qazanmasında məktəbimizin, eləcə də rayonun qabaqcıl ibtidai sinif müəllimi Gülxar Babayevanın böyük rolu olmuşdur. Bu da təsadüfi deyildir ki, Gülxar müəllimin yetişdirdiyi şagirdlər buraxılış və qəbul imtahanlarında yüksək nəticələr göstərirlər. Eləcə də sinif rəhbəri Pakizə Məhərrəmova şagirdlərin hərtərəfli, bilikli, savadlı, həmçinin tərbiyəli və əxlaqlı gənclər olması üçün əlindən gələni əsirgəmir, onlara bir ana qayğısı göstərir.

Bu gün məzunlarımızın sorağı Türkiyədən, digər Avropa ölkələrindən, respublikamızın müxtəlif yerlərindən gəlir. Qabaqcıl həkim, alim, mühəndis, vəkil yetişdirən məktəb bu il özünün 50-ci buraxılışını qeyd edir. Şagirdlərimiz respublika fənn olimpiadalarında uğurla iştirak etmişlər. Rayon üzrə keçirilən "Şahin" hərbi idman oyunlarında məktəbimiz III yerə çıxmışdır. Çalışırıq ki, şagirdlərimiz məktəbdə elmlə, biliklə yanaşı əsl vətənpərvər, tərbiyəli gənclər kimi yetişsinlər. Qarabağ döyüşlərində 4 şəhid vermişik. Məktəbimizin adını daşıyan Elşad Bayramov da vətənin azadlığı uğrunda həlak olan şəhidlərimizdəndir.

Bəli, kiçik bir yazıya sığmayan məktəb həyatı! Artıq 2017-2018-ci tədris ilinin sonuna yaxınlaşırıq. Ümid edirik ki, çalınan bu "Son zəng" 20 gəncin həyat yoluna nur çiləyəcək, onlar öz istək və arzularına çatacaqlar. Talıstan məktəbinin uğur və nailiyyətlərinə yeni-yeni səhifələr yazacaqlar.

Uğurlar sizə, əziz məzunlar!

**Gülnaz ABDULƏZİZOVA,**
*İsmayıllı rayon E.Bayramov adına Talıstan kənd tam orta məktəbinin Azərbaycan dili və ədəbiyyat müəllimi*

**Səhifəni hazırladı:** *Şakir CƏFƏROV*

# Hesabat, uğur hekayələri və təşkilatlanmaq istəyi

⇦ Əvvəli səh.1

Ruhiyyə DAŞSALAHLI

## Əsas qəhrəmanı Bakı məktəbliləri olan ilk forum






### Vokalist hüquqşünas

Zeynəb Quluzadəni artıq çoxumuz tanıyırıq. Onun adını da, səsini də Respublika fənn olimpiadaları qaliblərinin mükafatlandırılması mərasimində eşitdik. Həmin günlərdə hamı ondan danışdı. Olimpiada qalibi həm də ali təhsil müəssisələrinə qəbulda ən yüksək - 700 bal toplayanlardan oldu.

Zeynəb Quluzadə 2016-2017-ci tədris ilində Respublika fənn olimpiadalarında Azərbaycan dili və ədəbiyyatı fənni üzrə bürünc, 2017-2018-ci tədris ilində isə eyni fənn üzrə qızıl medal qazanıb. Özü də sadəcə bilik yarışında məharətli deyil. Artıq səs yarışında da laureatdır. O, 2018-ci ildə Bakıda keçirilən II Beynəlxalq İncəsənət Olimpiadasında vokal üzrə I yerə layiq görülüb. Musiqiyə, incəsənətə böyük marağı olan zəkalı məktəblimiz yaxşı hüquqşünas olmağı qarşısına məqsəd qoyub. Repetitor köməyi olmadan, məktəbdə aldığı təhsillə 700 bal toplayan məktəbli ali təhsilini də yüksək nəticələrlə tamamlayacağına inanır.

Məlumat üçün qeyd edək ki, Zeynəb Quluzadə ibtidai təhsilini 5 nömrəli tam orta məktəbdə alıb. 2011-ci ildən Texniki-Humanitar Liseydə oxuyur. Dediyinə görə, liseyə qəbul imtahanında yüksək nəticə əldə edərək 5-ci sinfə qəbul olub. Hazırda liseyin XI sinif şagirdidir. Yüksək tədris nailiyyətləri və nümunəvi davranışı ilə fərqlənir.

### Gələcəyin kimyagərləri

Turan Bayramlı 291 nömrəli Ekologiya liseyinin X sinif şagirdidir. O da Bakı məktəblərinin istedadı və təfəkkürü ilə seçilən şagirdlərindəndir. 2016-2017-ci ildə İndoneziyada, 2017-2018-ci ildə Niderlandda keçirilən Yeniyetmələrin Beynəlxalq Elm Olimpiadasında kimya fənni üzrə III yerə layiq görülüb. Kimya fənninə böyük marağı olduğunu deyən Turan kimyagər yox, cərrah olmaq niyyətindədir.

Əli Əliyev 2007-ci ildə Kimya-Biologiya Təmayüllü Liseyə daxil olub. Hazırda X sinifdə oxuyur. Nümunəvi davranışı və tədris nailiyyətləri ilə fərqlənir. Həm Respublika fənn, həm də beynəlxalq elm olimpiadalarında nailiyyətləri var. Belə ki, 2017-ci ildə Beynəlxalq Elm Olimpiadasında və Moskvada keçirilən Beynəlxalq Meqapolis olimpiadasında bürünc medal qazanıb.

2016-2017-ci tədris ilində Respublika Fənn Olimpiadalarında gümüş, 2017-2018-ci tədris ilində isə qızıl medalın sahibi olub. Kimya fənninə olan marağı o qədər böyükdür ki, gələcəyini də onunla bağlamaq niyyətindədir. Əli kimya mühəndisi olmağı düşünür.

Akademik Zərifə Əliyeva adına liseyin eksperimental pilot siniflərində təhsil alan Ramil Babazadə iradəli, qətiyyətli və əzmkarlığı ilə seçilən şagirdlərdəndir. Görünür, elə bu xüsusiyyətləri onu uğurdan uğura aparır. Əldə etdiyi nailiyyətləri sadalamaqla bitmir. Ramil 2017-ci ildə regional xarakter daşıyan Beynəlxalq Kimya Mendeleyev Olimpiadasında III yeri tutub. 2017-ci ildə Moskvada keçirilən II Beynəlxalq Meqapolislər Olimpiadasında və Tailandda keçirilən 49-cu Beynəlxalq Kimya Olimpiadasında qızıl medala, 2018-ci il iyunun 2-də MM və UNİCEF-in Azərbaycandakı nümayəndəliyinin birgə təşəbbüsü ilə "Mənim səsim, mənim hüquqlarım" mövzusundakı tədbirdə "Azərbaycanın gələcəyi" mükafatına layiq görülüb.

2017-2018-ci tədris ilində Respublika fənn olimpiadalarında kimya fənni üzrə qızıl medalın sahibi olub.

Farmokologiya sahəsində kimya üzrə Nobel mükafatı laureatı olmağı arzulayır.

### "Intel ISEF" müsabiqəsinin mükafatçıları

ABŞ-da keçirilən "Intel ISEF" müsabiqəsinin mükafatçıları Ceyla və Cavid də səhnəyə çıxır. Onlar bu il ABŞ-da keçirilən "Intel ISEF" müsabiqəsində qalib gələrək 5000 manat məbləğində pul mükafatına layiq görülüblər. Hər ikisi akademik Zərifə Əliyeva adına liseydə təhsil alır.

Ceyla Hüseynzadə IX sinif şagirdidir. Nikbin xarakteri və nümunəvi davranışı ilə fərqlənir. 2018-ci ildə "Sabahın alimləri" müsabiqəsinin qalibi olub. Elə bu qələbəsi ona ABŞ-da keçirilən "Intel ISEF" müsabiqəsində iştirak hüququ qazandırıb.

Psixologiyaya böyük marağı var. Psixoloq olmağı arzulayır.

Cavid Hüseynzadə də akademik Zərifə Əliyeva adına liseyin X sinif şagirdidir. Fəal və nümunəvi davranışı ilə fərqlənən şagirdlərdəndir.

2018-ci ildə "Sabahın alimləri" müsabiqəsinin qalibi olub və ABŞ-da keçirilən "Intel ISEF" müsabiqəsinə iştirak hüququ qazanıb.

İKT-yə böyük marağı var. Proqramçı olacaq.

238 nömrəli tam orta məktəbin XI sinif şagirdi Məhəmməd Hacıyev də "Sabahın alimləri"ndəndir. 2017-ci ildə bu müsabiqədə I yerə layiq görülüb və Amerika "Intel ISEF" müsabiqəsində Azərbaycanı təmsil etmək hüququ əldə edib. İstedadı və təfəkkürü ilə fərqlənən Bakı məktəblisi 2017-ci ildə ABŞ-da keçirilən "Benjamin Franklin Trans Otlantik" yay institutunda iştirak edib.

"Gələcək liderlərin mübadiləsi proqramı" çərçivəsində ABŞ-da FLEX təqaüdü ilə birillik təhsil almaq hüququ qazanıb.

İKT-yə böyük marağı var. Menecment üzrə təhsil almaq istəyir.

### Kompüter mühəndisləri

Rafael Səddatimov 27 nömrəli tam orta məktəbin XI sinif şagirdidir. İstedadı və təfəkkürü ilə seçilir. 2016-cı ildə "Sabahın alimləri" respublika müsabiqəsində III yeri tutub. 2016-2017-ci tədris ilində Respublika fənn olimpiadalarında informatika fənni üzrə gümüş, 2017-2018-ci tədris ilində isə həmin fənn üzrə qızıl medalın sahibi olub.

İKT-yə böyük marağı olduğundan kompüter mühəndisi olmağı hədəfləyib.

Ziya Muxtarov akademik Zərifə Əliyeva adına liseyin XI sinif şagirdidir. 2017-ci ildə Rusiyada keçirilən ION-Beynəlxalq Meqapolislər Olimpiadasında informatika fənni üzrə III yerə layiq görülüb.

2017-ci ildə Türkiyədə keçirilən YSK IOI -Yeni Sistemli Kollecin Beynəlxalq İnformatika Olimpiadasında II yerə layiq görülüb.

İnformatika fənnini sevdiyini deyir. Ali məktəblərə qəbul imtahanında maksimum nəticəni toplamaq isə əsas arzusudur.

### Gələcəyin Nobel mükafatçısı

Reyhan Camalova səhnədədir. Bir müddət öncə qazandığı uğurundan danışır. Hansı ki, onun bu nailiyyətindən nəinki Azərbaycan, bütün dünya danışdı. "İstək" liseyinin ən məşhur şagirdlərindəndir.

2017-ci ildə ABŞ və Hindistanın birgə təşkilatçılığı ilə Hindistanda təşkil olunan "Qlobal Sahibkarlıq Sammiti 2017"-də "Rainergy" layihəsi ilə Azərbaycanı təmsil edib. ABŞ Prezidentinin baş müşaviri və dövlət başçısının qızı İvanka Tramp Reyhanın fəaliyyətini yüksək qiymətləndirib. "Rainergy" qurğusunun tətbiqi üçün artıq sponsor təklifi alıb.

Yeni kəşflər etməyə böyük marağı olan məktəblimiz Nobel mükafatçısı olmağı arzulayır.

### "Ən yaxşı təqdimat"ın müəllifi

Aydan Göyüşlü onu qalib edən təqdimatından bir parça səsləndirdi. 18 nömrəli tam orta məktəbin şagirdi Heydər Əliyevin 95 illik yubileyi ilə bağlı keçirilən təqdimat müsabiqəsində I yerə layiq görülüb.

### Bakı məktəblərinin çempionları

Təhsildə əsas meyar bilik deyil, həm də idman sahəsində əldə edilən nailiyyətlərdir. Bakı məktəbliləri bu məsələdə də heç kimdən geri qalmaq niyyətində deyil. Səhnəyə çıxan Nahid Ramazanzadə 2012-ci ildə Bakı şəhəri 214 nömrəli tam orta məktəbin I sinfinə qəbul olunanda valideynlərinin ağlına da gəlməzdi ki, bir neçə il sonra o, 29 qızıl medalın sahibi olacaq.

Hazırda VI sinifdə oxuyur. 214 nömrəli tam orta məktəbin istedadı və təfəkkürü ilə seçilən şagirdlərindəndir. 2017-ci ildə Türkiyədə keçirilən karate idman növü üzrə beynəlxalq turnirdə üçqat dünya çempionu olub. Həm ölkə, həm də beynəlxalq səviyyəli yarışlarda ümumilikdə 29 qızıl medal qazanıb.

Nahid olimpiya çempionu olmağı arzulayır.

Turan Ramazanzadə də karate ilə məşğul olur. 214 nömrəli tam orta məktəbin III sinif şagirdidir. Nümunəvi davranışı və tədris nailiyyətləri ilə fərqlənir. Ancaq karate üzrə artıq 30 medalı var. Onlardan 27-si qızıl, 3-ü gümüşdür. Qəti şəkildə bəyan etdi ki, olimpiya çempionu olacaq.

Bakı məktəblərinin daha bir karateçisi Rəvan Bağırovdur. 258 nömrəli tam orta məktəbin X sinif şagirdidir. İstedadı və təfəkkürü, səlis nitqi və sərbəst fikir yürütmək qabiliyyəti ilə seçilir. 2016-cı ildə karate üzrə dünya çempionu, 2017-ci ildə respublika çempionu adını qazanıb. Müxtəlif beynəlxalq turnirlərin qalibidir. Riyaziyyatı da sevdiyini deyir. Gələcəkdə isə pilot olmağı arzulayır.

Yusif Cəfərov 2015-ci ildən Bakı şəhəri 14 nömrəli tam orta məktəbdə təhsil alır. İstedadı və təfəkkürü, səlis nitqi və sərbəst fikir yürütmək qabiliyyəti ilə seçilir.

20-22 aprel 2018-ci il tarixlərində keçirilən karate üzrə IX Dünya Çempionatında erməni rəqibinə qalib gələrək I olub. 2017-ci il dekabrın 15-17 tarixlərində Türkiyənin İstanbul şəhərində keçirilən yarışda 2-ci yerə, 28 may Respublika gününə həsr edilmiş, 2018-ci il fevral ayında İranda keçirilən yarışlarda isə 1-ci yerə layiq görülüb. Olimpiya çempionu olmağı arzulayır.

Həsən Əmirzadə 95 nömrəli tam orta məktəbin VI sinif şagirdidir. 2017-ci ildə III Uşaq Paralimpiya İdman Oyunlarında üzgüçülük idman növü üzrə S1/S2 kateqoriyasında III yerə layiq görülüb. Bir idmançı kimi ölkəmizi xarici ölkələrdə təmsil etmək arzusundadır.

249 nömrəli tam orta məktəbin VII sinif şagirdi Aydın Süleymanlı da fəaldır. 5-15 sentyabr 2017-ci il tarixlərində Rumıniyada 12 yaşlılar arasında keçirilən şahmat üzrə yarışda Avropa çempionu adını qazanıb. Arzusu dünya çempionu olmaqdır.

### Musiqidə öz sözünü deyənlər

Jalə İslamova Bakı şəhəri 64 nömrəli tam orta məktəbin X sinif şagirdidir. Nümunəvi davranışı və tədris nailiyyətləri ilə fərqlənir.

2016-cı il Yunanıstanda onlayn keçirilən beynəlxalq fortepiano yarışında II yerə, 2016-cı ildə Litvanın Kaunas şəhərində keçirilən beynəlxalq fortepiano yarışında I yerə, 2017-ci ildə İspaniyada keçirilən beynəlxalq fortepiano yarışında II yerə, 2018-ci ildə Peterburqda keçirilən Mariya Yudina adına beynəlxalq fortepiano yarışında isə III yerə layiq görülüb.

Pianoçu olmağı və təhsilini xaricdə davam etdirməyi arzulayır.

Fikrət Əliyev 144 nömrəli tam orta məktəbin V sinif şagirdidir. Nümunəvi və fəaldır.

2017-ci ildə bir-birinin ardınca böyük uğurlar qazanıb. Çexiyada keçirilən Suliko test festivalında mahnı ifasına görə Qran-Pri mükafatına sahib olub. Gürcüstanda keçirilən beynəlxalq müsabiqədə ifa etdiyi mahnıda, M.Maqomayevin 75 illiyinə həsr olunmuş müsabiqədəki ifası da I yerə layiq görülüb. Arzusu musiqi təhsilini başa vurub Azərbaycanı xarici ölkələrdə təmsil etməkdir.

Jalə Mayılova 81 nömrəli tam orta məktəbin XI sinif şagirdidir. Nümunəvi və çalışqan şagirdlərdəndir.

2017-ci ildə Gürcüstanda keçirilən Gənc Pianoçuların VII Beynəlxalq müsabiqəsində I yeri tutub. Prezident təqaüdçüsüdür.

Büdrəməkdən qorxmayanlardandır. Çünki "Uğur əldə etmək üçün büdrəməkdən çəkinmə!" prinsipini əsas tutur. Gələcəkdə özünün Piano Məktəbinin olmasını istəyir.

### Bakı məktəbinin rəssam balası

Ağaxəlil Yunusov 55 nömrəli tam orta məktəbin VI sinif şagirdidir. Məktəbin ictimai tədbirlərində fəal iştirakı ilə fərqlənir. Rəssamlar İttifaqının, Gəncliyə Yardım Fondunun, Mədəniyyət və Turizm Nazirliyinin rəsm müsabiqələrinin dəfələrlə qalibi olub.

Rəsm çəkməyə, incəsənətə böyük marağı var. Rəssam olacaq.

### Məktəblilər vahid şagird təşkilatı üçün təhsil nazirinə müraciət etdi

Tədbirin sonunda 214 nömrəli tam orta məktəbin şagirdi Əliməhəmməd Hüseynov Bakı məktəblilərinin təhsil nazirinə müraciətini səsləndirib. Müraciətdə deyilir ki, hər tədris ilinin sonunda növbəti il üçün prioritet istiqamətlər müəyyənləşdirilir: "Zəngin ənənələrin yaşadılması, varislik əlaqəsinin qorunması, şagirdlərin milli-mənəvi dəyərlər əsasında formalaşması üçün məktəblilərin müvafiq birliklərə sahib olması, sistemli və nizamlı inkişaf yolu keçməsi zamanın tələbidir. Qeyd olunan birliklər şagirdlərin hərtərəfli şəxsiyyət kimi inkişafı və ümumi təhsil pilləsindən birbaşa cəmiyyət həyatına daha səmərəli inteqrasiyası baxımından müstəsna əhəmiyyətə malikdir.

Bu gün məktəb həyatının daha fəal və dinamik xarakter aldığını, şagirdlərin layiqli vətəndaş kimi yetişməsindəki əhəmiyyətli rolunu nəzərə alaraq, ümumi təhsil məktəblərində şagirdləri vahid formada birləşdirən təşkilatın yaradılmasına köməklik göstərməyinizi xahiş edirik. Əminik ki, yeni yaradılacaq vahid şagird təşkilatı təhsil sahəsində görülən işlərin məktəblilərin həyatında daha çevik əksini tapmasına və səmərəli məktəb mühitinin formalaşmasına əlavə təkan verəcək".

### Onlar hər bir məktəbli üçün yaradılan şəraitdən düzgün yararlanıblar

Tədbirin sonunda BŞTİ-nin müdiri Məhəbbət Vəliyeva da çıxış edib. O, istedadlı şagirdlərin vaxtında aşkara çıxarılması, onların həvəsləndirilməsi, yaradıcılığa və elmə maraqlarının artırılması, nəzəri və təcrübi biliklərinin təkmilləşdirilməsi, şagirdlərin məntiqi biliklərinin möhkəmləndirilməsi, onlara beynəlxalq və yerli olimpiadalarda iştirak təcrübəsinin qazanılması baxımından son illərdə əldə olunmuş nailiyyətlərdən bəhs edib.

M.Vəliyeva 2017-2018-ci tədris ili ərzində BŞTİ-nin tabeliyindəki təhsil müəssisələri şagirdlərinin həm ölkə, həm də beynəlxalq səviyyəli müsabiqələrdə böyük nailiyyətlər qazanmasının qürurverici olduğunu bildirib. İdarə müdiri bundan sonra da bu istiqamətdəki uğurların davamlı olacağını, paytaxt məktəblilərinin bütün sahələrdə ölkəmizi layiqincə təmsil edəcəyinə əminliyini söyləyib: "Bu gün məktəblilərin I forumunda öz uğur hekayələrini paylaşanlar hamıya nümunə oldular. Onlar hər bir məktəbli üçün yaradılan şəraitdən düzgün yararlanaraq böyük nailiyyətə imza atıblar. Əminəm ki, onları nümunə göstərdiyimiz məktəblilərimiz də növbəti dərs ilində öz uğurları ilə bizi sevindirəcəklər".

İdarə müdiri qeyd edib ki, bugünkü Forumu Bakı məktəblilərinin tədris ilinin yekun hesabat tədbiri kimi də dəyərləndirmək olar.

Daha sonra məktəblilərin ifasında Forumun himni səsləndirilib.

Bakı məktəblilərinin I Forumunda şagirdlər tərəfindən zəngin ədəbi-bədii kompozisiyalar nümayiş etdirilib, mahnılar və rəqslər ifa olunub.

Tədbirdə ümummilli lider Heydər Əliyev və ulu öndərin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin dövlət və xalq üçün göstərdiyi xidmətlərdən, eləcə də elm, təhsil, idman, incəsənət və digər sahələr üzrə yüksək nailiyyətlər qazanmış şagirdlərin uğurlarından bəhs edən videoçarxlar nümayiş olunub.

Sonda Forum iştirakçıları qonaqlarla xatirə şəkli çəkdirib.

### Uğur da paylaşdıqca çoxalır

Beləliklə, Bakı məktəblilərinin ilk forumu uğurla keçirildi. "Sevinc paylaşdıqca çoxalır" deyiminə inananlar qələbəsini, uğurunu, nailiyyətini paylaşaraq çoxaldacaq.

Azərbaycan məktəbliləri, uğurlarınız davamlı, nailiyyətləriniz bol olsun.

# Müasir təhsilin trendləri

⇦ Əvvəli səh.1

## Kampuslar yoxa çıxacaq, vaxt məhdudiyyəti aradan qalxacaq

**Rüstəm QARAXANLI**

Keyfiyyətli təhsil, üstəgəl, kəmiyyətə nail olmağın yolu onlayn-kurslardan keçir. Biz çox savadlı bir müəllimi götürürük, şərti olaraq Aristoteli, - onun mühazirəsini onlayn-kurslar vasitəsilə bütün dünyaya yayırıq. Yüzminlər, milyonlar bu yolla savad sahibi olur. Bu, kəmiyyət və keyfiyyət probleminin həlli. Üstəgəl, iqtisadi amil: dinləyicilərin sayı çox olduğundan, fərdbaşına düşən xərc də azalır, hətta simvolik olur.

**2. Aktiv təhsilə keçid.** Araşdırmalar göstərir ki, biliklərin əldə olunmasının yeganə yolu aktiv təhsildir. Passiv təhsil sadəcə imitasiyadır. Müasir təhsil ekspertləri hesab edirlər ki, hazırda orta və ali məktəblərdə mövcud olan tədris forması mahiyyət etibarilə passivdir. Müəllimin mühazirəsinin artıq lazımi effekti vermədiyini hamımız bilirik. Prinsipcə, hamı bu reallığı dərk edir, ancaq təhsil ocaqları yenə də köhnə prinsiplə qurulur və işləyirlər.

Passiv təhsil forması getdikcə sıradan çıxacaq. Onlayn-kurslar primitiv olsa da, bu dəyişikliyin ilkin “qaranquş”larıdır. Çünki bu kurslarda artıq tək video-mühazirələr deyil, həm də forumlar, müxtəlif tapşırıqların həlli və s. mövcuddur. Növbəti mərhələ “mobayllar”dır, artıq bir sıra platformalar belə mobil əlavələrin istehsalına başlayıblar. Ardınca virtual reallıq gəlir - interaktiv sxemlər, molekulları bütün sinifl ə müşahidə edib, müxtəlif manipulyasiya əməliyyatları həyata keçiriləcək. Yazımızı məhz əlavə edilmiş reallığa dair misalla başlamışıq: smartfonlar, xüsusi əlavələr, eynəklər vasitəsilə görüntünü gözlərimiz önündə canlandırırıq və lazım olan informasiyanı əldə edirik. Yeri gəlmişkən, əlavə edilmiş reallıq əsasında işləyən eynəklər bu gün-sabahın gerçəkliyidir. Və bu eynəklərin təhsil prosesində istifadə ediləcəyi gün də uzaqda deyil.

**3. Məlumatlar bazası.** İndi dünyada belə deməyi sevirlər: Məlumat - yeni neftdir! Bu deyim bütün digər sferalardan daha çox təhsil üçün aktualdır. Söhbət nədən gedir? Biz heç vaxt bilmirik ki, hansısa konkret tələbə və ya şagird dərsə necə hazırlaşır. Kitabı necə səhifələyir, hansı müddətə oxuyur, ona nə maraqlıdır və əksinə. Elə adam var, sanki mühazirəni çox diqqətlə izləyir, əslində isə fikri başqa yerdədir.

Mobayl-təhsildə analitika mövcuddur. Onlayn-kursların bəziləri bu yeniliyi tətbiq edirlər. Yəni insanların mühazirəni dinləməsinin hər saniyəsinin belə araşdırılması. Bu sistem vasitəsilə dinləyicinin mühazirənin hansı dəqiqəsində və ya yerində dinləməyi dayandırdığını müəyyən etmək olur. Bunun əsasında onun məlumatlar bazası formalaşdırılır. Yəni əgər tutaq ki, filan dəqiqədən etibarən dinləmə prosesi dayanırsa, deməli, ya maraqlı gəlmir, ya çətinlik yaranır. Deməli, mühazirə elə bir dəyişikliyə uğramalıdır ki, konkret həmin dinləyici üçün aydın olsun.

Bu, ortaya daha bir problem çıxarır: təhsilin fərdiləşməsi. Biz bu məqamı əksər hallarda diqqətdən kənarda saxlamışıq və bu, düzgün deyil. Məsələn, götürək riyaziyyatı. Xətti tənliklər. Siz onu bir həftəyə öyrənib əxz etdiniz. İndi isə darıxırsınız. Yeni nəisə öyrənmək istəyirsiniz, ancaq qabağa getməyə qoymurlar. Niyə? Çünki digər şagird bu tənlikləri iki həftəyə öyrənə bilir. Sonra yoxlama testi. Kimsə 100, kimsə 50%-lik nəticə göstərir, ancaq hamı irəli gedir. Halbuki bəlkə də şagirdlərdən hansısa dərsliyi bir daha açıb həmin tənliklərə baxacaq və anlayacaq ki, heç nə anlamayıb.

Belə nümunələrlə hamımız qarşılaşmışıq. Məhz buna görə də təhsilin fərdiləşməsi məsələsi getdikcə daha da aktuallaşır. Şagird haqqında bütün məlumatlar toplanır: nəyi öyrənir, nəyi yox, nəyi öyrənə bilir, nəyə gücü çatmır? Bu məlumatlar bazası vasitəsilə də fərdi yanaşmanı tətbiq edirik. Tətbiq edilən proqram yoxlaya bilər: ötən dərslərdən hansı yadda qalıb? Harada köməyə ehtiyac var? Yaxud hansı hissəni daha yaxşı bilir? Əgər bilirsə, bu mövzunun üzərində çox ləngiməyə ehtiyac yoxdur. Proqram və onun kombinasiyaları insanla eyni tempdə irəliləyirlər, bu, şagird üçün də əyləncəlidir, çünki maraq amili mövcuddur.

Ancaq bu da son deyil. Elə proqramlar olacaq ki, bizim nəyi indi öyrənməyimizin vacibliyini biləcək. Yəni indi ehtiyac nəyədir, nəyi oxusaq daha yaxşı mənimsəyə bilərik. Hazırda elə süni intellekt nümunələri var ki, bir sıra simptomları araşdırıb əhval-ruhiyyəmizi də deyə bilir. Məsələn, depressiyanı. Elə insan var, depressiyaya düşdüyünün fərqinə varmır. Ancaq süni intellekt onun nitqini, işlətdiyi ifadələri, SMS-lərini və s. analiz edib nəticəyə gələ bilər ki, bu şəxs depressiyaya düşüb. Müvafiq olaraq məsləhətlərini də verə bilər: filan kitabı oxu, filan əyləncəyə get, psixoterapevtə müraciət et.



ARISTOTLE AND HIS PUPIL, ALEXANDER.

**4. Ənənəvi çərçivələrə son.** Tədris prosesi bir şablona yerləşdirilib: orta məktəb 11 il davam etməlidir, bakalavr pilləsi 4, magistratura 2. Ancaq belə də etmək olar: bir il universitetdə oxumaq, sonra hansısa şirkətdə, yaxud startapda işləmək, gələn il isə universitetdə təhsili davam etdirmək. Özü də belə: 50% kampusda, 50% onlayn. Paralel olaraq işləmək. Magistraturanı da onlayn oxumaq olar. İndi Qərbin bir sıra universitetləri magistratura əvəzinə kurslar təklif edirlər. 4, 5, 8 kursluq mikromasterslər. Bu kurslarda iştirak etməklə həm işdən qalmırsınız, həm də xeyli yeniliklərlə tanış olursunuz. “Prometheus” kurslarının təsisçisi İvan Primaçenko hesab edir ki, gələcək təhsilin yolu təhsilin şaquli inteqrasiyasının dağıdılmasından keçir.

Ancaq dəyişikliyə üfuqi struktur da uğrayacaq. Gələcəyin təhsilini dörd divar arasında yerləşdirmək mümkün olmayacaq. Məsələn, Stenford və Harvard rəhbərlikləri tərəfindən yaradılmış “Minerva schools” üç ilə adları çəkilən universitetlərdən böyük müsabiqəyə nail ola bilib. Kampus yoxdur, tələbələr hər semestri fərqli şəhərlərdə keçirirlər. Söhbət yeni mədəniyyətlə tanış olmaq, yaxud muxtariyyətə uyğunlaşmaqdan getmir. Əsas məqsəd tədris prosesini konkret bir binanın daxilində məhdudlaşdırmamaqdır. İş, ixtisasartırma, real şirkətlərlə əməkdaşlıq, ictimai təşkilatlarla birgə fəaliyyət hər bir semestrin mütləq şərtidir. Kim ki bizneslə maraqlanır, ona öz biznesini yaratmaq tapşırılır. Kimsə yoxsulluqla maraqlanırsa, onu şəhər meriyasına, yaxud gəlirsiz təşkilatlara göndərirlər ki, bu problemlə necə mübarizə aparılması ilə tanış olsun. Divarların uçurulması gələcəyin trendlərindən biridir. Güman ki, yaxın illərdə biz məhz belə bir təhsilin şahidi olacağıq.

# “Dünyanın ən böyük dərsləri”

## Şagirdlər interaktiv formada BMT-nin 17 qlobal məqsədi ilə tanış olub



**Sifai SƏFƏROVA**

Qubanın 2 nömrəli təbiət fənləri təmayüllü tam orta məktəbində Təhsil Nazirliyinin Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun təşkilatçılığı ilə YUNESKO-nun “Dünyanın ən böyük dərsləri”nə giriş mövzusunda təlim keçirilib. Şagirdlər interaktiv formada BMT-nin 17 qlobal məqsədi ilə tanış olub, onlara nail olmaq üçün qruplarda işləyərək təkliflər hazırlayıblar. Şagirdlər “Keyfiyyətli təhsil”, “Sağlamlıq və rifah”, “Gender bərabərliyi”, “Təmiz su və sanitariya”, “Ucuz və təmiz enerji”, “İqlim dəyişikliyi ilə mübarizə”, “Yer üzündə həyat”, “Sülh, ədalət və güclü institutlar” və digər məsələlərin planetimizə və ölkəmizə təsirlərinə aid maraqlı suallarla çıxış ediblər.

Tədbirdə məktəblilərə YUNESKO-nun hazırladığı “Dayanıqlı inkişaf nədir?” adlı sosial çarx da nümayiş olunub.

Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun beynəlxalq layihələr şöbəsinin müdiri Elçin Sərdarov bildirib ki, müasir dövrdə müəllimlərin və şagirdlərin ümumbəşəri dəyərlərə əsaslanan humanistik tədrisin, dayanıqlı inkişaf məqsədlərini və ona nail olmaq üçün təhsilin və təfərdaşlığın aşılanması və təşviqi çox vacibdir. “Alimlərin fikrincə, humanitar paradiqma pedaqoji texnologiyaların istifadəsində dəyişkənliyi nəzərdə tutur. Onlar özünü öyrənmə, özünü tərbiyə, özünü inkişaf, müstəqil yaradıcılıq fəaliyyəti, innovatorluq və sosial təşəbbüs kimi prosesləri stimullaşdırırlar. Bu kontekstdə YUNESKO-nun “Dünyanın ən böyük dərsi”nin böyük əhəmiyyəti var”.

TİPİİ-nin nümayəndəsi əmindir ki, “Ucuz və təmiz enerji” və digər mövzularda YUNESKO dərslərində iştirak edən şagirdlərdən də bu məktəbin məzunu, ABŞ və Hindistanın birgə təşkilatçılığı ilə Hindistanda təşkil olunan “Qlobal Sahibkarlıq Sammiti 2017”də “Rainergy” layihəsi ilə qalib olan və ABŞ prezidentinin baş müşaviri İvanka Trampı heyrətləndirən Reyhan Camalova kimi onlarla yeni, kreativ ixtiraçı - şagirdlərimizi yenidən kəşf edəcəyik.

# I sinfə qəbulun ilk mərhələsi yekunlaşır

## Məktəbəqədər hazırlıq qruplarında təhsil alan uşaqlar üçün məktəb və müəllim avtomatik seçilib

Paytaxtın ümumi təhsil məktəblərində 2018-2019-cu tədris ili üçün I sinfə şagird qəbulunun ilk mərhələsi iyunun 14-ü yekunlaşır.

Yeni dərs ili üçün I mərhələdə (22 fevral-14 iyun) onlayn qeydiyyatdan keçmiş valideynlər iyunun 20-dək övladının sənədlərini məktəbə təqdim etməlidirlər. I sinfə qəbul prosesində 14 iyun tarixinədək elektron qeydiyyata alınan ərizələr üzrə sənədlər iyunun 20-nə kimi məktəbə təqdim olunmadığı halda, həmin sorğu sistemdən silinəcək.

Elektron sənəd qəbulunun II mərhələsinə iyunun 15-dən start veriləcək. İkinci mərhələdə valideynlər müvafiq qaydalara uyğun olaraq, *mektebeqebul.edu.az* elektron sistemi vasitəsilə I sinfə qəbul üzrə sorğu yerləşdirə bilərlər. İkinci mərhələdə sənədlərin məktəbə təqdim olunma müddəti 20 iyun 2018-ci ildən 18 sentyabr 2018-ci ilə (iyul ayı istisna olmaqla) qədər davam edir.

Məktəb tərəfindən sənədlər hər həftənin V-VI günləri (bayram günləri istisna olmaqla) saat 11:00-dan 16:00-dək qəbul edilir. Sənədlər qəbul edildikdən sonra valideynə (qanuni nümayəndəyə) bu barədə qəbz verilir.

I sinfə şagird qəbulu üçün valideynin və uşağın şəxsiyyətini təsdiq edən sənədin əsli və surəti (uşağın şəxsiyyət vəsiqəsi olmadığı halda doğum haqqında şəhadətnaməsi, Azərbaycan Respublikasının ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün icazə vəsiqəsi (olduğu təqdirdə), Birləşmiş Millətlər Təşkilatının Qaçqınların İşləri üzrə Ali Komissarlığının Himayə sənədi, xarici ölkələrdə verilmiş doğum haqqında şəhadətnamə (Azərbaycan dilinə tərcümə olunmuş və notarial qaydada təsdiq edilmiş)), uşağın sağlamlığı haqqında tibbi arayış (forma 26U), 2 (iki) ədəd 3x4 ölçüdə rəngli fotoşəkil, valideynin (qanuni nümayəndənin) “Şəxsi kabinet”indən çap olunmuş “Ərizə”si valideyn (qanuni nümayəndə) tərəfindən məktəbə təqdim edilməlidir.

Ümumilikdə, 2018-2019-cu tədris ili üçün bu günədək I sinfə qəbul üzrə 42325 uşaq elektron qeydiyyatdan keçib. Bu isə paytaxt üzrə I sinfə şagird qəbulu proqnozunun 85 faizinə yaxın göstəricidir.

Bu il ilk dəfə olaraq, məktəbəhazırlıq qrupunda təhsil alan uşaqlar üçün sistem tərəfindən təhsil aldığı məktəb və müəllim avtomatik seçilib. Belə ki, məktəbəhazırlıq qruplarındakı 24000-dən çox uşaq avtomatik I sinfə qəbul üzrə qeydə alınıb.

# Liseylərin V sinfinə qəbul üzrə elektron qeydiyyat başlanılıb

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki liseylərə V sinfə şagirdlərin qəbulu üçün elektron qeydiyyat başlanılıb.

Texniki-Humanitar Lisey, 2 nömrəli Texniki-Humanitar Lisey, 147 nömrəli Texniki-Humanitar Lisey və 291 nömrəli Ekologiya Liseyinə V sinfə şagird qəbulu valideynin (qanuni nümayəndənin) elektron ərizəsinin mektebeqebul.edu.az saytında qeydiyyatı yolu ilə həyata keçirilir. Elektron sənəd qəbulu iyunun 20-nə qədər davam edəcək.

12 iyun tarixinə (09:30) olan məlumata əsasən, elektron sistem (mektebeqebul-.edu.az) vasitəsilə liseylərin V sinfinə qəbul üçün 1 130 sorğu yerləşdirilib. Onlardan 771-i Texniki-Humanitar Liseyə, 91-i 2 nömrəli Texniki-Humanitar Liseyə, 110-u 147 nömrəli Texniki-Humanitar Liseyə, 158-i isə 291 nömrəli Ekologiya Liseyinə qəbul üçün elektron qeydiyyatdan keçib.

Liseylərə qəbul müsabiqə yolu ilə həyata keçiriləcək. Belə ki, müsabiqədə şagirdlər ana dili, riyaziyyat və məntiqə aid test tapşırıqlarını yerinə yetirəcəklər.

İmtahanın tarixi barədə əlavə məlumat veriləcək.

Qeyd edək ki, V sinfə elektron sənəd qəbulu “Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 23 may 2011-ci il tarixli Fərmanının tələblərinin həyata keçirilməsini təmin etmək üçün təhsil sahəsində əhaliyə göstərilən elektron xidmətlərin dairəsinin genişləndirilməsi, şagird kontingentinin uçot sisteminin təkmilləşdirilməsi, valideynlərin əlavə vaxt itkisinin qarşısının alınması, valideyn məmnunluğunun təmin edilməsi məqsədilə tətbiq edilir.

# Növbəti qalib komanda bəlli olub

Paytaxt məktəblilərindən ibarət komandalar “Hazırcavablar” intellektual oyununda qarşılaşıb.

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyindəki 157, 240, 323 nömrəli tam orta məktəb və 261 nömrəli məktəb-liseyin şagirdləri “Dil və ədəbiyyat”, “Kimya”, “Məntiq”, “Musiqi” və “Qara qızıl” bölmələri üzrə sualları cavablandırıb.

İntellektual oyunun nəticələrinə əsasən, 261 nömrəli məktəb-liseyin komandası qalib gəlib.

“Hazırcavablar” intellektual teleoyununun əsas məqsədi məktəblilərin bilik səviyyəsini və dünyagörüşünü artırmaq, onları ictimaiyyətə tanıtmaq, həmçinin, şagirdlərin asudə vaxtını səmərəli təşkil etməkdən ibarətdir. Şagirdlərə özünüifadə vərdişləri aşılamaq, onların fənlərə marağını yüksəltmək, yaradıcı inkişafına təkan vermək və intellektual fəaliyyətə daha geniş miqyasda cəlb olunmasını təmin etmək də layihənin əsas hədəflərindəndir.

Qeyd edək ki, “Hazırcavablar” intellektual teleoyunu BŞTİ və AzTV-nin birgə layihəsidir. İntellektual oyun həftədə bir dəfə olmaqla, AzTV-də yayımlanır.

# II yarımil üzrə qiymətləndirmə başa çatıb

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil müəssisələrində 2017-2018-ci tədris ilinin II yarımili üzrə böyük summativ qiymətləndirmə yekunlaşıb.

Böyük summativ qiymətləndirmə müvafiq məzmun və dəyərləndirmə standartları əsasında hazırlanmış vasitələrlə şagirdlərin nailiyyətlərini üzə çıxarmaq, bilik və bacarıqlarını yoxlamaq məqsədlərinə xidmət edir.

Qiymətləndirmə vasitələri ümumi təhsil müəssisəsi rəhbərliyinin təşkil etdiyi komissiya tərəfindən hazırlanıb.

Böyük summativ qiymətləndirmə müvafiq komissiyanın nəzarəti ilə fənni tədris edən müəllimlər tərəfindən aparılıb.

Qeyd edək ki, böyük summativ qiymətləndirmənin nəticələri şagirdin illik qiymətlərinin hesablanması zamanı nəzərə alınır.

## 5-ci sinif şagirdləri üçün müsabiqə

Təhsil Nazirliyinin "Rəqəmsal bacarıqlar" pilot layihəsi çərçivəsində skreç mühitində yaradılmış layihələr - yaradıcılıq müsabiqəsi keçirilib.

Müsabiqə 5-ci sinif şagirdlərinin skreç proqramlaşdırma mühitində yaradıcı özünüreallaşdırmasını təşviq etmək, iştirakçıların bilik səviyyəsini qiymətləndirmək, uşaqlar arasında populyarlıq qazanmış mövzu və qəhrəmanları müəyyənləşdirmək məqsədi ilə təşkil edilib.

Müsabiqə çərçivəsində 5-ci sinif şagirdləri tərəfindən yaradılmış layihələrin qiymətləndirmə meyarları ekspert komissiyası tərəfindən müəyyənləşdirilib. Müsabiqədə Bakı şəhəri üzrə layihənin həyata keçirildiyi 45 məktəbin 5-ci sinif şagirdləri iştirak edib. 250-dən çox şagird 300-dən çox layihə təqdim edib. Müəyyən olunmuş 4 nominasiyada 14 layihə seçilərək mükafatlandırılıb.

Qaliblər və onların məşqçiləri qismində iştirak edən müəllimlər müxtəlif mükafatlar və fəxri fərmanlar, bütün şagirdlər isə "İştirakçı sertifikatı" ilə təltif edilib.

Laureat-layihələr "Rəqəmsal bacarıqlar" pilot layihəsinin onlayn platformasında sərbəst nümayiş üçün yerləşdirilib.

Qeyd edək ki, müsabiqəyə alqoritmika platformasında skreç mühitində icra edilmiş orijinal və tamamlanmış layihələr qəbul edilib. Müsabiqənin hər mərhələsi bir həftə davam etməklə, 2 mərhələdə keçirilib. Birinci mərhələ üçün şagirdlər 4 nominasiyada - cizgi filmi və ya interaktiv kitab, oyun, faydalı proqram təminatı və tədris resursu üzrə layihələr hazırlayıblar. İkinci mərhələdə müsabiqədə iştirak hüququ qazanmış layihələr "Alqoritmika Azərbaycan" MMC-nin metodistlərindən və proqramçılarından ibarət ekspert komissiyası tərəfindən qiymətləndirilib.

İştirakçılar müsabiqə üçün nəzərdə tutulmuş tapşırığı fərdi və ya komanda şəklində hazırlayıblar.

## Çin dilini öyrən - yeni dünyanı kəşf et

### Müsabiqə qalibləri Çində təhsil alacaqlar

Azərbaycan Dillər Universitetinin (ADU) nəzdində fəaliyyət göstərən Konfutsi İnstitutunda Çin dili üzrə "Çin dili körpüsü" adlı XI beynəlxalq müsabiqənin Azərbaycan üzrə seçim turu keçirilib. Müsabiqə "Çin dilini öyrən - yeni dünyanı kəşf et" devizi altında məktəblilər arasında baş tutub. Seçim turu Çinin Azərbaycandakı səfirliyinin dəstəyi ilə bu ölkənin Çin dilinin təbliği üzrə Dövlət Dəftərxanası - Konfutsi İnstitutlarının qərargahı və Konfutsi İnstitutu tərəfindən təşkil olunub. Müsabiqədə müxtəlif orta məktəblərin və gimnaziyaların şagirdləri, eləcə də Konfutsi İnstitutundakı Çin dili kurslarının dinləyiciləri iştirak ediblər. Tədbirdə Çinin Azərbaycandakı səfirliyinin Çin Konsulluğu Şöbəsinin müdiri cənab Sun Fuzhong bildirib ki, müsabiqənin məqsədi Azərbaycan məktəblilərinin Çin dili və mədəniyyətinə dair biliklərini nümayiş etdirməkdir. O, müsabiqə iştirakçılarına Çin dilinin öyrənilməsində uğurlar, bu "dil körpüsü" vasitəsi ilə Azərbaycan və Çin arasında əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində töhfələr verməyi arzu edib.

Azərbaycan Dillər Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru Jalə Qəribova təhsil sahəsində Azərbaycan-Çin əməkdaşlığının genişləndirilməsinin vacibliyini vurğulayaraq, müsabiqə iştirakçılarına Çin dilinin öyrənilməsində müvəffəqiyyətlər arzu edib.

Konfutsi İnstitutunun direktoru, professor Rafiq Abbasov ölkəmizdə Çin dilinin tədrisinin perspektivlərindən, Çinin müxtəlif universitetlərində təhsil alan azərbaycanlı, eləcə də respublikamızda fəaliyyət göstərən ali təhsil ocaqlarında təhsil alan çinli tələbələrin sayının artmasından, hər iki ölkənin hökumətləri tərəfindən qarşılıqlı təqaüdlərin verilməsindən danışıb. O, Prezident İlham Əliyevin Çinə səfəri çərçivəsində imzalanan "Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Çin Xalq Respublikasının Təhsil Nazirliyi arasında 2016-2019-cu illərdə təhsil sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun və ölkələrimiz arasında təhsil sahəsində əməkdaşlığın inkişafının əhəmiyyətini vurğulayıb.

Azərbaycan Respublikası üzrə seçim turu bir neçə mərhələdə keçirilib. İştirakçılar verilmiş mövzu üzrə Çin dilində çıxış edib, Çin mədəniyyəti haqqında sualları cavablandırıb və bədii nömrələr nümayiş etdiriblər. Sonda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dizayner tələbələri tərəfindən hazırlanan "Çin - güllərin səltənəti" moda sərgisində Çin üslubunda qadın geyim nümunələri nümayiş olunub. Məktəblilərin çıxışları ADU və Konfutsi İnstitutunun professorları və müəllimlərinin, Azərbaycandakı Çin səfirliyinin nümayəndələrinin də daxil olduğu münsiflər heyəti tərəfindən qiymətləndirilib. Müsabiqənin nəticələrinə görə, qaliblər Çin dili üzrə beynəlxalq müsabiqənin finalında iştirak edəcək və növbəti mərhələlərdə Çində təhsil alacaqlar.

# "Alqışlardan hiss edirdim ki, birinci yeri tutacağam"

### *Sevda Cəbrayılova:* "Mənə olan ümidləri doğruldacağıma söz verdim"

**Sifai SƏFƏROVA**



Sevda Cəbrayılova ilə Respublika İncəsənət Gimnaziyasında direktorun kabinetində görüşüb həmsöhbət olduq. Öyrəndim ki, o, Özbəkistanda keçirilən beynəlxalq "İstedad" müsabiqəsindən yenicə qayıdıb və rəngarəng çıxışları ilə bu mötəbər yarışmada I yerə layiq görülüb. Direktor Aytən Əhmədova da arabir söhbətimizə müdaxilə edir, bu istedadlı yetirməsinə vurğunluğunu gizlədə bilmirdi. Şübhəsiz, möhtəşəm qələbəsi münasibətilə mən də Sevdanı ürəkdən təbrik etdim və ona bolbol yaradıcılıq uğurları arzulayaraq oxucularımıza özü haqqında ətraflı məlumat verməsini xahiş etdim. İlk baxışda utancaq yeniyetmə təəssüratı yaradan həmsöhbətimi diqqətlə dinləyərkən təhsil aldığı gimnaziyanın fəxri adlandırmamaq mənim üçün də mümkünsüzdü.

**II yerə layiq görüldüm**

2003-cü ildə Bakıda anadan olmuşam. 3-cü sinifdə oxuyanda Qaradağ rayonundakı 28 nömrəli musiqi məktəbində kanon aləti üzrə Bahar Əsgərovanın sinfində təhsil almışam. Təhsil aldığım müddətdə də müsabiqələrdə iştirak edirdim, amma bir dəfə də olsun qalib ola bilmirdim. Nəhayət ki, 2016-cı ildə ilk dəfə olaraq tarzən Ramiz Quliyevin iştirak etdiyi respublika müsabiqəsinə qatıldım və II yerə layiq görüldüm.

**İfalarım alqışlarla qarşılandı**

Dünya və Azərbaycan bəstəkarlarının əsərlərini sevə-sevə ifa edirəm. 2017-ci ildə dahi bəstəkar Bülbülün 120 illiyinə həsr olunmuş respublika müsabiqəsində III yerə layiq görüldüm. Görkəmli rus bəstəkarı P.İ. Çaykovskinin "Güllər" valsını, Nazim Əliverdibəyovun "Elegiya" əsərini ifa etdim. Həmin gün sevincimin hədd-hüdudu olmadı. Çünki ifalarım alqışlarla qarşılandı.

**İlk dəfə idi ki, beynəlxalq müsabiqəyə qatılırdım**

2018-ci ilin aprel ayı mənim üçün çox uğurlu oldu. Eşidəndə ki, Özbəkistanda keçirilən "İstedad" beynəlxalq müsabiqəsində iştirak edəcəyəm, çox sevindim. Bəs necə! İlk dəfə beynəlxalq müsabiqəyə qatılacaq, başqa şəhərə səfər edəcəkdim. Bu cür etimaddan sonra mən də öz-özümə, hökmən qalib olmalıyam, - deyə düşündüm. Mənə olan ümidləri doğruldacağıma heç kimə yox, özümə söz verdim və daha ciddi məşqlərə başladım. Gecəni gündüzə qatmışdım, məşq etməkdən yorulmurdum, sanki qeybdən mənə enerji verilirdi. - Hökmən birinci olmalıyam,- düşünürdüm. Vaxt yetişdi və hava limanına yollandıq. Çox kövrəlmişdim. Anamla baxışlarımız toqquşdu. Axı, heç vaxt valideynlərimdən ayrı qalmamışdım. Ürəyimdə öz-özümə suallar verirdim ki, görəsən necə olacaq?! Müəllimlərimin ümidlərini doğrulda biləcəyəmmi?! Dilim-ağzım qurumuşdu. Axır ki, özümü zorla da olsa ələ ala bildim və təyyarəyə mindik. Amma təyyarədən düşəndə həyəcan məni tam tərk etmişdi. Müsabiqənin təşkilatçıları bizi qarşıladılar. Fortepiano müəllimim Svetlana Əhmədova da bizimlə idi. Qürurlanırdım ki, 14 ölkədən 543 nəfərin qatıldığı beynəlxalq müsabiqənin iştirakçıları arasında mənim də adım var. 28 nəfərdən ibarət münsiflər heyətinin tərkibində xalq artisti Ağasəlim Abdullayev də vardı. Adımı eşidəndə səhnəyə çıxdım. Həyəcandan əllərim əsirdi, ancaq nə yaxşı ki, özümü ələ ala bildim. Azərbaycan bəstəkarları Süleyman Ələsgərovun "Şoloxo", Aqşin Əlizadənin "Cəngi", Nazim Əliverdibəyovun "Elegiya" əsərlərini ifa etdim. Hamı ayağa qalxıb məni alqışlayırdı. II mərhələyə keçdim. II mərhələdə muğamlarımızdan "Bayatı şiraz" muğamını, bir də "Güljamol" özbək mahnısını ifa etdim. İfalarım münsiflərin çox xoşuna gəlmişdi. Alqışlardan hiss edirdim ki, I yeri tutacağam. Hamı ətrafıma yığışdı. İfa etdiyim mahnıları qalib iştirakçılar bəyənmişdi. Mahnıların notlarını istədilər, mən də onlara hədiyyə etdim. Çox yorğun idim. Müəllimim Svetlana Əhmədova deyəndə ki, I yeri qazandın, sevincimdən uçurdum.

**Səhnəyə çıxanda hər şeyi unut...**

Yorğunluğum keçmişdi. İlk olaraq gimnaziyamızın direktoru Aytən Əhmədovaya telefon açdım, çünki Aytən xanım həmişə ifalarımı dəyərləndirib. Özbəkistana getməzdən öncə məni otağına çağırıb dedi ki, ürəkli ol, sən birinci olacaqsan. Çox çalışmalısan, lap çox, səhnəyə çıxanda hər şeyi unut, fikrin ancaq ifa etdiyin mahnıda olsun... Sonra isə valideynlərimə zəng etdim, anam kövrəlmişdi... Qeyd edim ki, beynəlxalq müsabiqədə Milli Konservatoriyanın II kurs tələbəsi Ayşə Bünnətzadə diplomla, gimnaziyanın VI sinif şagirdi Əli Xuduzadə, paytaxtdakı G. Şaroyev adına 35 nömrəli onbirillik musiqi məktəbinin şagirdi Fərid Məmmədli isə III yerləri qazandılar.

**Dostlarım da Azərbaycan muğamlarını həvəslə dinləyirdilər**

7 gün orada qaldıq. Bizi Səmərqənd şəhərinə ekskursiyaya apardılar. Orada bələdçilər bizə şəhərdə olan tarixi abidələr haqqında ətraflı məlumat verdilər. Səmərqənd Özbəkistanın cənubunda yerləşir. Nağılları xatırladan bir şəhərdir.

Şəhərdə olan bir sıra məqbərələr, məscidlər, mədrəsələr və sair tarixi yerlər çox xoşuma gəldi. Bu tarixi yerlər turistlərin diqqətini daha çox cəlb edir. Hər axşam Azərbaycan muğamlarını ifa edirdim. Dostlarım da məni həvəslə dinləyirdilər. Yeri gəlmişkən deyim ki, orada özümə çoxlu dostlar da qazandım. Bu gün də əlaqələrimiz davam edir, sosial şəbəkələr vasitəsilə hər gün həmsöhbət oluruq.

**Qəbələ festivalına hazırlaşırıq**

Qeyd edim ki, bacım Sevinc və qardaşım Cəbrayıl da musiqiçidirlər. Biri kamança, birisə də qarmon ixtisası üzrə təhsil alıb. Boş vaxtlarımızda biz bir yerdə mahnılar ifa edirik. Natəvan və Sveta müəllimlərimi çox sevirəm. Mənim uğurlarımda onların əməyi böyükdür. Hazırda Heydər Əliyev Fondunun təşkil etdiyi Qəbələ festivalına hazırlaşırıq. Müəllimim Natəvan Həsənova ilə bəstəkar Zakir Bağırovun "Rapsodiya" əsərini ifa edəcəyik.

Arzum Milli Konservatoriyaya qəbul olmaqdır. Bu arzunu gerçəkləşdirmək üçünsə hələ çox çalışmalıyam.

## Bakı Avropa Liseyinin şagirdləri beynəlxalq yarışda

### Onlar qlobal problemlərin elmi-texniki həllinə töhfələrini verirlər




Bakı Avropa Liseyinin şagirdləri Estoniyada keçirilən Açıq Beynəlxalq turnirdə iştirak ediblər.

"FIRST LEGO League (FLL) Azərbaycan" mühəndislik və robototexnika yarışının çempionu olan Bakı Avropa Liseyinin "Robo Sapiens" komandasınınü üzvləri Murad Quliyev, Əkbər Ocaqverdiyev, Emil Hacıyev və Ərtoğrul Həsənli bu mötəbər yarışda ölkəmizi təmsil edib.

Qeyd edək ki, mayın 12-də "ADA" Universitetində məktəblilər arasında "FIRST LEGO League (FLL) Azərbaycan" mühəndislik və robototexnika yarışı keçirilib. Yarışda hər birində dörd məktəbli olmaqla 12 komanda dörd kateqoriya - əsas dəyərlər, layihə təqdimatı, robot dizaynı və robot yarışı üzrə gücünü sınayıb. Şagirdlər ərsəyə gətirdikləri layihələri 3 turda onlara ayrılmış 2.5 dəqiqə ərzində münsiflər heyəti qarşısında nümayiş etdiriblər. Məktəblilər əyləncəli bir mühitdə elmi və texnoloji xarakterli problemləri qaldırıb və onların həlli yollarını araşdırmağa cəhd ediblər.

Qaliblərə medal və sertifikatlar, müxtəlif kateqoriyalar üzrə qalib komandalara isə kuboklar təqdim olunub.

Danimarkanın "LEGO" qrupu və ABŞ-ın "FIRST" (For Inspiration and Recognition of Science and Technology) təşkilatının ortaq layihəsi olan FLL yarışı 1999-cu ildən bəri hər il təşkil edilir. FLL yarışına dünyanın 80-dən artıq ölkəsindən 250 mindən çox məktəbli cəlb edilir. Yarışın keçirilməsinin məqsədi şagirdlərin elm və texnologiyalara marağını artırmaq, onları hazırkı qlobal problemlərin elmi-texniki həllinə töhfə verməyə həvəsləndirməkdir.

Ölkəmizin bir sıra dövlət və özəl ümumtəhsil məktəb şagirdlərinin iştirak etdiyi yarış Təhsil Nazirliyi, "ADA" Universiteti, "Mars Academy" MMC və Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin birgə təşkilatçılığı və "PAŞA Bank","Enginet" şirkəti, "Təhsildə İnnovativ Texnologiyalar" Əlavə Təhsil Mərkəzinin dəstəyi ilə keçirilib.

# Ədəbiyyat biliciləri

Şakir CƏFƏROV

2017-2018-ci dərs ilində ölkənin ümumtəhsil məktəblərinin VIII-XI sinif şagirdlərinin iştirakı ilə "Ədəbiyyat biliciləri" Respublika müsabiqəsi keçirilib. Təhsil naziri Ceyhun Bayramovun müvafiq əmrinə əsasən müsabiqəyə qatılmış şagirdlərdən 5 nəfər I, 10 nəfər II, 15 nəfər III dərəcəli diplomlarla, 20 nəfər isə Tərifnamə ilə təltif olunub.

Oxucularımıza müsabiqədə I dərəcəli diplomla təltif olunanları təqdim edirik.



## Müəllimlərimə minnətdaram



Aybəniz İSMAYILOVA

- Mən, Aybəniz İsmayılova 2000-ci ildə Bakı şəhərində anadan olmuşam. Birinci sinfi Bakıda oxusam da 2014-cü ildən təhsilimi Ağstafa rayon Köçəsgər kənd 1 nömrəli tam orta məktəbdə davam etdirmişəm. Orta məktəbdə oxuyanda ilk gündən məndə humanitar fənlərə marağı müəllimlərim yaradıb. Ona görə də 2016-cı ildə "Ədəbiyyat biliciləri" Respublika müsabiqəsində III, 2017-ci ildə II yeri tutmuşam.

Builki müsabiqədə iştirakım isə daimi yadda qalandır. Çünki çox həyəcanlı idim, məqsədim I yer tutmaq idi. Biliyimizi üzə çıxartmaq üçün yaradılan şərait, göstərilən diqqət həyəcanımı arxada qoydu.

Nəticədə 2018-ci ildə "Ədəbiyyat biliciləri" Respublika müsabiqəsində I yeri tutduğuma görə Təhsil Nazirliyinin I dərəcəli diplomuna layiq görülmüşəm. Qazandığım uğurlara görə mənə dərs deyən müəllimlərimə minnətdaram.

Onu da deyim ki, builki qəbul imtahanlarının birinci mərhələsində isə 627 bal toplamışam.

Arzum ingilis dilində təhsil alıb, savadlı bir hüquqşünas olmaqdır. Bunun üçün səylə çalışıram.

## Vaxtımın çoxu kitabxanada keçir



Lamiyə HÜSEYNOVA

- Mən, Lamiyə Hüseynova 2002-ci ildə Şabran şəhərində anadan olmuşam. Rayonun Xırdaoymaq, Təzəkənd kənd məktəblərində 9-cu sinfə kimi oxumuşam.

Hələ bu məktəblərdə oxuyanda ədəbiyyat müəllimim Nəzakət xanım ixtisas seçimimdə mənə yardımçı olub. 2017-ci ildə ümumi orta təhsili bitirdikdən sonra Şabran şəhər T.Abbasov adına 1 nömrəli tam orta məktəbin X sinfində təhsilimi davam etdirmişəm. Bu məktəbdə ədəbiyyat fənnindən mənə Bəşarət Həmidov dərs deyib. Burada da oxuyanda ələvə ədəbiyyat məşğələlərində fəal iştirak etmişəm. Zəhmətim hədər getməyib. 2017-2018-ci dərs ilində ölkənin ümumtəhsil məktəblərinin VIII-XI sinif şagirdlərinin iştirakı ilə keçirilmiş "Ədəbiyyat biliciləri" müsabiqəsində Təhsil Nazirliyinin I dərəcəli diplomuna layiq görülmüşəm. Qazandığım uğurlara görə müəllimlərimə minnətdaram.

Gələcəkdə arzum Azərbaycan Diplomatik Akademiyasına qəbul olub, hüquqşünas olmaqdır. Bunun üçün müəllimlərimin tapşırıqlarını vaxtında, keyfiyyətlə yerinə yetirirəm.

Vaxtımın çoxu kitabxanada keçir.

## Bədii ədəbiyyata marağım böyükdür



Bənövşə MƏMMƏDOVA

- Mən, Bənövşə Məmmədova 2002-ci ildə Bakı şəhərində anadan olmuşam. Oxuduğum Humanitar fənlər təmayüllü məktəb-liseyi doğma evim hesab edirəm. Liseyin bütün ictimai işlərində yaxından iştirak etməklə bərabər, dərslərimi yaxşı oxuyuram. Fənlər arasında fərq qoymuram. Çalışıram ki, bütün fənlərdən dərin bilik əldə edim. Bədii ədəbiyyata isə marağım böyüdür. Keçən il məktəbimizdə ən çox kitab oxuyan şagirdlər arasında 2-ci yeri tutmuşam. Rayon və respublika olimpiadalarının fəal iştirakçısı olmuşam.

2017-2018-ci dərs ilində ölkənin ümumtəhsil məktəblərinin VIII-XI sinif şagirdlərinin iştirakı ilə keçirilən "Ədəbiyyat biliciləri" müsabiqəsinə bu il mən də qatıldım. Həmin gün ədəbiyyatdan təqdim edilmiş sualları nə qədər düzgün cavablandırsam da, daxilimdə bir narahatçılığım var idi. Fikirləşirdim ki, məktəb rəhbərliyinin, valideynlərimin ümidini mütləq doğrultmalıyam...

Adi günlərdən biri idi, otaqda oturmuşdum. Anam məni bərk-bərk qucaqlayıb təbrik etdi və dedi: "Qızım, "Ədəbiyyat biliciləri" müsabiqəsində Təhsil Nazirliyinin I dərəcəli diplomuna layiq görülmüsən. Məktəbin direktoru bu gün evimizə zəng etmişdi".

Çox sevindim, sevincimi sinif yoldaşlarımla, yaxınlarımla bölüşdüm. Məni hamı təbrik etdi. Həmin gün çoxları ədəbiyyatı çox sevdiyimdən elə bilirdilər ki, mən ədəbiyyat müəllimi olacağam.

Amma ölkəmizə layiqli neftçi olmaq arzusundayam. Gələcəkdə Bakı Ali Neft Məktəbinin Neft-kimya mühəndisliyi fakültəsində oxumaq istəyirəm.

## Yüksək bal toplamağı hədəf seçmişəm



Arzu ƏLİYEVA

- Mən, Arzu Əliyeva 2001-ci ildə Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində anadan olmuşam. 2006-cı ildən Masallı rayonunun Ərkivan qəsəbəsində yaşayıram. 2007-ci ildə Cəfər Cabbarlı adına Ərkivan qəsəbə 1 nömrəli tam orta məktəbin 1-ci sinfinə daxil olmuşam. Bu məktəbdə təhsil aldığım dövrdə bir sıra nailiyyətlərim olub. Müsabiqələrdə, bilik yarışlarında iştirak etmiş və müxtəlif dərəcəli yerlərə sahib olmuşam.

2009-cı ildə Rusiya-Azərbaycan dostluq və mədəniyyət mərkəzində rus klassiki A.S.Puşkinin anadan olmasının 210 illiyinə həsr olunmuş tədbirdə iştirak edən Masallı şagirdlərindən biri olmuşam.

2013-cü ildə Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) təşəbbüsü və Təhsil Nazirliyi ilə əməkdaşlıqda həyata keçirilmiş "Uşaq hüquqları üzrə Pilləli Tədris" kursunu müvəffəqiyyətlə bitirmişəm.

2017-ci ildə 10-cu sinif şagirdi olarkən "Ədəbiyyat biliciləri" müsabiqəsində iştirak etmişəm. Bu müsabiqədə üçüncü dərəcəli diplomla təltif olunmuşam.

11-ci sinifdə təhsil alarkən rayonda tam orta və ümumi orta məktəb şagirdləri arasında "inşa" yazı müsabiqəsində 1-ci yerə layiq görülmüşəm.

2018-ci ildə isə yenidən respublikamızda artıq 3-cü dəfə keçirilən "Ədəbiyyat biliciləri" müsabiqəsinə qatıldım və respublika birincisi oldum. Həmçinin bu il III qrup üzrə qəbul imtahanında 568 bal topladım. Növbəti qəbul imtahanında 600 bal səddini keçməyi özümə hədəf seçmişəm.

## Məqsədim müəllim işləməkdir



Günel PAŞAYEVA

- Mən, Günel Paşayeva 2001-ci ildə Quba rayonunun Şuduq kəndində anadan olmuşam. 2006-cı ildə U.Mikayılov adına Şuduq kənd tam orta məktəbinin hazırlıq sinfinə qəbul olunmuşam. Bu gün həmin məktəbin məzunuyam. Orta məktəb dövründə bir çox müsabiqələrdə iştirak etmişəm. VII və VIII siniflərdə oxuduğum müddətlərdə rayonda keçirilmiş şeir müsabiqələrində və digər rayon tədbirlərində fəal iştirak edib məktəbimizə yaxşı nəticələrlə qayıtmışam. 4 fevral 2018-ci il tarixdə keçirilmiş Respublika fənn olimpiadalarının I turunda iştirak etmiş və rayon üzrə yüksək nəticə göstərərək 95 bal nəticə ilə II tura çıxmışam. Müsabiqənin II mərhələsində 100 bal toplayaraq Respublika turuna vəsiqə qazanmışam.

11 fevral 2018-ci il tarixdə Quba rayonunda keçirilmiş "Ədəbiyyat biliciləri" müsabiqəsində iştirak edərək final mərhələsinə yüksəlmişəm. Final mərhələsində yüksək nəticə göstərərək Təhsil Nazirliyi tərəfindən I dərəcəli diplomla təltif olunmuşam.

Bu il qəbul imtahanlarının I mərhələsində II ixtisas qrupu üzrə imtahan verib, repetitorun köməyi olmadan 482 bal toplamışam. Qəbul imtahanının II mərhələsində isə hədəfim 600 baldan yüksək nəticə göstərməkdir. Arzum ali məktəblərin birində tarix-coğrafiya ixtisası üzrə təhsilimi davam etdirməkdir. Bu işdə mənə dəyərli müəllimlərim yaxından kömək edir. Ən böyük məqsədim isə ali məktəbi qurtardıqdan sonra universitetdə müəllim işləməkdir.

## Kaş ki şagird olaydım



Almaz NOVRUZQIZI,
*Bakı şəhəri 51 nömrəli tam orta məktəbin riyaziyyat müəllimi*

*(Bu şeiri "Son zəng" günü məktəbi bitirən bütün şagirdlərimə ithaf edirəm)*

Biri vardı, biri yox, adi günlərdən biri,
Bir müəllim var idi, bir də onun şagirdi.
Lövhənin qarşısında müəllim ötür dil-dil,
O bütün şagirdləri ovsunlamış elə bil.
Baxışından, nitqindən alov saçır, nur saçır,
Bilik xəzinəsinin - elmin sirrini açır.
Onun bəyaz saçında uca dağın qarı var,
İti baxışlarında bir qartal vüqarı var.
Hər sözündə bir məna, hər sözündə bir hikmət,
Ürəyində bəslərdi o hər kəsə məhəbbət.
Baxır, həsrətlə baxır şagird müəlliminə,
Təbaşirə bulaşmış o bəyaz əllərinə.
Düşünür ki, kaş bu an bir möcüzə olaydı,
Bu sinif otağında mən müəllim olaydım.
Elə bu an, bu zaman şirin xəyallarından,
Onu bir səs ayırdı - çox mülayim, mehriban.
Baxışlarından sanki nur, nəvaziş yağırdı,
Lövhənin qarşısına o şagirdi çağırdı.
Müəllim təbaşiri ötürdü şagirdinə,
İndi növbə sənindir, söylə görüm sən mənə...
Şagird tutuldu bir an, fikrə getdi bir zaman,
Sonra... öyrəndiyini söylədi aram-aram...
Danışdıqca səsində çayların zümzüməsi,
Tər çiçəklər ətridir onun körpə nəfəsi.
O qumral saçlarında Xəzərim dalğa-dalğa,
O ürkək baxışında bir həyəcan, qasırğa.
***
Baxır, həsrətlə baxır müəllim şagirdinə,
Təbaşirə bulaşmış o bəyaz əllərinə.
Arzular ümmanında dərin xəyala dalır,
Uşaqlıq illərini bir an yadına salır.
Düşünür ki, kaş bu an bir möcüzə olaydı,
Zaman geri dönəydi, mən də şagird olaydım...
Elə bu an, bu zaman onu bir səs ayırdı
Şirin xəyallarından - dərs bitdi, zəng çalındı.
Bu kiçik bir hekayə yaman kövrəltdi məni,
Sanki birdən gördüm saçlarımdakı dəni.
Demirəm bu həyatda yenidən doğulaydım,
Deyirəm ildə bir gün kaş ki şagird olaydım,
Kaş ki şagird olaydım.

## Bayrağıma qurban olum



Zəhra ƏLİYEVA,
*Bakı şəhəri 276 nömrəli tam orta məktəbin 5-ci sinif şagirdi*

Göy rəngi - göylərin ənginliyidir,
Qırmızı - tarixin zənginliyidir.
Yaşılı - sabahın ümid rəngidir,
Bayrağıma qurban olum!

Ər yurdudur, ər kəndidir,
Şuşa, Laçın, Xankəndidir.
Qürur yeri, and yeridir,
Bayrağıma qurban olum!

O, gücümdür, qüvvətimdir,
İstiqlalım, qüdrətimdir.
Allaha əmanətimdir,
Bayrağıma qurban olum!

Cəngi kimi havalansın,
Başım üstə dalğalansın.
100 yaşına 100 calansın,
Bayrağıma qurban olum!

## Vətənçün yaşamaq istəyirəm mən

Mənim dualarım Vətən doludur,
"Vətən"lə başlayır arzularım da.
Elə yaşayım ki, ömür sürüm ki,
Vətənim göyərsin arzularımda.

Adını ucaldıb əməllərimlə,
Zirvəyə daşımaq istəyirəm mən.
Vətənçün ölmək də gözəldir, amma
Vətənçün yaşamaq istəyirəm mən!

## Kitablar

Bütün sualların cavabı onda,
Bütün axtardığım onda tapılar.
Nəyəsə tərəddüd eyləsəm əgər,
Köməyə gələnim kitablar olar.

Günəş tutulmasın, Ay tutulmasın,
Ulduzu, səmanı öyrədər mənə.
Küləyin, yağışın sirrini açar,
Yetər ki, toxunum vərəqlərinə.

Mənim bilmədiyim nə qədər
şey var, -
Onların hamısın kitablar bilər.
O, geniş dünyanı, sirli dünyanı
Balaca masamda önümə sərər.

Çoxlu oyuncağım olmasa belə,
Nə yaxşı çoxluca kitab varımdır!
Qoy başqa dostların inciməsinlər,
Ən gözəl dostlarım - kitablarımdır!

## 2030-cu ilədək dünyanı dəyişdirəcək texnologiya

Yusif ƏLİYEV



Beşinci nəsil şəbəkəsinin kommersiya istismarı 2020-ci ilə planlaşdırılıb. Lakin Finlandiyanın Oulu Universiteti artıq 6G texnologiyası üzərində işlərə başlayıb. Universitet rəhbərliyi altıncı nəsil şəbəkəsindən istifadə perspektivlərinin öyrənilməsi üçün nəzərdə tutulmuş "6Genesis" tədqiqat proqramının maliyyələşdirilməsini elan edib.

**www.4pda.ru** saytının məlumatına görə, tədqiqata rəhbərlik edən Matti Latva-axo bildirib ki, hər 10 ildə yeni nəsil mobil şəbəkə istifadəyə verilir. Məsələn, 2030-cu ilədək 6G texnologiyasının istifadəyə verilməsi gözlənilir. Layihə müəllifləri 6G mobil şəbəkəsinin istifadəsi nəticəsində dünyanın necə dəyişəcəyini əks etdirən çarx hazırlayıblar.

Mütəxəssislərin fikrincə, 2030-cu ilədək bizi əlavə reallıq və süni intellekt texnologiyaları əhatə edəcək. İnterfeys smartfonlarda deyil, birbaşa əlimizdə holoqram şəklində əks olunacaq. İstifadəçinin sağlamlığının izlənilməsinə daha çox diqqət yetiriləcək. Məsələn, hətta geyim orqanizmin həyat fəaliyyəti göstəricilərinə nəzarət edə biləcək. Şəhərlər qabaqcıl texnologiyaların köməyilə sakinlərin rahatlığı və təhlükəsizliyini təmin edəcəklər.

## Yarış vasitəsilə dil biliklərini sınadılar



İngilis dili resurs mərkəzləri fəaliyyət göstərən paytaxt məktəbləri arasında estafet yarışı keçirilib.

Dövlət himninin səsləndirilməsi ilə başlayan yarışda Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyindəki 189-190, 245 nömrəli tam orta məktəblər və 62 nömrəli məktəb-liseyin komandaları iştirak edib.

189-190 nömrəli tam orta məktəbdə təşkil olunan yarışda məktəblilər komanda şəklində yarışıblar. Üç mərhələdən ibarət yarışda komandalar ingilis dili üzrə bilik və bacarıqlarını idman oyunları vasitəsilə nümayiş etdiriblər.

Yarışın nəticələrinə əsasən, 245 nömrəli tam orta məktəbin komandası I, 189-190 nömrəli tam orta məktəbin komandası II, 62 nömrəli məktəb-liseyin komandası isə III yerə layiq görülüb.

Sonda komandalar kubok və medallarla təltif olunub.

Qeyd edək ki, BŞTİ və "British Council"un birgə əməkdaşlığı çərçivəsində yaradılan İngilis dili resurs mərkəzləri şagirdlərdə xarici dilin öyrənilməsinə marağı artırmaq və onların əldə etdikləri xarici dil biliklərini daha da möhkəmləndirmək məqsədlərinə xidmət edir.


"AZƏRBAYCAN MÜƏLLİMİ"

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktor**
Nurəddin Heydərov 538-21-66

**Mühasibatlıq** 539-67-74

**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 4837, **Sifariş** 1823

**Məsul növbətçi:** Y.Əliyev


## Körpə səslərini aydın dildə ifadə edən proqram yaradılıb



ABŞ-ın Los-Anceles Kaliforniya Universitetinin alimləri öncə zəif eşidən valideynlər üçün ümumi fonda körpənin ağlamasını ayırd edə bilməkdən ötrü proqram hazırlayıb. "Chatterbaby" adlandırılmış proqram təminatının sınaqları zamanı məlum olub ki, körpə səslərini üç kateqoriyaya aid etmək olar: aclıq, ağrı və sıxıntı. Təcrübəli ana səsdən körpənin nə istədiyini başa düşə bilər. Yeni proqram alqoritmi məhz bu məqsədə xidmət edəcək.

**www.techcult.ru** saytının məlumatına görə, tapşırıq həm asan, həm də mürəkkəb olub, çünki körpə refleksli olaraq davranır. Ağrı hissləri onu fasiləsiz qışqırmağa məcbur edir, halbuki adi tələş zamanı səslər arasında fasilə mövcuddur. Yemək tələbi öz akustik özəlliklərinə malikdir və proqram 2000 nümunəni öyrəndikdən sonra körpə səslərini 90 faiz dəqiqliklə ayırd etməyə müvəffəq olub.

Genotip, dəqiq yaş, iqlim, mühit və digər amillər körpənin səsinə kifayət qədər güclü təsir göstərir. Buna görə də mütəxəssislər çox sayda körpənin səs nümunələrindən ibarət məlumat bazası yaratmağa dair qərar verib. "Chatterbaby" proqramının istifadəçilərinə öz körpələrinin səslərini yazmaq və onları göndərmək təklif edilir. Bu informasiyanın fərdiləşdirilməyəcəyinə dair söz verilib. Bu texniki məlumatlar sadəcə alqoritmlərin optimallaşdırılması üçün lazımdır.

## "iPhone" smartfonları üçün prosessorların istehsalına başlanılıb



Tayvanın "TSMC" şirkəti "Apple" istehsalçısının payızda təqdim edəcəyi növbəti nəsil "iPhone" smartfonları üçün prosessorların seriyalı buraxılışına başlayıb.

**www.hitech.vesti.ru** saytının məlumatına görə, ABŞ şirkətinin "A12" adlı yeni prosessoru 7 nanometrlik texnoloji prosesdən istifadə edən çip üzərində ilk mobil sistem olacaq. Hazırda ən qabaqcıl çiplər, o cümlədən "iPhone X" və "iPhone 8" modellərində "Apple A11", eləcə də "Qualcomm Snapdragon 845" 10 nanometrlik texnoloji proses üzrə buraxılır.

Bildirilir ki, 7 nanometrlik (göstərici çipin hesablama elementləri arasında məsafəni bildirir) prosessorlar 10 nanometrlik çiplərdən daha effektiv, məhsuldar və yığcam olacaq. Onlarla təchiz edilən smartfonlar eyni məhsuldarlığa malik olmaqla enerji topladan daha çox işləyə və az qıza və ya əvvəlki nəsil çiplərin avtonomluğunu və termopaketini saxlamaqla daha güclü olacaqlar.

"TSMC" şirkətinin nümayəndələri qeyd edib ki, yalnız çip üzərində bir neçə mobil sistemlər üçün yararlı olan 10 nanometrlik texnoloji prosesdən fərqli olaraq yeni texnoloji proses mobil "SoC" texnologiyaları ilə yanaşı, müxtəlif təyinatlı çiplər, o cümlədən mərkəzi və qrafik prosessorlar, neyron hesablamalar, avtomobil avadanlığı və kriptovalyuta mayninqi komponentləri üçün istifadə ediləcək.

## İnsanın 3D-modelini yaradan kamera təqdim olunub



Maks Plank İnstitutunun mühəndisləri insanın bədənində əlavə nişanlar olmadan onun 3D-modelini yaratmağa və bir kameranın köməyilə hərəkətləri təqlid etməyə imkan verən texnologiyanı nümayiş etdiriblər.

**www.nanonewsnet.ru** saytının məlumatına görə, kameranın qarşısında "T" vəziyyətində bir neçə dəfə gəzişmək lazımdır ki, texnologiya insanın fiqurunu və yerişini qeydə alsın. Gələcəkdə bu kameradan istifadə edərək, bir anda 3D-səhnələr və animasiyalar yaratmaq, videoçarxlarda fonu dəyişdirmək və əlavə reallıq təsvirləri yaratmaq mümkün olacaq.

## Etibarsız sayılır

**ADNSU-nun nəzdində Bakı Neft Energetika Kolleci** tərəfindən 2017-ci ildə Səmədov Ayət Adil oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 213 nömrəli tam orta məktəbi 1980-ci ildə bitirmiş Fərmanov Samir Məhəmmədoviçə verilmiş 261205 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qusar şəhər** 3 nömrəli tam orta məktəbi 1994-cü ildə bitirmiş Yaraliyeva Könül Şinğar qızına verilmiş A-074454 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ucar rayonu** Lək kənd 2 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Əzizova (Əsgərova) Yasəmən Bayraməli qızına verilmiş B-507042 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Balakən rayonu** Tülü kənd 1 nömrəli tam orta məktəbin IX sinfini 1992-ci ildə bitirmiş Xəlilova Mətanət Qüdrət qızına verilmiş A-558843 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Balakən rayonu** Katex-zavod kənd tam orta məktəbini 2009-cu ildə bitirmiş Xalayeva Şahidə Vaqif qızına verilmiş B-660387 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Odlar Yurdu Kolleci** tərəfindən 2017-ci ildə Məmmədova Asya Anar qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** tərəfindən 2009-cu ildə Əşrəfov Anar Rəsul oğluna verilmiş B-146638 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** tərəfindən 2000-ci ildə Musayev Heydər Binyətəli oğluna verilmiş A-034521 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2016-cı ildə İsayeva İnsafxanım Elşən qızına verilmiş B-102638 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir Politexnik İnstitutu** tərəfindən 2002-ci ildə Kərimov Rəşad Tahir oğluna verilmiş A-098607 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Hacıqabul rayonu** Qubalıbaloğlan kənd tam orta məktəbini 1993-cü ildə bitirmiş Nəzərova Sevinc Hüseyn qızına verilmiş A-124725 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt Tibb Kolleci** tərəfindən 2007-ci ildə Nuriyeva Gülşanə Rauf qızına verilmiş BB-II-049657 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 129 nömrəli tam orta məktəbin VIII sinfini 1989-cu ildə bitirmiş Məmmədova Gülnarə Nəbi qızına verilmiş 579690 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 179 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş İsmiyev Rövşən İsrafil oğluna verilmiş A-504199 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayonu** Türklər kənd tam orta məktəbinin IX sinfini 2014-cü ildə bitirmiş Xəlilova Aysel Asif qızına verilmiş A-380227 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**1 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2016-cı ildə Musazadə Tərxan İsa oğluna verilmiş A-492922 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı 2 nömrəli Baza Tibb Məktəbi** tərəfindən 1996-cı ildə Çələbiyeva Şəfəq Qüdrət qızına verilmiş AB-II-027131 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 296 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Məmmədli Xəyal Vilayət oğluna verilmiş A-311992 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qafqaz Universiteti** tərəfindən 2009-cu ildə Aişe Üliç İbrahim qızına verilmiş BC-176600 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2017-ci ildə Sultanov Nahid Cahid oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Masallı rayonu** Sığıncaq kənd tam orta məktəbinin VIII sinfini 1981-ci ildə bitirmiş Məmmədova Yemən Aydın qızına verilmiş A-217911 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Laçın rayon** 32 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş İbrahimova (Quliyeva) Zülfiyyə Rabil qızına verilmiş A-442196 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 168 nömrəli tam orta məktəbi 1987-ci ildə bitirmiş Cabbarov Namiq Əli oğluna verilmiş 414572 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2017-ci ildə Əbilova Günay Rauf qızına verilmiş A-103439 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Kimya-biologiya təmayüllü Respublika Liseyini** 2000-ci ildə bitirmiş Muxtarova Ülviyyə Vasif qızına verilmiş A-413617 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 14 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Ağazadə İlknur Mirbala oğluna verilmiş B-485060 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 150 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Əfəndiyeva Nazilə Murad qızına verilmiş B-578682 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2017-ci ildə Məmmədov Seymur Bakir oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Zəngilan rayon** 26 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Rəfili Rəfi Çingiz oğluna verilmiş B-638756 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 102 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş İbişova Müjgan Oruc qızına verilmiş B-362132 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Respublika İncəsənət Gimnaziyasını** 2005-ci ildə bitirmiş Quliyeva Elnarə Ramiz qızına verilmiş B-122495 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki rayonu** Baş Kəldək kənd tam orta məktəbinin IX sinfini 2007-ci ildə bitirmiş Əhmədova Gülnar Şəmsəddin qızına verilmiş A-449605 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası** tərəfindən 2006-cı ildə Əhmədov Şəmsi Vidadi oğluna verilmiş B-064969 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2004-cü ildə Sarıyev Əlinur Çingiz oğluna verilmiş B-003980 nömrəli bakalavr və 2009-cu ildə verilmiş MBN-018083 nömrəli magistr diplomları itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 2 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Axundzadə Emin Elçin oğluna verilmiş B-065702 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayonu** Mollaisalar kənd tam orta məktəbini 2008-ci ildə bitirmiş Musayeva Məleykə Saleh qızına verilmiş B-564285 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 277 nömrəli idman təmayüllü tam orta məktəbin IX sinfini 2009-cu ildə bitirmiş Abbasov Samir Eldar oğluna verilmiş A-758666 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 47 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Abbasova Nəcibə Ağamehdi qızına verilmiş A-654399 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Kooperasiya Universiteti** tərəfindən 2013-cü ildə Vəliyeva Naibə Tanrıverdi qızına verilmiş A-021586 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Cəbrayıl rayonu** Əmirvarlı kənd tam orta məktəbini 2009-cu ildə bitirmiş Vəliyeva Naibə Tanrıverdi qızına verilmiş B-636116 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayonu** Şahriyar kənd tam orta məktəbini 2003-cü ildə bitirmiş Sadiqova Elnarə Paşa qızına verilmiş A-734935 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ucar rayonu** Qəzyan kənd 2 nömrəli tam orta məktəbi 1991-ci ildə bitirmiş Mahmudova Zeynəb Abdulhüseyn qızına verilmiş A-000121 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayonu** Mollalı kənd tam orta məktəbini 2001-ci ildə bitirmiş Əkbərov Hümbət Məhəmməd oğluna verilmiş A-537331 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Təhsil Nazirliyinin Maliyyə şöbəsinin müdiri Rauf Orucov və şöbənin kollektivi Azərbaycan Dillər Universitetinin rektorunun maddi-texniki və maliyyə məsələləri üzrə müşaviri Nüşabə Tanrıverdiyevaya anası

**SUĞRA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

132-134 nömrəli təhsil kompleksinin pedaqoji kollektivi kompleksin ibtidai sinif müəllimi İradə Nağıyevaya bacısı

**AFAQ KAZIMOVANIN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

132-134 nömrəli təhsil kompleksinin pedaqoji kollektivi kompleksin ibtidai sinif müəllimi Südabə Səfixanovaya anası

**ALMAZ MƏMMƏDOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bakı Dövlət Universiteti nəzdindəki "Gənc istedadlar" liseyinin kollektivi liseyin müəllimi Niyazi Həsənova atası

**HƏSƏN MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# İngilis dilini öyrənənlər üçün dərs nümunələri

BRITISH COUNCIL

LearnEnglish

# Reading between the lines

by A. J. Dalton (amended by Jon Porter)

Do you like reading books? The British do. In fact a recent survey showed that reading is a more popular pastime among British adults than sex! Yet British libraries have been getting fewer and fewer visitors over the last couple of decades, so just what is going on?

Reading as a pastime is in good health in the UK, but how we read is changing hugely. The ‘book’ as a physical object might be dying ...



In 1997, the Net Book Agreement in the UK ended. The Agreement existed between UK bookshops and publishers, and fixed minimum prices for all books. With the end of the Agreement, books began to be discounted, and now they are much more affordable for British people. There is no doubt that one of the reasons for British libraries having fewer visitors is that books can now be so cheap to buy. Sales of books in the UK are always relatively healthy. They even go up during an economic downturn because people choose to stay in with a book rather than go out to a restaurant.

But what is a book? According to the Oxford dictionary, it’s ‘A written or printed work consisting of pages glued or sewn together along one side and bound in covers’.But is that definition still valid? Because now we are right in the heart of a reading revolution. E-books and their digital reading devices, audiobooks, multimedia books: we read in different ways now, using new technologies. But never mind the *how,* let’s look at *what* the British like to read. Here are a few of the most popular genres ...

## Fantasy

The UK has always been famous for its stories of magic and wizardry. There are strong cultural memories of the druids who built Stonehenge and ruled the country before the arrival of the Romans or Christianity. Shakespeare wrote fantastical plays: *The Tempest* and *A Midsummer Night’s Dream*, for example. *Frankenstein* was born when the infamous English poet Lord Byron invited Mary Shelley and others to create horror stories when holidaying in Geneva. It is part of a great British ‘Gothic’ tradition. J.R.R. Tolkien is credited with creating the modern genre of fantasy, with *The Hobbit* in 1937, but there was also a lot of fantasy in the work of H.G. Wells, who published *The Time Machine* in 1895. And the tradition of British fantasy is still alive and kicking. Everyone’s heard of J.K. Rowling and the humorous, recently deceased, Terry Pratchett. You might also have heard of Philip Pullman’s *His Dark Materials* trilogy too, as the first book was made into the film *The Golden Compass*, starring Nicole Kidman. In fact, the fantasy genre is so popular that new sub-genres such as ‘metaphysical fantasy’ and ‘steampunk’ are now emerging.

## Chick lit

Chick lit refers to books that are written about and for modern women. The most famous example is probably *Bridget Jones’s Diary,* by the British author Helen Fielding. Titles in this genre are usually about complicated love lives, modern working life and trying to remain healthy. These books usually contain humour or a ‘feel-good’ factor. In many ways, they represent escapist fantasy, but they are popular because they deal with day-to-day topics.

## Crime

The UK is known for its ‘detective fiction’ and ‘murder mysteries’. A couple of the most famous British authors in this genre are of course Sir Arthur Conan Doyle, who started the *Sherlock Holmes* stories in 1887, and Agatha Christie, who created the detectives Hercule Poirot and Miss Marple. These characters are still popular on television and in film. There’s the Hollywood film with Robert Downey Jr and Jude Law, directed by Guy Ritchie, and then there’s the ongoing BBC Sherlock series with Benedict Cumberbatch and Martin Freeman. And there are many contemporary popular British authors of crime fiction: P.D. James, Ian Rankin, Colin Dexter.

## Celebrity (auto)biographies

It seems that every minor celebrity has written a book these days. They’re not really serious authors and are simply cashing in on their ‘15 minutes’ of fame. Many of their books are ‘kiss and tell’, i.e. they’re of interest to readers only because of the secrets they reveal about other famous people. A number of the books are not even written by the celebrity themselves – rather, they have been written by anonymous ‘ghost writers’. Even so, this genre is popular because the celebrity culture is well developed in the UK.

Leading contemporary British novelist Will Self, author of eleven literary novels, claims the novel is dying. But I don’t think there’s any need to call in Sherlock Holmes to investigate this particular death just yet. Are bookshops dying out because of websites like Amazon? Not really. The British are bibliophiles and love to browse in bookshops, particularly when there is a coffee bar within the store. So, are libraries completely disappearing in the UK? Well, nearly 500 libraries have closed down in the last five years. But that isn’t just because of reader demand, it’s also down to government cuts in public spending. And the library is adapting: most now offer computer access and training as well as books for borrowing. Finally, 62 per cent of British parents read their children bedtime stories and none of us can see that tradition changing soon. So long live the book!

### Activity 1: Genres

Look at this list of book genres. For each genre, decide if they are fiction (F) or non-fiction (N).

1 romance
2 social history
3 fantasy
4 celebrity autobiographies
5 thrillers
6 crime
7 horror
8 chick lit
9 self-help
10 popular science

Which ones do you read?

### Activity 2: Multiple matching

Match the statements below to the correct genre: fantasy (F), chick lit (CL), crime (CR) or celebrity autobiography (CA). More than one answer may be possible for each statement.

1 Films have been made based on the books of British authors
2 Specific sub-genres are mentioned
3 Is more about money than art
4 popular British writers from both the past and today are mentioned
5 It might make you laugh
6 It comes from some of the oldest ideas and traditions in UK culture

### Activity 3: Multiple choice

1 Why don’t British people use libraries as much as they used to?
 a Because there are no coffee bars in libraries
 b Because people don’t read as much as in the past
 c Because books are cheaper than they used to be
2 Why is British fantasy so popular?
 a Because of the druids
 b Because it is a part of the British cultural identity
 c Because there are so many British fantasy authors
3 What does the author of the article think will happen to books in the future?
 a They will stay popular
 b They will become more popular
 c They will be replaced by computers

### Answers

Activity 1: 1 F, 2 N, 3 F, 4 N, 5 F, 6 F, 7 F, 8 F, 9 N, 10 N

Activity 3: 1 c, 2 b, 3 a

Fun corner: 1 frog, 2 wand, 3 star, 4 cauldron, 5 broomstick, 6 elves

Activity 2: 1 F, CL, CR; 2 F; 3 CA; 4 F, CR; 5 F, CL; 6 F

# Fun corner

**Look at the clue and then solve the anagram. All the words are related to the genre of fantasy.**

1 The Prince was turned into one of these: G F O R
2 A wizard waves this to cast a spell: N W D A
3 You might find one of these on a wizard’s hat: T A R S
4 A witch mixes her ingredients in this: C L D R N O U A
5 A witch rides one of these: B R M S T C K I O O
6 They live in the forest: V S L E E

# Word of the day

Someone who reads a lot is called ‘**a bookworm**’. ‘He always has his nose in a book. He’s a right bookworm!’






© British Council 2016